


# Avropa Şurası Azərbaycan üçün Fəaliyyət Planı 2022-2025

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

# Avropa Şurası

# Azərbaycan üçün Fəaliyyət Planı 2022-2025

CM(2022)21
1 fevral 2022-ci il

*Sənəd Proqramlar üzrə Baş Direktorluq tərəfindən hazırlanmışdır*

*Sənəd Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən*
*16 fevral 2022-ci ildə təsdiq edilmişdir (CM/Del/Dec(2022)1425/2.3)*

**QISA XÜLASƏ**

Avropa Şurasının Azərbaycan üçün 2022-2025-ci illər üzrə Fəaliyyət Planı Azərbaycanın qanunvericiliyini, institutlarını və praktikasını insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində Avropa Şurasının standartlarına daha da uyğunlaşdırmaq məqsədi daşıyan strateji proqram alətidir. Fəaliyyət Planı ölkənin Avropa Şurasının üzvü olan dövlət qismində öhdəliklərini yerinə yetirmək səylərini dəstəkləmək məqsədi daşıyır.

Fəaliyyət Planının prioritetlərində digər qurumlarla yanaşı aşağıdakıların qərarları, qətnamələri, tövsiyələri, hesabatlarındakı qənaətləri və rəyləri nəzərə alınmışdır: Nazirlər Komitəsi (NK), Parlament Assambleyası (AŞPA), Yerli və regional hakimiyyətlər Konqresi (Konqres), İnsan Hüquqları üzrə Komissar (Komissar), Avropa Şurasının Hüquq vasitəsilə demokratiya uğrunda Avropa Komissiyası (Venesiya Komissiyası), Sosial hüquqlar üzrə Avropa Komitəsi (SHAK), Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ), İrqçilik və dözümsüzlüyə qarşı Avropa Komissiyası (ECRI), Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), Pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL) və digər monitorinq mexanizmləri və ekspert məsləhət orqanları. Burada həmçinin Azərbaycanın milli islahatlar gündəliyi, o cümlədən "*Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər*" strateji sənədi, "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf strategiyası", "Məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı (MFP)" və digər sənədlər nəzərə alınmışdır.

Bu Fəaliyyət Planına əsasən, Avropa Şurası və Azərbaycanın hakimiyyət orqanları əməkdaşlıq proqramları vasitəsilə aşağıdakıların həyata keçirilməsinə yönələn islahatların birgə irəliyə aparılmasını davam etdirmək barədə razılığa gəlmişlər: Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) presedent hüququnun tətbiqi və milli məhkəmə qərarlarının icrası, cinayət ədliyyəsi sisteminin təkmilləşdirilməsi və fundamental azadlıqların təmin edilməsi, medianın potensialının artırılması, məlumatların qorunmasının gücləndirilməsi, gender bərabərliyinin təşviqi və qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə, uşaq hüquqlarının təşviqi, sosial hüquqların təmin edilməsi, məhkəmə sisteminin, o cümlədən konstitusiya ədliyyəsinin səmərəliliyinin, hesabatlılığının və şəffaflığının artırılması, korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizənin gücləndirilməsi, kibercinayətkarlıqla mübarizə, penitensiar sistemdə islahatların daha da irəliyə aparılması, seçki islahatlarının aparılması, milli hakimiyyət orqanları ilə vətəndaş cəmiyyəti təşkilatları arasında dialoqun genişləndirilməsi, ətraf mühitin mühafizəsinin dəstəklənməsi, gənclərin insan hüquqları sahəsində təhsilinin təşviqi və məktəblərdə demokratik və inklüziv mühitin formalaşdırılması. Tərəflər həmçinin ayrı-seçkiliyə qarşı milli qanunvericiliyin və praktikanın Avropa Şurası standartlarına uyğunlaşdırılması, ifadə azadlığının təmin edilməsi, süni intellekt, Azərbaycanın milli qanunvericiliyinə və beynəlxalq öhdəliklərinə uyğun olaraq narkotik maddələrdən sui-istifadə ilə və qanunsuz narkotik ticarəti ilə mübarizə və insan alverinə qarşı mübarizə kimi yeni əməkdaşlıq sahələrini müəyyən etmişlər.

Münaqişədən sonrakı mümkün konkret məsələlərlə bağlı Azərbaycan hakimiyyəti ilə müzakirələr aparılmışdır.

Fəaliyyət Planı həmçinin əvvəlki Fəaliyyət Planlarının nəticələrinə əsaslanır və həmin planlar üzrə aşağıdakı sahələrdə müsbət dəyişikliklər qeydə alınmışdır: gender bərabərliyinin təşviqi; uşaq hüquqlarının təşviqi; məhkəmələrin potensialının artırılması və məhkəmə idarəçiliyinin təkmilləşdirilməsi; korrupsiya və kibercinayətkarlıqla mübarizə; media azadlığının təşviqi və jurnalistika standartlarının təkmilləşdirilməsi; penitensiar müəssisələrdə idarəetmənin təkmilləşdirilməsi və həmin müəssisələrdəki tibb işçilərinin potensialının artırılması; və insan hüquqları sahəsində gənclərin təhsilinin inkişafı.

Fəaliyyət Planı həmçinin *Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM),* xüsusilə aşağıdakı məqsədlərin dəstəklənməsi vasitəsilə *"BMT-nin 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyi"nin* həyata keçirilməsinə kömək edəcəkdir: 3-cü məqsəd – sağlamlıq və rifah, 4 – keyfiyyətli təhsil; 5 – gender bərabərliyi; 10 – qeyri-bərabərliyin azaldılması; və 16 – sülh, ədalət və güclü təsisatlar.

Bu Fəaliyyət Planı üçün ümumi büdcə 9,6 milyon avro təşkil edir.

Ardıcıl Fəaliyyət Planları qanunvericiliyin Avropa və beynəlxalq standartlara uyğunlaşdırılmasına, institusional potensialın artırılmasına, qabaqcıl təcrübənin tətbiqinə və nəhayət, Azərbaycan vətəndaşlarının həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir.

**MÜNDƏRİCAT**


QISA XÜLASƏ ..... 2

MÜNDƏRİCAT ..... 3

QISALTMALARIN VƏ ABREVİATURALARIN SİYAHISI ..... 4

I HİSSƏ. GİRİŞ ..... 6

1.1 ÜMUMİ İCMAL ..... 6

1.1.1 Azərbaycan və Avropa Şurası ..... 6

1.1.2 Avropa Şurasının texniki yardım proqramlarının dəyərli töhfələri ..... 6

1.1.3 Monitorinq mexanizmlərinin və ekspert məsləhət orqanlarının əsas qənaətləri ..... 7

1.2 FƏALİYYƏT PLANININ MƏQSƏDLƏRİ ..... 8

II HİSSƏ. 2022-2025-ci İLLƏR ÜÇÜN TƏKLİF EDİLƏN FƏALİYYƏTLƏR ..... 9

2.1 İNSAN HÜQUQLARI ..... 9

2.1.1 İHAK-ın səmərəli tətbiqi ..... 10

2.1.2 Bərabərlik və insan ləyaqəti ..... 14

2.1.3 Ayrı-seçkiliyə yol verilməməsi, müxtəliflik və inklüzivlik ..... 16

2.1.4 Sosial hüquqlar ..... 16

2.1.5 Ətraf mühit və iqlim dəyişikliyi sahəsində əməkdaşlıq ..... 17

2.2 QANUNUN ALİLİYİ ..... 18

2.2.1 Qanunun aliliyinə əsaslanan təsisatlar ..... 19

2.2.2 Cinayətkarlığa qarşı mübarizə, vətəndaşların təhlükəsizliyi və müdafiəsi ..... 20

2.3 DEMOKRATİYA ..... 24

2.3.1 Demokratik idarəetmə ..... 24

2.3.2 Demokratik iştirakçılıq ..... 25

III HİSSƏ. İCRA ..... 27

3.1 METODOLOGİYA ..... 27

3.2 BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ TÖHFƏ ..... 29

3.3 KOORDİNASİYA ..... 31

3.4 MALİYYƏLƏŞDİRMƏ ..... 32

3.5 İDARƏETMƏ ..... 33

ƏLAVƏ I. MƏNTİQİ CƏDVƏL ..... 34

ƏLAVƏ II. RİSKLƏRİN SİYAHISI ..... 51

ƏLAVƏ III. MALİYYƏ CƏDVƏLİ ..... 55

ƏLAVƏ IV. MƏNBƏLƏR/MÜVAFİQ SƏNƏDLƏR ..... 56

QISALTMALARIN VƏ ABREVİATURALARLN SİYAHISI

| | |
|---|---|
| Fəaliyyət Planı | Avropa Şurasının Azərbaycan üçün 2022-2025-ci illər üzrə Fəaliyyət Planı |
| Sİ | Süni intellekt |
| ÇPY/TM ilə mübarizə | Çirkli pulların yuyulmasına/terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə |
| ASK | Azərbaycan Sahibkarlar Konfederasiyası |
| AHİK | Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası |
| Bern Konvensiyası | Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında Konvensiya |
| Budapeşt Konvensiyası | Avropa Şurasının Kibercinayətkarlıq haqqında Konvensiyası (ETS № 185) |
| CCPE | Avropa Prokurorlarının Məşvərət Şurası |
| CEDAW | Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya |
| CEPEJ | Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası |
| NK | Avropa Şurasının Nazirlər Komitəsi |
| Konqres | Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresi |
| 108 saylı Konvensiya | Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiya |
| 108+ saylı Konvensiya | Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiya və onun protokolu |
| COP 198 | Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi və terrorçuluğun maliyyələşdirilməsi haqqında Avropa Şurası Konvensiyasının Tərəflərinin Konfransı |
| CPT | İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi |
| VCT | Vətəndaş cəmiyyəti təşkilatı |
| İHAK | İnsan hüquqları haqqında Avropa Konvensiyası |
| SHAK | Sosial Hüquqlar üzrə Avropa Komitəsi |
| ECRI | İrqçilik və dözümsüzlüyə qarşı Avropa Komissiyası |
| AİHM | Avropa İnsan Hüquqları Məhkəməsi |
| ASX | Avropa Sosial Xartiyası |
| Aİ | Avropa İttifaqı |
| FATF | Maliyyə Tədbirləri üzrə İşçi Qrupu |
| FCNM | Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası |
| GR-DEM | Demokratiya üzrə Məruzəçilər Qrupu |
| GRECO | Korrupsiyaya qarşı Dövlətlər Qrupu |
| GRETA | Avropa Şurasının İnsan alverinə qarşı mübarizə üzrə Ekspertlər Qrupu |
| HELP | Avropa Şurasının Hüquqşünaslar üçün insan hüquqları sahəsində Avropa təhsil proqramı |
| ICESCO | İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı |
| İstanbul Konvensiyası | Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyası (CETS № 210) |
| Lansarote Konvensiyası | Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında Avropa Şurasının Konvensiyası (CETS № 201) |
| Lansarote Komitəsi | Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında Konvensiyanın Tərəflərinin Komitəsi |
| Luqano Konvensiyası | Ətraf mühit üçün təhlükəli fəaliyyətlər nəticəsində vurulmuş ziyana görə mülki məsuliyyət haqqında Konvensiya |
| MONEYVAL | Pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi |
| MFP | Milli Fəaliyyət Planı |
| ARGTMŞ | Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası |
| QHT | Qeyri-hökumət təşkilatı |
| NSC | Avropa Şurasının Şimal-Cənub Mərkəzi |
| AB | Adi büdcə |
| ODGP | Proqramlar üzrə Baş Direktorluq |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| AŞPA | Avropa Şurasının Parlament Assambleyası |
| PGG | Şərq Tərəfdaşlığı proqramı çərçivəsində Avropa İttifaqının/Avropa Şurasının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı |
| PMM | Avropa Şurasının Layihə İdarəetmə Metodologiyası |
| DİM | Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri |

| | |
|---|---|
| Komissar | Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı |
| İA | İnsan alveri |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| UNAOC | Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansı |
| UNESCO | Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı |
| UNWTO | Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatı |
| QQZ | Qadınlara qarşı zorakılıq |
| KY | Könüllü yardım |
| Venesiya Komissiyası | Hüquq vasitəsilə demokratiya uğrunda Avropa Komissiyası |

# I HİSSƏ. GİRİŞ

## 1.1 ÜMUMİ İCMAL

### 1.1.1 Azərbaycan və Avropa Şurası

Azərbaycan Respublikası 25 yanvar 2001-ci ildə Avropa Şurasının 43-cü üzvü olmuşdur. Müvafiq olaraq, o, Parlament Assambleyasının *222 (2000) saylı Rəyində* sadalanan bir sıra konkret öhdəlikləri öz üzərinə götürmüş və yerinə yetirməyə razılıq vermişdir.

Azərbaycan Nizamnamənin 3-cü maddəsinə əsasən bütün üzv dövlətlərin üzərinə düşən öhdəlikləri qəbul etmişdir [1]: plüralist demokratiya və qanunun aliliyi prinsiplərinə riayət etmək, habelə özünün yurisdiksiyasında olan bütün şəxslərin insan hüquqlarına və əsas azadlıqlarına hörmət etmək.

Bu günədək ölkə Avropa Şurasının 65 müqaviləsini imzalamış və ratifikasiya etmiş, daha 7 müqaviləni isə yalnız imzalamışdır və Avropa Şurasının bir sıra mexanizm və orqanlarının, o cümlədən aşağıdakıların subyektidir: Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM), Avropa Şurasının Nazirlər Komitəsi (NK), Avropa Şurasının Parlament Assambleyası (AŞPA), Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı (Komissar), Hüquq vasitəsilə demokratiya uğrunda Avropa Komissiyası (Venesiya Komissiyası), İrqçilik və dözümsüzlüyə qarşı Avropa Komissiyası (ECRI), İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi (CPT), Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi və terrorçuluğun maliyyələşdirilməsi haqqında Avropa Şurası Konvensiyasının Tərəflərinin Konfransı (COP198), Pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL), Sosial Hüquqlar üzrə Avropa Komitəsi (ECSR), Avropa Şurasının İnsan alverinə qarşı mübarizə üzrə Ekspertlər Qrupu (GRETA), Yerli və Regional Hakimiyyətlər Konqresi (Konqres), Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) və Avropa Prokurorlarının Məşvərət Şurası (CCPE). Azərbaycan həmçinin 2010-cu il avqustun 1-dən Avropa Şurasının Şimal-Cənub Mərkəzinin (NSC) Genişləndirilmiş Tərkibli Sazişinin iştirakçısıdır.

Avropa İttifaqı tərəfindən dəstəklənən keçmiş proqramlar korrupsiya ilə mübarizə, ədalət mühakiməsi sistemində səmərəliliyin artırılması, jurnalistika təhsili və təliminin keyfiyyətinin yüksəldilməsi, Ədliyyə Akademiyasının rolunun və potensialının artırılması, hüquqşünasların hazırlanması və penitensiar sistemdə islahatlara dəstək məqsədi daşıyırdı. Eynilə, Avropa Şurasına üzv dövlətlərin könüllü yardımları jurnalist hazırlığı, insan hüquqları və demokratik vətəndaşlığın tədrisi sahəsində gənclər siyasəti, seçkilərə yardım və vətəndaş cəmiyyəti sahələrində layihələrin maliyyələşdirilməsinə kömək etmişdir. 2014-2016-cı illər (2017-ci ilə qədər uzadılmışdır) və 2018-2021-ci illər üçün Azərbaycanda demokratik islahatları dəstəkləməkdən ötrü hazırlanmış iki Fəaliyyət Planı o vaxtdan bəri Avropa Şurası ilə əməkdaşlıq üçün ümumi strateji baza təşkil edir.

### 1.1.2 Avropa Şurasının texniki yardım proqramlarının dəyərli töhfələri

Avropa Şurasının texniki yardım proqramları standartların təyin edilməsindən, monitorinqdən və əməkdaşlıqdan ibarət unikal strateji üçbucağın tərkib hissəsini təşkil edir: məcburi hüquqi qüvvəyə malik olan standartların hazırlanması onların müstəqil mexanizmlər vasitəsilə monitorinqi ilə əlaqələndirilir və onların həyata keçirilməsini asanlaşdırmaq üçün texniki əməkdaşlıq vasitəsilə dolğunlaşdırılır. Təşkilatın tədbirləri Avropa Şurasının böyük təcrübəyə malik olduğu və dəyərli töhfələr verdiyi sahələrdə hazırlanır və həyata keçirilir.




***Şəkil 1: Avropa Şurasının strateji üçbucağı***

[1] Avropa Şurasının təsis sənədləri — *http://www.coe.int/en/web/conventions/full-list/-/conventions/rms/0900001680306052*.

### 1.1.3 Monitorinq mexanizmlərinin və ekspert məsləhət orqanlarının əsas qənaətləri

Bu Fəaliyyət Planı böyük ölçüdə Avropa Şurasının monitorinq və ekspert məsləhət orqanlarının ölkə ilə bağlı ən son qərarlarına, qətnamələrinə, tövsiyələrinə, hesabatlarında yer alan nəticələrə, rəylərinə və qənaətlərinə əsaslanır. 2018-2021-ci illər üçün Avropa Şurasının müəyyən etdiyi əvvəlki Fəaliyyət Planının nəticələri də nəzərə alınır. Bundan başqa, hazırkı Fəaliyyət Planında Baş Katibin Avropada demokratiya, İnsan hüquqları və qanunun aliliyi sahəsində vəziyyətlə bağlı illik hesabatlarında müəyyən edilmiş problemlər də nəzərə alınır. Bundan əlavə, *"Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"* strateji sənədində, "Məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nda, "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nda və "Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda müəyyən edilmiş ölkədəki islahatların prioritetləri Fəaliyyət Planında öz əksini tapmışdır.

Hazırkı Fəaliyyət Planının tərtib edilməsdində və islahatlara texniki əməkdaşlıq dəstəyinin işlənib hazırlanmasında Avropa Şurasının institutları, monitorinq mexanizmləri və ekspert məsləhət orqanları tərəfindən müəyyən edilmiş boşluqlar nəzərə alınmış və müvafiq sənədlər əlavələrə daxil edilmişdir.

**Əvvəlki Fəaliyyət Planlarının əsas nəticələri**

Bu Fəaliyyət Planında Azərbaycanla əvvəlki 2014-2017 və 2018-2021-ci illər üzrə Fəaliyyət Planlarının nəticələrinin aşağıdakı siyahısı (siyahı tam deyil) nəzərə alınır[2]:

- Ədliyyə Akademiyasının təlim potensialı əhəmiyyətli dərəcədə artmışdır.
- Azərbaycanda cinayət ədliyyəsi sisteminin təkmilləşdirilməsi üzrə yol xəritəsi hazırlanmış və səlahiyyətli orqanlara təqdim edilmişdir.
- Universitetlərdə istifadə edilmək üçün "Jurnalistika etikası" və "Media və ifadə azadlığı" fənləri üzrə kurikulumlar, o cümlədən dörd dərslik hazırlanmışdır; Azərbaycanın müxtəlif bölgələrindən olan 250 jurnalistə ifadə azadlığı və offlayn və onlayn rejimdə şəxsi həyatın toxunulmazlığı hüququ; gender bərabərliyi və media; və mediada seçkilərin işıqlandırılması mövzusunda təlimlər keçirilmişdir.
- Azərbaycan Mətbuat Şurası "*Gender bərabərliyi və ayrı-seçkiliyə yol verilməməsi prinsipinin müdafiəsi*" adlı yeni standart müəyyən edən sənədi hazırlayaraq "Jurnalistlərin peşə davranışı qaydaları"nda dəyişiklikləri qəbul etmişdir.
- Azərbaycan xəbər istehsalçıları üçün "*Gender bərabərliyi və media*" mövzusunda bələdçi hazırlanaraq paylanmışdır.
- "*Gender bərabərliyi və media azadlığı*" mövzusunda yeni kursun kurikulumu hazırlanmışdır. Yeni kurs 2020-2021-ci tədris ilindən Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində tədris ediləcəkdir.
- Məişət zorakılığı ilə mübarizəyə dair Milli Fəaliyyət Planı təsdiq edilmişdir.
- Azərbaycan Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında Avropa Şurasının Konvensiyasını (Lansarote Konvensiyası) ratifikasiya etmişdir. İnternetdə uşaqlara qarşı cinsi istismar və zorakılığın qarşısının alınmasına, onunla mübarizəyə və çoxsektorlu əməkdaşlığın gücləndirilməsinə yönələn qanunvericilik, siyasət və praktikada boşluqların təhlili aparılmışdır.
- Məhkəmə idarəçiliyi Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) göstəriciləri (indikatorları) və metodologiyası əsasında təkmilləşdirilmişdir – beş pilot məhkəmə hazırda bütün kateqoriyalar üzrə işlərin həllində 100%-ə yaxın göstəriciyə nail olmuş və heç bir iş yükünün yığılması faktı müəyyən edilməmiş; işlərin həllinə sərf olunan vaxt xeyli azalmışdır.
- CEPEJ alətlərinin yayılması üçün yol xəritəsinin hazırlanması yekunlaşdırılmışdır. Həssas qrupların məhkəmələrə çıxışı və məhkəmə sistemi üçün kommunikasiya strategiyası üzrə alətlər hazırlanmışdır.
- Terrorçuluğa və kütləvi qırğın silahlarının yayılmasına qarşı məqsədyönlü maliyyə sanksiyaları üzrə milli qanunvericilik bazası təhlil edilmiş və tövsiyələr verilmiş və onlar "Məqsədli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının yeni qanun layihəsinə və Cinayət Prosessual Məcəlləsinə müvafiq əlavələrə daxil edilmişdir.
- Cəzaçəkmə müəssisələrinin tibbi personalının və rəhbərlərinin peşə bacarıqları beynəlxalq standartlara uyğun olaraq artırılmışdır.
- Cəzaçəkmə müəssisələrinin idarə edilməsi və cəzaçəkmə müəssisələrində səhiyyə xidmətlərinə dair Fəaliyyət Planlarına yenidən baxılmış və milli hakimiyyət orqanları tərəfindən təsdiq edilmişdir.

[2] Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planları: 2014-2017 (*ODGProg/Inf(2014)2-rev*); 2018-2021 (*GR-DEM(2018)15*).

- 13 vətəndaş cəmiyyəti təşkilatını və ekspertləri bir araya gətirən ayrı-seçkilik əleyhinə platforma/bərabərlik platforması bu sahədə vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi və vətəndaş cəmiyyəti ilə Ombudsman Aparatı kimi institutlar arasında dialoqun gücləndirilməsi istiqamətində işə başlamışdır.

Misli görünməmiş Covid-19 pandemiyasının əngəllərinin aradan qaldırılması və bu şəraitdə əvvəlki Fəaliyyət Planının icrasının davam etdirilməsi üçün 2020-ci ilin yazında ümumi prioritetlərə və qüvvədə olan məhdudiyyətlərə uyğun olaraq ayrı-ayrı layihələr üzrə iş planlarında dəyişiklik edilmişdir. Bu dəyişikliklər zərurət olduqda həm proqramların vəziyyətə uyğunlaşdırılmasını, həm də risklərii azaltmaq üçün texniki həllər sahəsində, xüsusən də İT-əsaslı həllər sahəsində tədbirlərin tətbiqini əhatə edirdi. Şərait tələb edərsə, bu Fəaliyyət Planının icrasına da eyni yanaşma tətbiq olunacaqdır.

Pandemiya ilə bağlı məhdudiyyətlərlə əlaqədar əsas strategiyaları/korrektələri aşağıdakı kimi qısaca ümumiləşdirmək olar:

- Proqramların vəziyyətə uyğunlaşdırılması: onlayn formatlara köçürülməsi daha asan olan fəaliyyət növlərinə diqqət yetirmək və (və ya) məhdudiyyətlər tətbiq edildikdə xüsusi onlayn yönümlü fəaliyyətlərdən istifadə etmək. Buraya, məsələn, hamısı distant qaydada aparılan öyrənmə, təlimçilər üçün təlim, masaüstü araşdırmalar/tədqiqat işləri, ekspert təhlilləri, sosial media elanlarından və xəbər bülletenlərindən geniş istifadə etməklə onlayn kommunikasiya kampaniyaları/tədbirləri və s. aid edilə bilər.
- Texniki həllər: görüşlər, məsləhətlər və ya təlim kimi fəaliyyətlərin onlayn formatlara köçürülməsi. Buraya, məsələn, son benefisiarların öyrənmə prosesində irəliləyişlərinin onlayn monitorinqi, onlayn təlim materiallarının hazırlanması, yazılı prosedurlar, videokonfrans vasitəsilə məsləhətləşmələr yolu ilə tərtib edilən sorğu vərəqəsi əsasında qiymətləndirmələr, məlumatlılığın artırılmasına yönələn materialların və kommunikasiya materiallarının hazırlanması və xüsusi yardımçı onlayn materialların təqdim edilməsi aid edilə bilər.
- Fəaliyyət Planının məqsədlərini sağlamlıq böhranı şəraitində həyata keçirmək üçün tərəfdaşların verdiyi konkret sorğuları cavablandırmaq.

**Məsləhətləşmə prosesi**

Bu Fəaliyyət Planı Azərbaycanın hakimiyyət orqanları ilə məsləhətləşmələrdən sonra hazırlanmışdır. Bu sənədin hazırlanması zamanı beynəlxalq tərəfdaşlarla, xüsusən də Avropa İttifaqı ilə məsləhətləşmələr aparılmışdır.

Nazirlər Komitəsi 2018-2021-ci illər üzrə Fəaliyyət Planının icrasına dair yekun hesabatı nəzərdən keçirməli, orada yer alan nəticələri nəzərə almalı və Azərbaycan üçün 2022-2025-ci illər üzrə yeni Fəaliyyət Planını təsdiq etməlidir.

1.2 Fəaliyyət Planının məqsədləri

Hazırkı Fəaliyyət Planı 2022-ci ildən 2025-ci ilə qədər olan dövr üçün strateji proqramlaşdırma alətidir. Onun **məqsədi** Azərbaycanın qanunvericiliyini, institutlarını və praktikasını insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində Avropa Şurasının standartlarına daha da uyğunlaşdıracaq islahatları dəstəkləməkdən və beləliklə, ölkənin Avropa Şurasına üzv olan dövlət qismində öhdəliklərinə əməl etmək səylərinə dəstək verməkdən ibarətdir.

Fəaliyyət Planında nəzərdə tutulan **əməkdaşlıq sahələri** aşağıdakılardır:

- Avropa Şurası strateji sahələrdə, yəni aşağıdakı istiqamətlərdə həyata keçirilən islahatların irəliyə aparılmasında (və mümkün olduqda başa çatdırılmasında) Azərbaycan hakimiyyətini dəstəkləməyə davam edəcəkdir:

  - İnsan hüquqları haqqında Avropa Konvensiyasının (İHAK) müddəalarının və Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) presedent hüququnun milli səviyyədə tətbiqinin təkmilləşdirilməsi və milli məhkəmələrin qərarlarının icrası mexanizmlərinin gücləndirilməsi;
  - cinayət ədliyyəsi sisteminin təkmilləşdirilməsi;
  - fundamental azadlıqların təmin edilməsi;
  - kütləvi medianın potensialının artırılması;
  - informasiya təhlükəsizliyinin və fərdi məlumatların qorunmasının gücləndirilməsi;
  - gender əsaslı və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə, gender bərabərliyinin təşviqi və gücləndirilməsi və qadınların ədalət mühakiməsinə çıxış imkanlarının yaxşılaşdırılması;

- uşaq hüquqlarının müdafiəsi və təşviqi;
- sosial hüquqların təmin edilməsi;
- məhkəmə hakimiyyətinin, o cümlədən konstitusiya ədliyyəsinin müstəqilliyinin və səmərəliliyinin artırılması;
- korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizə orqanlarının potensialının artırılması;
- kibercinayətkarlıqla mübarizə;
- saxlanma şəraitinin yaxşılaşdırılması;
- seçki islahatlarına dəstək;
- hökumət və vətəndaş cəmiyyəti institutları arasında dialoqun genişləndirilməsi;
- insan hüquqlarının və vətəndaşlığın tədrisi sahəsində gənclərin iştirakının gücləndirilməsi və potensialının artırılması.

- Avropa Şurası və Azərbaycanın hakimiyyət orqanları Avropa Şurasının institutları, monitorinq mexanizmləri və ekspert məsləhət orqanları tərəfindən həyata keçirilmiş son dövrlərə aid işlərə əsaslanaraq əməkdaşlıq üçün yeni istiqamətləri, o cümlədən aşağıdakıları birgə müəyyən etmişlər:

  - ifadə azadlığının təmin edilməsi və qorunması;
  - cinayət ədliyyəsi sistemi;
  - süni intellekt;
  - ətraf mühitin mühafizəsi;
  - tolerantlığın və ayrı-seçkiliyə yol verilməməsinin təşviqi;
  - insan alverinə qarşı mübarizə;
  - narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə.

Gender bərabərliyinin təşviqi və gender amilinin nəzərə alınması hazırkı Fəaliyyət Planının prioritetləri sırasında qalır. Avropa Şurasının standartları və tövsiyələri əsasında gender amilinin nəzərə alınması Azərbaycanda yaşayan şəxslərin ehtiyaclarını ayrı-seçkilik qoyulmadan daha yaxşı həll etməyə və Fəaliyyət Planının icrasının keyfiyyətini, səmərəliliyini və dayanıqlılığını artırmağa kömək edəcəkdir.

Fəaliyyət Planının məqsədlərinə nail olunması həm də *“BMT-nin 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliyi”nin* icra edilməsinə töhfə verəcəkdir.

## II HİSSƏ. 2022-2025-Cİ İLLƏR ÜÇÜN TƏKLİF EDİLƏN FƏALİYYƏTLƏR

Aşağıda 2022-2025-ci illər üçün Proqram və Büdcədə göstərilən hər bir komponent üzrə təklif olunan tədbirlərin təfərrüatları verilir.

### 2.1 İNSAN HÜQUQLARI

Qanunvericilik və institusional bazanın Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq beynəlxalq insan hüquqları standartlarına daha da uyğunlaşdırılması və müvafiq qurumların islahatların aparılması potensialının artırılması istiqamətində işlər davam etdirilməlidir. Bu, digər məsələlərlə yanaşı, İnsan hüquqları haqqında Avropa Konvensiyası (İHAK) sisteminin səmərəliliyinin artırılması, cinayət ədliyyəsi sahəsində islahatların dəstəklənməsi, toplaşmaq və ifadə azadlıqlarının təmin edilməsi, məlumatların qorunması və süni intellektin (Sİ) tətbiqi, gender əsaslı zorakılığın qarşısının alınması və onunla mübarizə və uşaq hüquqlarının qorunması və təşviqi, gender bərabərliyinin təşviqi, ayrı-seçkiliklə mübarizə, Avropa Sosial Xartiyasına (ASX) uyğun olaraq sosial hüquqların reallaşdırılmasına köməklik göstərilməsi və ətraf mühitin qorunması sahələrində birgə işləməyi tələb edir. Eynilə, Nazirlər Komitəsində icrasını gözləyən bəzi iş qrupları üzrə AİHM-in qərarlarının icrası ilə bağlı səylərin artırılmasına hələ də ehtiyac var.[3]

Bu sahədə həyata keçiriləcək texniki əməkdaşlıq məsələləri Avropa Şurasının müvafiq monitorinq mexanizmlərinin və ekspert məsləhət orqanlarının, o cümlədən konkret olaraq Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM), Nazirlər Komitəsi (NK), Parlament Assambleyası (AŞPA), Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı (Komissar), Hüquq vasitəsilə demokratiya uğrunda Avropa Komissiyası (Venesiya Komissiyası), İrqçilik və dözümsüzlüyə qarşı Avropa Komissiyası (ECRI), Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), Sosial Hüquqlar üzrə Avropa Komitəsi (ECSR) və Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında Konvensiyanın Tərəflərinin Komitəsinin (Lansarote Komitəsi) hesabatları və qənaətləri nəzərə alınmaqla işlənib hazırlanmışdır.

Bu komponentlər üzrə fəaliyyətlər aşağıdakı Dayanıqlı İnkişaf Məqsədlərinin Azərbaycan tərəfindən həyata

[3] Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrası Departamenti tərəfindən dərc edilmiş *“Azərbaycan üzrə məlumat bülleteni”*.

keçirilməsinə töhfə verəcəkdir: DİM 4, hədəf 7[4]; DİM 5, hədəflər 1, 2,[5] DİM 8, hədəflər 7, 8[6]; DİM 10, hədəflər 2, 3,[7] DİM 16, hədəflər 2, 6, 10.[8]

2.1.1 İHAK-ın səmərəli tətbiqi

**→ Milli səviyyədə İHAK sisteminin səmərəliliyinin artırılması**

AİHM-in qərarlarının icrası üzrə milli sistemin daha da təkmilləşdirilməsinə ehtiyac vardlr. Avropa Şurası bununla bağlı Azərbaycanın müvafiq orqanları ilə məsləhətləşmələr aparmağa və AİHM-in qərarlarının icrasında iştirak edən milli qurumlara texniki yardım göstərməyə hazırdır.

İnsan hüquqlarının milli səviyyədə səmərəli şəkildə həyata keçirilməsi hakimlərin, prokurorların və vəkillərin AİHM-i və digər insan hüquqları standartlarını gündəlik təcrübələrində tətbiq etmək bacarığından çox asılıdır. Hüquqşünasların hazırlanması Azərbaycan üçün 2014-2017 və 2018-2021-ci illər üzrə əvvəlki Fəaliyyət Planları çərçivəsində prioritet istiqamətlərdən biri idi. Son məlumatlara görə, 2018-2020-ci illər ərzində milli təlimçilərin köməyi ilə Azərbaycanın müxtəlif bölgələrində (Gəncə, Mingəçevir, Şirvan) ümumilikdə 533 hüquqşünas (74% kişi və 26% qadın) Avropa insan hüquqları standartları üzrə biliklərini (20 təlim sessiyası ərzində) artırmışdır[9]. Avropa Şurası Ədliyyə Akademiyası kimi milli təlim institutlarına onların tədris metodologiyası və praktikasının Avropa Şurasının standartlarına uyğunlaşdırılmasında sektoral yardım göstərməklə Azərbaycanda insan hüquqları sahəsində təhsilin yaxşılaşdırılmasına töhfə vermiş və bu, təlim potensialının və biliklərin inkişafında nəzərəçarpacaq təkmilləşdirmələrə gətirib çıxarmışdır. Bundan əlavə, Avropa Şurasının Hüquqşünaslar üçün insan hüquqları sahəsində təhsil proqramı (HELP) çərçivəsində 50 hüquqşünas (32 kişi və 18 qadın) AİHM-in prosedurları və şikayətlərin qəbuledilənlik meyarları üzrə kursları uğurla başa vurmuş və HELP sertifikatlarına layiq görülmüşdür.

Hazırkı Fəaliyyət Planına əsasən, konkret insan hüquqları standartları üzrə məqsədyönlü təlimlərin keçirilməsi üçün milli potensialın dəstəklənməsi diqqət mərkəzində olmaqla, Avropa insan hüquqları standartlarının Azərbaycanda tətbiqinin təkmilləşdirilməsi üzrə fəaliyyətlər davam etdiriləcəkdir. Məhkəmə təcrübəsinin təhlili və hüquqşünaslar arasında ayrı-ayrı məsələlər üzrə müzakirələr gələcəkdə təkrar prosessual və maddi hüquq pozuntularının qarşısını almaq üçün baza rolunu oynayacaq və beləliklə, İHAK-ın milli səviyyədə tətbiqini təkmilləşdirəcək, habelə AİHM tərəfindən çıxarılan qərarların icrasına töhfə verəcəkdir. 16 saylı Protokol[10] haqqında məlumatlılığın artırılmasına xüsusi diqqət yetiriləcəkdir, o, 2021-ci il avqustun 1-də qüvvəyə minmişdir.[11] Hakimlərin və məhkəmə işçilərinin AİHM-in presedent hüququnu, məhkəmə sisteminin müstəqilliyi və səmərəliliyi prinsiplərini tətbiq etmək potensialı artırılacaq. Əvvəlki əməkdaşlıq tədbirləri zamanı hakimlərin və məhkəmə işçilərinin potensialının artırılması məqsədilə Azərbaycan Ədliyyə Akademiyasında yaradılmış təlimçilər qrupundan da geniş istifadə edilməsi planlaşdırılır.

Avropa Şurası xüsusən regionlarda praktik hüquqşünasların sayının artırılması məqsədilə Vəkillər Kollegiyasının müstəqilliyinin artırılmasına və Vəkillər Kollegiyasının normativ-hüquqi bazasında islahatlar

---

[4] Məqsəd 4: Hamı üçün İnklüziv və bərabər keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsil almaq imkanlarını dəstəkləmək. Məqsəd 4, hədəf 7: 2030-cu ilədək bütün təhsil alanların dayanıqlı inkişafa yardım üçün zəruri olan bilik və bacarıqlara yiyələnmələrini təmin etmək, o cümlədən buna dayanıqlı həyat tərzi, insan hüquqları, gender bərabərliyi məsələlərinin tədrisi, sülh və qeyri-zorakılıq mədəniyyətinin, qlobal vətəndaşlığın təşviqi və mədəni müxtəlifliyin dəyərinin dərki vasitəsilə nail olmaq.

[5] Məqsəd 5: Gender bərabərliyinə nail olmaq, bütün qadın və qızların hüquq və imkanlarını genişləndirmək. Məqsəd 5, hədəf 1: Hər yerdə bütün qadınlara və qızlara qarşı ayrı-seçkiliyin bütün formalarına son qoymaq. Məqsəd 5, hədəf 2: İnsan alveri və cinsi və digər istismar növləri daxil olmaqla, bütün qadınlara və qızlara qarşı ictimai və özəl sahələrdə zorakılığın bütün formalarını aradan qaldırmaq.

[6] Məqsəd 8: Hamının ardıcıl, inklüziv və dayanıqlı iqtisadi yüksəlişinə, tam və səmərəli məşğulluğuna və layiqli işlə təmin olunmasına dəstək vermək. Məqsəd 8, hədəf 7: Məcburi əməyin kökünün kəsilməsi, müasir köləliyə və insan alverinə son qoyulması və uşaq əməyinin ən pis formalarının, o cümlədən uşaqların əsgər qismində cəlbinin və istifadəsinin qadağan olunmasının və ləğv edilməsinin təmin edilməsi və 2025-ci ilə qədər uşaq əməyinin bütün formalarına son qoyulması üçün təcili və səmərəli tədbirlər görmək. Məqsəd 8, hədəf 8: Əmək hüquqlarını qorumaq və bütün əməkçilər, o cümlədən əməkçi miqrantlar, xüsusilə qadın miqrantlar və təhlükəli iş şəraitində çalışanlar üçün etibarlı və təhlükəsiz iş şəraitinin təmin edilməsini təşviq etmək.

[7] Məqsəd 10: Ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq. Məqsəd 10, hədəf 2: 2030-cu ilədək yaşından, cinsindən, əlilliyindən, irqindən, etnik mənsubiyyətindən, mənşəyindən, dinindən, iqtisadi və ya digər statusundan asılı olmayaraq hamının sosial, iqtisadi və siyasi həyatda iştirakını dəstəkləmək və təşviq etmək. Məqsəd 10, hədəf 3: Bərabər imkanları təmin etmək və nəticələrə nail olmaq imkanlarında bərabərsizliyi azaltmaq, o cümlədən buna nail olmaq üçün ayrı-seçkilik yaradan qanun, siyasət və praktikaları aradan qaldırmaq və bununla bağlı müvafiq qanunvericilik, siyasət və praktikaları təşviq etmək.

[8] Məqsəd 16: Davamlı inkişaf naminə sülhsevər və açıq cəmiyyətin qurulmasına dəstək vermək, hamının məhkəmə sisteminə çıxışını təmin etmək və bütün səviyyələrdə səmərəli, hesabatlı və geniş iştiraka əsaslanan təsisatlar yaratmaq. Məqsəd 16, hədəf 2: Uşaqlara qarşı pis rəftar, istismar, insan alveri hallarına və zorakılığın bütün formalarına və işgəncələrə son qoymaq. Məqsəd 16, hədəf 6: Bütün səviyyələrdə səmərəli, hesabatlı və şəffaf təsisatlar yaratmaq. Məqsəd 16, hədəf 10: Milli qanunvericiliyə və beynəlxalq sazişlərə uyğun olaraq, ictimaiyyətin informasiyaya çıxışını təmin etmək və əsas azadlıqları qorumaq.

[9] *Avropa Şurasının Azərbaycan üçün 2018-2021-ci illər üzrə Fəaliyyət Planı. İşlərin gedişinə dair hesabat. (01/01/2018-31/08/2020)*.

[10] CETS №. 214, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 16 saylı Protokolu.

[11] İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın 16 saylı Protokolu Razılığa gələn Yüksək Tərəfin özünün göstərdiyi ən yüksək instansiya məhkəmələrinin və tribunallarının Konvensiyada və ya onun Protokollarında müəyyən edilmiş hüquq və azadlıqların şərhi və ya tətbiqi ilə bağlı prinsipial məsələlər üzrə məsləhət rəyləri verilməsi üçün Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etməsinə icazə verir. *https://www.coe.int/en/web/conventions/full-list/-/conventions/treaty/214*..

aparılmasına yönələn səyləri dəstəkləyəcəkdir. Avropa Şurası Vəkillər Kollegiyası üzvlərinin insan hüquqlarını təşviq və müdafiə etmək və müştərilərini səmərəli şəkildə təmsil etmək imkanlarını artırmaqda Vəkillər Kollegiyasına dəstək verəcəkdir.

Azərbaycan şərti hüquqi yardım almaq hüququnun Konstitusiya ilə qorunan prosessual hüquq olduğu ölkələrdən biridir[12]. Bununla belə, Avropa Şurasının tövsiyələrinə uyğun olaraq həssas vəziyyətdə olan insanların ədalət mühakiməsinə çıxışını təmin edən ödənişsiz hüquqi yardımın (həm əsas, həm də əlavə hüquqi yardım xidmətləri üçün) tam əhatəli sistemini müəyyən edən ödənişsiz hüquqi yardım haqqında qanunvericilik yoxdur. Ödənişsiz hüquqi yardım xidmətlərinə ehtiyac peşəkar hüquqi təmsilçilik və hüquqi məsləhətlər almaqda maliyyə sıxıntıları və digər maneələrlə üzləşən həssas və imkansız qruplar (əlillər, uşaqlar, pensiyaçılar və s.) arasında xüsusilə böyükdür. Avropa Şurası ECRI tövsiyələrinə uyğun olaraq Ombudsman Aparatının cəlb edilməsi də daxil olmaqla hüquqi yardım sistemində islahatların aparılmasında milli hakimiyyət orqanlarına yardım göstərəcək[13]. Bu baxımdan Vəkillər Kollegiyasının öz ofisləri və hüquq klinikaları vasitəsilə ödənişsiz hüquqi yardım xidmətlərini təşkil və təmin etmək potensialı dəstəklənəcək və gücləndiriləcəkdir.

**Gözlənilən nəticələr**:

- ✓ AİHM-in qərarlarının milli səviyyədə icrası üçün ümumi və fərdi tədbirlərin qəbulu sistemi təhlil edilir və təkmilləşdirilir.
- ✓ Hüquqşünasların (vəkillər, hakimlər, prokurorlar, hakim köməkçiləri, müstəqil praktik mütəxəssislər) səriştə və bacarıqları təkmilləşdirilir ki, bu da onların İHAK-ı səmərəli şəkildə tətbiq etməsinə imkan verir.
- ✓ Hüquqşünaslar üçün təlimlər keçirilməsində, o cümlədən bu işin HELP metodologiyasının tətbiqi yolu ilə və gender perspektivi nəzərə alınmaqla yerinə yetirilməsində Ədliyyə Akademiyasının rolu və potensialı artırılır.
- ✓ Vəkillər Kollegiyasının müstəqilliyi gücləndirilir.
- ✓ Vəkillər Kollegiyasının normativ-hüquqi bazasında islahatların aparılmasına şərait yaradılır.
- ✓ Vəkillər Kollegiyasının istəyənlərin bu peşəyə rahat şəkildə gəlməsini və etik davranış qaydalarına riayət edilməsini təmin etmək potensialı gücləndirilir.
- ✓ Ödənişsiz hüquqi yardım xidmətləri göstərən mövcud strukturların milli səviyyədə potensialı gücləndirilir.
- ✓ Ödənişsiz hüquqi yardım xidmətlərinin göstərilməsi ilə bağlı normativ-hüquqi baza təkmilləşdirilir.

**Əsas milli tərəfdaşlar: Ədliyyə Nazirliyi, Prezident Administrasiyası, Parlament, Konstitusiya Məhkəməsi və Ali Məhkəmə, Ədliyyə Akademiyası, Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, Vəkillər Kollegiyası, alimlər və vətəndaş cəmiyyəti qrupları.**

**→ Cinayət ədliyyəsi sahəsində islahatın dəstəklənməsi**

Avropa Şurası Azərbaycan üçün 2014-2017 və 2018-2021-ci illər üzrə Fəaliyyət Planları çərçivəsində Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) presedent hüququnun və digər insan hüquqlarının müdafiəsi mexanizmlərinin işığında dövlət subyektlərinə təhlil və tövsiyələr təqdim etməklə milli məhkəmə praktikasının uzlaşdırılmasında Azərbaycan hakimiyyət orqanlarını dəstəkləmişdir. Cinayət ədliyyəsi sisteminin fəaliyyəti təhlil edilmiş, Avropa Şurasının standartlarına uyğun fəaliyyətlərin yol xəritəsi hazırlanıb maraqlı milli tərəflərə təqdim edilmişdir. Yol xəritəsi AİHM-in müvafiq qərarlarının icrasından ötrü lazımi tədbirlərin görülməsi üçün faydalı alət kimi xidmət edə bilər. Mövcud Fəaliyyət Planına əsasən, Avropa Şurası milli qanunvericilik və praktikada dəyişikliklərin edilməsinə, xüsusən Cinayət Məcəlləsinə və Cinayət Prosessual Məcəlləsinə lazımi dəyişikliklərin daxil edilməsinə dair təhlil və tövsiyələr verməklə ədalət mühakiməsi sisteminin təkmilləşdirilməsində milli hakimiyyət orqanlarına dəstək göstərmək səylərini davam etdirəcəkdir.

[12] Konstitusiyanın 61-ci maddəsi hüquqi yardım almaq hüququna təminat verir: I. Hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır. II. Qanunvericilikdə nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir.
[13] https://rm.coe.int/fourth-report-on-azerbaijan/16808b5581, səh. 14.

**Gözlənilən nəticələr**:

- ✓ Cinayət ədliyyəsi sisteminin fəaliyyəti təhlil edilir, qanunvericilik və praktikanın Avropa Şurasının standartlarına uyğunlaşdırılmasına dair tövsiyələr verilir.
- ✓ Avropa Şurasının tövsiyələrinə uyğun olaraq Cinayət Məcəlləsinə və Cinayət Prosessual Məcəlləsinə dəyişikliklər daxil edilir.

**Əsas milli tərəfdaşlar: Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Prezident Administrasiyası, Parlament, Baş Prokurorluq, Konstitusiya Məhkəməsi və Ali Məhkəmə, Ədliyyə Akademiyası.**

## → Toplaşmaq azadlığı

Avropa Şurası toplaşmaq azadlığı ilə bağlı müvafiq müddəaların praktikada həyata keçirilməsində Azərbaycanın hakimiyyət orqanlarına köməklik göstərməyə hazırdır.

**Gözlənilən nəticələr**:

- ✓ İctimai toplantılara dair milli qanunvericilik İnsan hüquqları haqqında Avropa Konvensiyasının (İHAK) 11-ci maddəsinin tələblərinə uyğundur.
- ✓ Toplaşmaq azadlığına dair milli qanunvericiliyin Konvensiyaya uyğun müvafiq müddəaları praktikada səmərəli şəkildə tətbiq edilir.

**Əsas milli tərəfdaşlar: Ədliyyə Nazirliyi, Prezident Administrasiyası, Parlament.**

## → İfadə və media azadlığı

İfadə və media azadlığının təmin edilməsi demokratik cəmiyyət üçün çox vacibdir. Avropa Şurası və Azərbaycan əvvəlki Fəaliyyət Planı çərçivəsində media sahəsində əməkdaşlıq etmişlər. Konkret olaraq, media işçiləri üçün etik standartlar, o cümlədən gender amilinin mediada nəzərə alınması təşviq edilmişdir. Məsələn, Azərbaycan Mətbuat Şurası "*Gender bərabərliyi və ayrı-seçkiliyə yol verilməməsi prinsipinin qorunması*" adlı yeni standart müəyyən edən sənədi hazırlayaraq Jurnalistlərin Peşə Davranışı Qaydalarında dəyişiklikləri qəbul etmişdir. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində 2020-2021-ci tədris ilindən etibarən Azərbaycan xəbər istehsalçıları üçün "*Gender bərabərliyi və media*" mövzusunda bələdçi vəsait tərtib edilmiş və "*Gender bərabərliyi və media azadlığı*" adlı yeni kursun kurikulumu hazırlanmış və tətbiq edilmişdir. Azərbaycanın müxtəlif bölgələrindən olan jurnalistlərə ifadə azadlığı və offlayn və onlayn fəaliyyətlərdə şəxsin həyatın toxunulmazlığı hüququ, gender bərabərliyi və media, seçkilərin və gender əsaslı zorakılıq hallarının mediada işıqlandırılması mövzularında təlimlər keçilmişdir. Bundan əlavə, münaqişələri məsuliyyətli şəkildə işıqlandıran jurnalistikanı təşviq etmək üçün səylər göstərilmişdir. Həm onlayn, həm də offlayn media orqanlarının jurnalistləri üçün bu sahədə təlim keçilmiş və Azərbaycanın media işçilərinin istifadəsi üçün milli və beynəlxalq ekspertlər tərəfindən "*Münaqişələri məsuliyyətli şəkildə işıqlandıran jurnalistika*" mövzusunda məlumat kitabı hazırlanmışdır.

Eyni zamanda, qanunvericilik və praktikanın bu sahələrdə Avropa Şurasının standartlarına uyğun olaraq təkmilləşdirilməsi zərurəti aktual olaraq qalır. Avropa Şurası diffamasiya və jurnalistika praktikası ilə bağlı milli qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədar ictimaiyyətin məlumatlılığını artırmağa və çoxtərəfli dialoqu təşviq etməyə davam edəcəkdir. Avropa Şurası həmçinin diffamasiya ilə bağlı qanunvericilikdə lazımi dəyişikliklərin edilməsi və bu dəyişikliklərin bütün müvafiq qurumlar tərəfindən praktikada tətbiq edilməsinin təmin edilməsində milli hakimiyyət orqanlarına hüquqi və texniki yardım göstərməyə hazırdır.

**Gözlənilən nəticələr**:

- ✓ Milli qanunvericilik və praktika İnsan hüquqları haqqında Avropa Konvensiyasının (İHAK) 10-cu maddəsinin və Avropa Şurasının digər standartlarının tələblərinə uyğundur.
- ✓ Medianın azadlığını və müstəqilliyini və jurnalistlərin təhlükəsizliyini təmin etmək üçün institusional potensial artırılır, o cümlədən özünütənzimləmə mexanizmləri təkmilləşdirilir.
- ✓ Azərbaycan mediasında etik standartlar möhkəmləndirilir.

**Əsas milli tərəfdaşlar: Ədliyyə Nazirliyi, Təhsil Nazirliyi, Prezident Administrasiyası, Medianın İnkişafı Agentliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Parlament, Azərbaycan Mətbuat Şurası, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti, Bakı Dövlət Universiteti, media orqanları, vətəndaş cəmiyyəti nümayəndələri.**

## → Məlumatların qorunması və süni intellekt

Azərbaycanın məlumatların qorunması haqqında qanunvericiliyi hazırda üç əsas qanunvericilik aktından, yəni “Dövlət sirri haqqında”, “Fərdi məlumatlar haqqında” və “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” qanunlardan ibarətdir. Bundan əlavə, Azərbaycan “Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiya”nın (108 saylı Konvensiya) və məlumatların mühafizəsi sisteminin mühüm elementi kimi xüsusi müstəqil orqanın yaradılmasını tələb edən əlavə protokolun iştirakçısıdır. Avropa Şurası bununla bağlı Azərbaycanın qanunvericilik bazasının təkmilləşdirilməsi üçün hüquqi təcrübəsini təqdim etməyə və qanunvericiliyin praktikada tətbiqi üçün texniki dəstək göstərməyə hazırdır. Avropa Şurası həmçinin Nazirlər Komitəsinin Bəyannaməsinə (Decl(20/01/2021)) uyğun olaraq Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiya və onun protokolunun (108+ saylı Konvensiya) imzalanması və ratifikasiyasına hazırlıq işlərində lazımi texniki və hüquqi yardımı göstərməyə hazırdır.

Süni intellekt (SI) əsrimizin ən böyük texnoloji çağırışlarından biridir. O, cəmiyyət və fərdlər üçün böyük imkanlar təqdim etməklə yanaşı, həm də Avropa Şurası tərəfindən qorunan standartlara: insan hüquqlarına, demokratiyaya və qanunun aliliyinə təsir göstərir. Hazırkı Fəaliyyət Planına əsasən, Avropa Şurası bu sahədə *Avropa Şurası tərəfindən aparılan iş* çərçivəsində süni intellekt mövzusunda Azərbaycanla işləməyə hazırdır. Konkret olaraq, Azərbaycan bu sahədə ən son sənədlərdən olan “Süni İntellekt və məlumatların mühafizəsi sahəsində Avropa Şurasının rəhbər prinsipləri”ni və “Məhkəmə sistemlərində və onları əhatə edən mühitdə süni intellektin istifadəsinə dair Etik Xartiya”nı yaymağa və müvafiq sahələrdə tətbiq etməyə təşviq ediləcəkdir. Avropa Şurası Sİ sahəsində milli təsisatların potensialını gücləndirmək üçün dəstək göstərməyə hazırdır.

**Gözlənilən nəticələr**:

- ✓ Azərbaycan Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyanı və onun protokolunu (108+ saylı Konvensiya) imzalamağa və ratifikasiya etməyə yaxınlaşır.
- ✓ Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyaya (ETS № 108) uyğun olan qanunvericilik qəbul edilir.
- ✓ Xüsusi müstəqil orqan yaradılır və fəaliyyət göstərir.
- ✓ Avropa Şurasının süni intellektin istifadəsinə dair rəhbər prinsipləri Azərbaycanda müvafiq qurumlar tərəfindən yayılır və həyata keçirilir.
- ✓ Məlumatların qorunmasının vacibliyi ilə bağlı maarifləndirmə kampaniyası yerli əhalinin mənafeyi naminə həyata keçirilir.

**Əsas milli tərəfdaşlar: Prezident Administrasiyası, Respublika Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Xarici İşlər Nazirliyi, Ombudsman Aparatı, Parlament və vətəndaş cəmiyyəti nümayəndələri.**

### 2.1.2 Bərabərlik və insan ləyaqəti

**→ <u>Gender bərabərliyinin təşviqi və qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə</u>**

Avropa Şurasının 2018-2023-cü illər üçün Gender Bərabərliyi Strategiyası qadınlara qarşı zorakılığın (QQZ) qarşısının alınması və onunla mübarizə də daxil olmaqla altı prioritet sahədə gender bərabərliyini inkişaf etdirməkdən ötrü üzv dövlətlərlə işləmək üçün baza təşkil edir (QVQ). Hazırkı Fəaliyyət Planına əsasən, gender bərabərliyi və qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə sahəsində əməkdaşlıq 2018-2021-ci illər üzrə əvvəlki Fəaliyyət Planı çərçivəsində əldə edilmiş irəliləyişə əsaslanacaqdır. Bu irəliləyiş gələcək təkmilləşdirmələr üçün möhkəm zəmin yaradır. Digər məsələlərlə yanaşı, gender bərabərliyi nöqteyi-nəzərindən media haqqında qanunvericiliyə yenidən baxılmış və onun Avropa Şurasının standartlarına uyğunlaşdırılması üçün səlahiyyətli orqanlara tövsiyələr verilmiş; xeyli sayda jurnalistə Avropa Şurasının gender bərabərliyi və media azadlığı standartlarına dair təlim keçilmiş; və Azərbaycan ali məktəblərinin tədris proqramlarına daxil edilmək üçün müvafiq dərsliklər hazırlanmışdır. Beləliklə, Avropa Şurası məişət zorakılığının və qadınlara və qızlara qarşı zorakılığın qarşısının alınması və xüsusilə də mediada gender bərabərliyinin təşviqi sahəsində geniş ictimaiyyət arasında məlumatlılığın artırılması işini davam etdirəcəkdir.

Beynəlxalq səviyyədə Azərbaycan, məsələn, Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (CEDAW) üzrə öhdəliklər götürmüşdür. Avropa Şurası ilə əməkdaşlığa gəlincə, Azərbaycan gender bərabərliyinin təkmilləşdirilməsi, qadınlar üçün ədalət mühakiməsinə bərabər çıxış imkanının təmin edilməsi və qadınlara qarşı zorakılıqla mübarizə sahəsində konkret öhdəliklər, o cümlədən İnsan hüquqları haqqında Avropa Konvensiyasında (İHAK), (Yenidən baxılmış) Avropa Sosial Xartiyasında (ASX) və İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyada nəzərdə tutulmuş öhdəliklər götürmüşdür. Milli səviyyədə qanunvericilik, bir qayda olaraq, nikah, boşanma və uşaq üzərində qəyyumluq kimi vətəndaşlıq vəziyyətinə aid sahələrdə qadınlara və kişilərə eyni hüquqlar verir. Qadınlara qarşı zorakılıq sahəsində standartlar və digər gender bərabərliyi standartları haqqında biliklərin artırılmasına yönəlmiş əvvəlki əməkdaşlıq fəaliyyətlərinə əsaslanaraq, Avropa Şurası Azərbaycanın milli hakimiyyət orqanları və geniş ictimaiyyət arasında bu standartlar barədə məlumatlılığı artırmaqda davam edəcəkdir və bu məqsədlə əlavə texniki yardım göstərməyə hazırdır.

Bu kontekstdə "Məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın qəbulunu (27 noyabr 2020-ci ildə Prezidentin sərəncamı ilə təsdiq edilmişdir) mühüm hadisə kimi qiymətləndirmək olar. Azərbaycan hakimiyyət orqanlarının xahişi ilə Avropa Şurası bu sənədin hazırkı Fəaliyyət Planı çərçivəsində həyata keçirilməsinə bundan sonra da dəstək göstərəcək. Bu iş qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə üzrə səmərəli qabaqlayıcı və qoruyucu standartların və mexanizmlərinin tətbiqini özündə ehtiva edəcəkdir.

Gender bərabərliyinin təşviqində və qadınlara qarşı zorakılıqla mübarizədə uğur əldə etmək üçün gender amilini nəzərə alan ədalət mühakiməsi sistemi mühüm əhəmiyyət daşıyır. Bundan əlavə, Avropa Şurasının 2018-2023-cü illər üçün Gender Bərabərliyi Strategiyasının strateji məqsədləri üzv dövlətlərin qadınların ədalət mühakiməsinə bərabər çıxışını təmin etmələrini tələb edir. Avropa Şurası ədalət mühakiməsi sistemində gender amilinin nəzərə alınması və qadınlar üçün ədalət mühakiməsinə çıxış imkanlarının təmin edilməsi üçün müvafiq milli hakimiyyət orqanları ilə işi davam etdirəcək. Bu, digər məsələlərlə yanaşı, qadınların hüquqlarının pozulması ilə bağlı işlərə gender amilini nəzərə alan və qurbanın mənafelərini önə çəkən yanaşmaların tətbiqi yolu ilə reaksiya göstərmək üçün ədalət mühakiməsi sektoru işçilərinin potensialının artırılması vasitəsilə həyata keçiriləcəkdir. Avropa Şurası "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi üçün Azərbaycanın hakimiyyət orqanlarına yardım etməyə, o cümlədən bu sahədə məlumatlılığın artırılması və qurbanlara yardım xidmətləri göstərən mütəxəssislərin potensialının möhkəmləndirilməsi yolu ilə köməklik göstərməyə hazırdır. Məişət zorakılığının qarşısının alınması və onunla mübarizə sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının işi də dəstəklənəcəkdir.

**Gözlənilən nəticələr:**

- ✓ Azərbaycanın hakimiyyət orqanları və geniş ictimaiyyət arasında gender bərabərliyi alətləri barədə məlumatlılıq səviyyəsi artırılır.
- ✓ Qadınlara qarşı zorakılıq və məişət zorakılığına qarşı mübarizə üçün qabaqlayıcı və qoruyucu standartlar və mexanizmlər tətbiq edilir.
- ✓ Ədalət mühakiməsi sistemində gender amili nəzərə alınır və nəticədə ədalət mühakiməsi sistemi gender bərabərliyi və ayrı-seçkiliyin yolverilməzliyi tələblərinə daha çox cavab vermiş olur.
- ✓ Gender əsaslı ayrı-seçkilik, qadınlara qarşı zorakılıq və digər qadın hüquqlarının pozulması hallarını aradan qaldırmaq üçün hüquq-mühafizə orqanlarının, hüquqşünasların, o cümlədən hakimlərin, prokurorların və vəkillərin potensialı artır.
- ✓ Azərbaycan mediasında gender bərabərliyi perspektivi gücləndirilir.
- ✓ Məişət zorakılığı qurbanlarının sosial müdafiəsi sahəsində qeyri-hökumət təşkilatlarının potensialı gücləndirilir.

**Əsas tərəfdaşlar: Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Ədliyyə Akademiyası, hüquqşünaslar və zorakılıq qurbanı olan qadınlara dəstək verən vətəndaş cəmiyyəti təşkilatları.**

## → Uşaq hüquqları

Avropa Şurası və Azərbaycanın hakimiyyət orqanları əvvəlki Fəaliyyət Planı çərçivəsində bu sahədə fəal əməkdaşlıq etmişlər. Bu baxımdan Azərbaycanın 2019-cu ilin dekabr ayında Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında Avropa Şurası Konvensiyasını (Lansarote Konvensiyası) ratifikasiya etməsi böyük nailiyyətdir. Ratifikasiyadan sonra Lansarote Konvensiyası haqqında ictimaiyyətin məlumatlılığını artırmaq üçün bəzi təşəbbüslər irəli sürülmüşdür. Konkret olaraq, Lansarote Konvensiyası barədə Azərbaycan dilində uşaqlar üçün anlaşıqlı formada buklet buraxılmış və həmçinin informasiya texnologiyaları barədə uşaqlar üçün anlaşıqlı formada təlimatlar hazırlanmışdır. Azərbaycan Respublikasının Prezidenti 2 iyun 2020-ci ildə "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın təsdiq edilməsi haqqında Fərman imzalamışdır. Avropa Şurası bu Strategiyanın səmərəli şəkildə həyata keçirilməsini təmin etmək üçün lazımi köməkliyi göstərəcəkdir.

Avropa Şurası Lansarote Konvensiyasının həyata keçirilməsi ilə bağlı hakimiyyət orqanları ilə fəal əməkdaşlığını davam etdirməyə, uşaqlara qarşı zorakılıq, cinsi istismar və cinsi sui-istifadə hallarının qarşısının alınması və uşaqların belə hallardan müdafiəsi, habelə uşaqlara qarşı istismar və sui-istifadə halları ilə mübarizə sahəsində çalışan mütəxəssislərin potensialının artırılması üçün strategiyaların işlənib hazırlanmasına dəstək verməyə hazırdır. Lansarote Konvensiyasının, onun mexanizmlərinin və məqsədlərinin daha yaxşı başa düşülməsini təmin etmək üçün Avropa Şurası Azərbaycanda Lansarote Konvensiyasına dair ictimaiyyətin məlumatlılığının artırılmasına da diqqət yetirəcəkdir. Avropa Şurası öz fəaliyyətində Avropa Şurası orqanları tərəfindən qəbul olunmuş və dərc edilmiş son sənədləri nəzərə alacaqdır.[14]

**Gözlənilən nəticələr:**

- ✓ Uşaqlara qarşı həm onlayn, həm də offlayn rejimində zorakılıq, cinsi istismar və cinsi sui-istifadə hallarının qarşısının alınması və uşaqların belə hallardan müdafiəsi üçün strategiyalar hazırlanır və tətbiq edilir.
- ✓ Uşaqlara qarşı cinsi istismar və sui-istifadə halları ilə mübarizə aparan peşəkarların potensialı artırılır.
- ✓ Lansarote Konvensiyası barədə ictimaiyyətin məlumatlılıq səviyyəsi artırılır.

**Əsas milli tərəfdaşlar: Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Ədliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ombudsman Aparatı, Ədliyyə Akademiyası.**

[14] Yenidən baxılmış Avropa Sosial Xartiyasının "Uşaqlar, ailələr və miqrantlar" tematik qrupuna aid yeni qəbul edilmiş müddəalarının həyata keçirilməsi ilə bağlı Sosial Hüquqlar üzrə Avropa Komitəsinin (ECSR) 2019-cu il tarixli rəyləri; *Rəqəmsal mühitdə uşaqların şəxsi həyatının toxunulmazlığının qorunmasının zəruriliyi haqqında Nazirlər Komitəsinin Bəyannaməsi (2021); "Gələcəyə istiqamətlənən" Avropanın açarı qismində uşaq hüquqlarının gücləndirilməsi haqqında Nazirlər Komitəsinin Bəyannaməsi (2020); Siyasətçilər üçün rəqəmsal mühitdə uşaq hüquqları barədə vəsait (2020).*

2.1.3 Ayrı-seçkiliyə yol verilməməsi, müxtəliflik və inklüzivlik

**→ Ayrı-seçkiliyə yol verilməməsi**

Avropa Şurası və Azərbaycan bu sahədə əvvəllər də əməkdaşlıq etmişlər. Bu əməkdaşlığın zirvə nöqtəsi ayrı-seçkiliklə mübarizədə vətəndaş cəmiyyətinin rolunu gücləndirmək və bu sahədə maraqlı tərəflər arasında strukturlaşdırılmış dialoqu təşviq etmək üçün 13 vətəndaş cəmiyyəti təşkilatını (VCT) bir araya gətirən "Bərabərlik Platforması/Azərbaycan"ın yaradılması olmuşdur. Bundan əlavə, Ombudsman Aparatının əməkdaşları ayrı-seçkiliyə qarşı Avropa standartları üzrə təlim kursu sayəsində öz bacarıqlarını artırmışlar.

Avropa Şurası İrqçilik və dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRI) beşinci monitorinq sikli (2016) çərçivəsində Azərbaycana dair *hesabatında* əks olunmuş tövsiyələrə və ECRI-nin *prioritet tövsiyələrin icrası ilə bağlı rəylərinə* və Azərbaycan üçün müəyyən edilmiş aralıq tədbirlərə (2019) əməl etməkdə Azərbaycanın hakimiyyət orqanlarına kömək etməyə hazırdır. Konkret olaraq, aşağıdakılar tövsiyə edilmişdir: (i) irqçilik və ayrı-seçkiliklə mübarizəyə yönələn bütün cinayət qanunvericiliyi müddəalarına dərinin rəngi, dil, vətəndaşlıq və etnik mənşə əlamətlərinə aid qeydin daxil edilməsi, (ii) əcnəbilərə qarşı zorakılığa və ayrı-seçkiliyə təhrikin cinayət hesab edilməsi; və (iii) irqçiliyi təbliğ edən qrupun yaradılmasının və ya ona rəhbərliyin; belə qrupa dəstək göstərilməsinin; və onun fəaliyyətlərində iştirakın cinayət hesab edilməsi.

Ayrı-seçkiliyə, nifrət zəminində cinayətə və nifrət nitqinə qarşı mübarizədə və tolerantlığın təşviqində vətəndaş cəmiyyətinin rolunun artırılması vacibdir. Ayrı-seçkiliklə mübarizə sahəsində vətəndaş cəmiyyəti və dövlət qurumları arasında strukturlaşdırılmış dialoqun aparılması zərurəti əvvəlki Fəaliyyət Planı çərçivəsində Avropa Şurası tərəfindən dəstəklənən vətəndaş cəmiyyəti subyektləri ilə Ombudsman Aparatı arasında keçirilmiş görüşlərdə müzakirə mövzusu olmuşdur. Avropa Şurası bu məsələdə vətəndaş cəmiyyətinə dəstəyini davam etdirəcəkdir.

Məlumatlılığın artırılması ayrı-seçkiliyə qarşı mübarizədə təsirli vasitədir. Milli hakimiyyət orqanları ilə əməkdaşlıq edərək, Avropa Şurası demokratik cəmiyyətdə tolerantlıq, ayrı-seçkiliyin yolverilməzliyi və nifrət zəminində cinayətin və nifrət nitqinin qəbuledilməzliyi barədə ictimaiyyətin məlumatlılığının artırılması üzərində işləyəcəkdir. Məlumatlılığın artırılması dövlət məmurları üçün də vacibdir, çünki onlar vətəndaşlarla qarşılıqlı əlaqədə dövləti təmsil edirlər.

**Gözlənilən nəticələr:**

- ✓ Azərbaycanın cinayət, mülki və inzibati qanunvericiliyində irqçilik və ayrı-seçkiliklə mübarizə üzrə Avropa Şurası standartlarına uyğun dəyişikliklər edilir.
- ✓ İnsan hüquq və azadlıqlarının səmərəli müdafiəsi sahəsində Ombudsman Aparatı əməkdaşlarının potensialı artırılır.
- ✓ Ayrı-seçkiliklə mübarizədə vətəndaş cəmiyyəti subyektlərinin rolu artır.
- ✓ Dövlət məmurları və geniş ictimaiyyət arasında tolerantlıq və ayrı-seçkiliyin yolverilməzliyi standartları haqqında məlumatlılıq səviyyəsi artırılır.

**Əsas milli tərəfdaşlar: Ədliyyə Nazirliyi, Ombudsman Aparatı, Ədliyyə Akademiyası, vətəndaş cəmiyyəti təşkilatları.**

2.1.4 Sosial hüquqlar

**→ Sosial hüquqlar**

Azərbaycan 2004-cü il sentyabrın 2-də (yenidən baxılmış) Avropa Sosial Xartiyasını (YBASX) ratifikasiya edərək onun 98 müddəasından 47-sini qəbul etmişdir. Qəbul edilmiş müddəalara riayət olunmasına Sosial Hüquqlar üzrə Avropa Komitəsi (ECSR) hesabat vermə proseduru vasitəsilə nəzarət edir. Beləliklə, əsas məqsədlərdən bundan sonra YBASX-nin əlavə müddəalarının və kollektiv şikayətlər prosedurunun qəbul edilməsidir. Azərbaycan hakimiyyəti YBASX-nin iki əlavə maddəsinin, yəni 15-ci (əlillərin hüquqları haqqında) və 19-cu (əməkçi miqrantların və onların ailələrinin hüquqları haqqında) maddələrinin qəbul edilməsi üçün konkret addımlar atmışdır. Avropa Şurası bununla bağlı istənilən zəruri yardımı göstərməyə hazırdır.

Xartiyanın müddəalarına uyğunsuzluqların azaldılması üçün də səylər göstərilməlidir. ECSR sonuncu sikl çərçivəsində “Məşğulluq, təlim və bərabər imkanlar” tematik qrupu ilə bağlı YBASX-nin qəbul edilmiş müddəalarına davamlı olaraq riayət edilməməsi faktlarını aşkarlamışdır. Hesab olunur ki, Azərbaycan Respublikası tərəfindən “Məşğulluq, təlim və bərabər imkanlar” mövzusunda təqdim olunacaq növbəti hesabatda uyğunsuzluqlar barədə daha ətraflı məlumat veriləcəkdir.

Azərbaycanın hakimiyyət orqanları əlilliyi olan şəxslərin hüquqları (o cümlədən xüsusi qayğıya ehtiyacı olan uşaqların əlçatan və münasib sosial xidmətlərə çıxışı); gender bərabərliyi və qadınların məşğulluğu; əməyin ödənişində gender əsaslı fərqi aradan qaldırmaq məqsədi ilə məşğulluq sahəsində qadınlar və kişilər arasında bərabər imkanların və bərabər rəftarın təmini; həmkarlar ittifaqlarının, o cümlədən Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) üzvlərinin hüquqları kimi məsələlərə xüsusi diqqət yetirirlər.

Avropa Şurası və Azərbaycanın hakimiyyət orqanları bu Fəaliyyət Planı çərçivəsində mümkün qədər bu məsələləri həll etməyə çalışır, eyni zamanda sosial hüquqların təşviq edilməsi zərurəti barədə məlumatlılığın artırılmasına xüsusi diqqət yetirirlər.

**Gözlənilən nəticələr:**

- ✓ Azərbaycan ASX-nin əlavə müddəalarını qəbul edir.
- ✓ Avropa Sosial Xartiyasının müddəalarına uyğunsuzluq hallarının sayı azaldılır.
- ✓ Azərbaycanda YBASX-nin 15-ci maddəsinə uyğun olaraq əlilliyi olan şəxslərin hüquqları ilə bağlı vəziyyətin yaxşılaşdırılması istiqamətində müsbət addımlar atır.
- ✓ Əlilliyi olan şəxslərin hüquqları yenidən baxılmış Avropa Sosial Xartiyasının 15-ci maddəsinə uyğun olaraq təmin edilir.
- ✓ Qadınlar və kişilər arasında əməyin ödənişində gender əsaslı fərq azalır.
- ✓ İşləyən qadınların müdafiəsi daha yaxşı təmin edilir.
- ✓ Həmkarlar ittifaqlarının hüquq və imkanları genişləndirilir və onlar YBASX-nin təmin etdiyi hüquqları barədə yetərincə məlumatlıdırlar.
- ✓ Geniş ictimaiyyət və dövlət məmurları arasında sosial hüquqların təşviq edilməsi zərurəti barədə məlumatlılıq səviyyəsi artırılır.

**Əsas milli tərəfdaşlar: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Parlament, Ombudsman Aparatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK), Azərbaycan Sahibkarlar Konfederasiyası (ASK), QHT-lər.**

2.1.5 Ətraf mühit və iqlim dəyişikliyi sahəsində əməkdaşlıq

## → Ətraf mühit və iqlim dəyişikliyi sahəsində əməkdaşlıq

İnsan hüquqlarının müdafiəsi və ətraf mühitin mühafizəsi bir-biri ilə ayrılmaz surətdə bağlıdır. *Avropa Şurasının İnsan hüquqları və ətraf mühit haqqında vəsaitində* izah edildiyi kimi, ətraf mühitin mühafizəsi məsələsi İnsan hüquqları haqqında Avropa Konvensiyasına və Avropa Sosial Xartiyasına daxil edilmişdir. Bundan əlavə, Avropa Şurası sağlam ətraf mühit hüququnu tanıyan müqavilələri, yəni Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında Konvensiyanı (Bern Konvensiyası), Ətraf mühit üçün təhlükəli fəaliyyətlər nəticəsində vurulmuş ziyana görə mülki məsuliyyət haqqında Konvensiyanı (Luqano Konvensiyası) və Cinayət hüququ vasitəsilə ətraf mühitin mühafizəsi haqqında Konvensiyanı qəbul etmişdir. Bunu nəzərə alaraq, Azərbaycan və Avropa Şurası bu əməkdaşlıq sahəsini hazırkı Fəaliyyət Planına daxil etmək qərarına gəlmişlər.

İqlim dəyişikliyi getdikcə daha çox reallığa çevrildikcə, bir çox ölkələr ətraf mühitin qorunması və ekoloji cinayətlərlə mübarizə üçün müvafiq qanunvericilik bazalarını qəbul etmişlər və ya müzakirə edirlər. “*Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər*” strateji sənədində Azərbaycan “təmiz ətraf mühit və yaşıl artım ölkəsi” məsələsini özünün beş əsas prioritetindən biri kimi müəyyən etmişdir. Eyni zamanda, nəzərə almaq lazımdır ki, sağlam ətraf mühit hüququnun tanınması nəinki müvafiq qanunvericilik bazasının qəbulunu, həm də müvafiq müddəaların və təşəbbüslərin səmərəli tətbiqini və həyata keçirilməsini tələb edir.

Bu baxımdan, Avropa Şurası insan hüquqları alətlərindən istifadə etməklə ətraf mühitə aid işləri, ekoloji zərəri araşdırmaq və ətraf mühitə digər təsirlərlə mübarizə aparmaq potensialının artırılmasında hüquqşünaslara, vətəndaş cəmiyyəti təşkilatlarına və milli insan hüquqları institutlarına dəstək verməyə hazırdır.

**Gözlənilən nəticələr:**

- ✓ Milli siyasət sənədləri ətraf mühitin mühafizəsi üzrə Avropa standartlarına və məqsədlərinə uyğundur.
- ✓ Hüquqşünasların, vətəndaş cəmiyyətinin və insan hüquqlarının müdafiəsi üzrə təsisatların insan hüquqlarının müdafiəsi alətləri vasitəsilə siyasətin ətraf mühitə təsirini təhlil etmək potensialı artırılır.
- ✓ Sağlam və təmiz ətraf mühitin vacibliyi ilə bağlı geniş ictimaiyyət və dövlət məmurları arasında məlumatlılıq səviyyəsi artırılır.

**Əsas milli tərəfdaşlar: Ədliyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Vəkillər Kollegiyası, Ombudsman Aparatı, vətəndaş cəmiyyəti təşkilatları.**

## 2.2 QANUNUN ALİLİYİ

*2357 (2021) saylı qətnaməsində* Avropa Şurasının Parlament Assambleyası (AŞPA) Azərbaycanda əvvəlki Fəaliyyət Planı çərçivəsində əldə edilmiş bəzi müsbət irəliləyişləri alqışlasa da, həll edilməmiş məsələlərdən narahatlığını ifadə etmişdir.

Bu sahədə texniki əməkdaşlığı Avropa Şurasının müvafiq monitorinq mexanizmlərinin və ekspert məsləhət orqanlarının, o cümlədən xüsusilə Nazirlər Komitəsi (NK), Parlament Assambleyası (AŞPA), Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı, Hüquq vasitəsilə demokratiya uğrunda Avropa Komissiyası (Venesiya Komissiyası), İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi (CPT), Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO), Pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL), İnsan alverinə qarşı mübarizə üzrə Ekspertlər Qrupu (GRETA) və Pompidu Qrupunun hesabat və qənaətləri nəzərə alınmaqla həyata keçirmək nəzərdə tutulur. Avropa Şurası ilə 2018-2021-ci illər üzrə əvvəlki Fəaliyyət Planının nəticələri də nəzərə alınacaqdır.

Hazırkı Fəaliyyət Planına əsasən, Avropa Şurası Azərbaycanın Konstitusiya Məhkəməsi ilə fəal işləməyə çalışacaq və onu Avropa Şurasının konstitusiya ədliyyəsi sahəsində təcrübəsindən istifadə etməyə təşviq edəcəkdir. Ədalət mühakiməsinin müstəqilliyi və səmərəliliyi sahəsində işlər əvvəlki Fəaliyyət Planları çərçivəsində əldə edilmiş nəticələrə əsaslanacaqdır. Bu istiqamətdə əməkdaşlığın mühüm istiqamətlərindən biri uğurlu pilot təcrübələrin bütün Azərbaycanda yerli məhkəmələrdə yayılmasıdır. Əhalinin məhkəmə sisteminə etimadının artırılması məqsədilə məhkəmə qərarlarının səmərəli icrası və məhkəmə sisteminin kommunikasiya strategiyası sahələrində əməkdaşlıq həyata keçiriləcəkdir. Ədalət mühakiməsinin müstəqilliyinə gəlincə, Azərbaycan Avropa Şurasının yardımı ilə GRECO-nun ən son tövsiyələrini yerinə yetirməyə təşviq ediləcəkdir.

Əvvəlki Fəaliyyət Planları çərçivəsində əldə edilmiş nəticələr inkişaf etdirilərək korrupsiyaya, iqtisadi cinayətlərə və kibercinayətkarlığa qarşı mübarizə və cəzaçəkmə müəssisələrinin idarə edilməsi sahələrində də əməkdaşlıq davam etdiriləcəkdir.

Bu komponent üzrə fəaliyyətlər Azərbaycan tərəfindən aşağıdakı Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə töhfə verəcək: DİM 3, hədəf 5;[15] DİM 5;[16] DİM 8, hədəf 7;[17] DİM 16, hədəflər 3, 4, 5, 6 və a.[18]

---

[15] Məqsəd 3: Yaşından asılı olmayaraq hamının sağlam yaşayış tərzini təmin etmək və rifah halını yaxşılaşdırmaq. Hədəf 5: Psixoaktiv maddələrdən asılılığın, o cümlədən narkotik vasitələrdən və alkoqoldan sui-istifadənin qarşısının alınması və profilaktika və müalicəsinin təkmilləşdirilməsi.

[16] Məqsəd 5: Gender bərabərliyinə nail olmaq, bütün qadın və qızların hüquq və imkanlarını genişləndirmək. Məqsəd 5, hədəf 1: Hər yerdə bütün qadınlara və qızlara qarşı ayrı-seçkiliyin bütün formalarına son qoymaq. Məqsəd 5, hədəf 2: İnsan alveri və cinsi və digər istismar növləri daxil olmaqla, bütün qadınlara və qızlara qarşı ictimai və özəl sahələrdə zorakılığın bütün formalarını aradan qaldırmaq.

[17] Məqsəd 8: Hamının ardıcıl, inklüziv və dayanıqlı iqtisadi yüksəlişinə, tam və səmərəli məşğulluğuna və layiqli işlə təmin olunmasına dəstək vermək. Məqsəd 8, hədəf 7: Məcburi əməyin kökünün kəsilməsi, müasir köləliyə və insan alverinə son qoyulması və uşaq əməyinin ən pis formalarının, o cümlədən uşaqların əsgər qismində cəlbinin və istifadəsinin qadağan olunmasının və ləğv edilməsinin təmin edilməsi və 2025-ci ilə qədər uşaq əməyinin bütün formalarına son qoyulması üçün təcili və səmərəli tədbirlər görmək.

[18] Məqsəd 16: Davamlı inkişaf naminə sülhsevər və açıq cəmiyyətin qurulmasına dəstək vermək, hamının məhkəmə sisteminə çıxışını təmin etmək və bütün səviyyələrdə səmərəli, hesabatlı və geniş iştiraka əsaslanan təsisatlar yaratmaq. Məqsəd 16, hədəf 3: Milli və beynəlxalq səviyyədə qanunun aliliyini təşviq etmək və hamı üçün ədalət mühakiməsinə bərabər çıxışı təmin etmək. Məqsəd 16, hədəf

2.2.1 Qanunun aliliyinə əsaslanan təsisatlar

## → Konstitusiya ədliyyəsi

Azərbaycan konstitusiya ədliyyəsi sahəsində Avropa Şurasının və xüsusilə Hüquq vasitəsilə demokratiya uğrunda Avropa Komissiyasının (Venesiya Komissiyası) sərəncamında olan resurslardan, o cümlədən Çevik cavab mexanizmindən istifadə etməyə təşviq edilir.[19]

**Gözlənilən nəticələr:**

✓ Venesiya Komissiyası konstitusiya ədliyyəsi sahəsində Azərbaycanın hakimiyyət orqanlarının sorğusu əsasında, o cümlədən Çevik reaksiya mexanizmi vasitəsilə rəylər təqdim edir.

**Əsas milli tərəfdaşlar: Azərbaycan Konstitusiya Məhkəməsi.**

## → Ədalət mühakiməsinin müstəqilliyi və səmərəliliyi

2014-cü ildən etibarən texniki əməkdaşlıq Azərbaycan məhkəmələrinin işinin səmərəliliyinin və məhkəmə xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılmasına gətirib çıxarmışdır ki, bu da Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) tərəfindən hazırlanmış alətlərdən istifadə edilməsi sayəsində baş vermişdir. Bu baxımdan Şərq Tərəfdaşlığı proqramı çərçivəsində aparılan məhkəmə islahatlarının nəticələrinin daha yaxşı qiymətləndirilməsi üçün Aİ/AŞ-nın birgə dəstək proqramı çərçivəsində "*Məhkəmə informasiya paneli*" faydalı alət rolunu oynayacaqdır. Əvvəlki Fəaliyyət Planı çərçivəsində görülən işlərin nəticəsi olaraq məhkəmələrin idarə edilməsi təkmilləşdirilmiş, pilot məhkəmələr bütün kateqoriyalar üzrə iş yükünün yığılmasına yol verilmədən həll edilmiş işlərin 100%-ə yaxın göstəricisinə nail olmuş və həmçinin işlərin həllinə sərf olunan vaxtın xeyli azalmasına nail olmuşlar. Bu yaxınlarda Azərbaycan məhkəmələri arasında CEPEJ alətlərinin yayılması üzrə yol xəritəsinin hazırlanması yekunlaşdırılmış, həssas qrupların məhkəmələrə çıxışı və məhkəmə sistemi üçün kommunikasiya strategiyası üzrə alətlər hazırlanmlş və məhkəmə qərarlarının icrası sisteminin islahatlarına dəstək verilməsinə başlanmışdır. Ədliyyə Akademiyasının məhkəmə idarəçiliyi üzrə təlim proqramını hazırlamaq məqsədilə ədliyyə orqanlarındakı müxtəlif hədəf qrupları arasında CEPEJ mövzuları üzrə təlim ehtiyaclarının qiymətləndirilməsi aparılmışdır. Avropa Şurası Azərbaycanın hakimiyyət orqanlarına xüsusilə aşağıdakı sahələrdə dəstəyini davam etdirmək niyyətindədir:

- yerlərdəki məhkəmələr də daxil olmaqla məhkəmələrdə vaxtın idarə edilməsinə və ədalət mühakiməsinin keyfiyyətinə dair CEPEJ tərəfindən hazırlanmış metodologiya və alətlərin tətbiqi;
- CEPEJ alətlərinə, Avropa Şurasının standartlarına və qabaqcıl təcrübəyə uyğun olaraq Ədliyyə Akademiyasının hakimlər üçün təlim (ilkin təlim və xidməti fəaliyyət zamanı təlim) metodologiyasının və kurikulumlarının təkmilləşdirilməsi;
- məhkəmələrin gündəlik idarə olunması ilə bağlı məhkəmə orqanları üçün təlimlərin keçirilməsi;
- məhkəmə qərarlarının icrası sisteminin təkmilləşdirilməsi;
- qadınların və həssas durumda olan qrupların ədalət mühakiməsinə çıxış imkanlarının yaxşılaşdırılması.

Bundan əlavə, məhkəmə və media arasında qarşılıqlı anlaşmanın artırılması, məhkəmələrin və prokurorluq orqanlarının mətbuatla əlaqələrində peşəkarlıq səviyyəsinin yüksəldilməsi və ədalət mühakiməsi sisteminin şəffaf, vizual və başa düşülən olmasını təmin etmək məqsədilə Avropa Şurası CEPEJ-in kommunikasiya alətlərinə əsaslanan, konkret fəaliyyətləri və konkret hədəfləri nəzərdə tutan kommunikasiya strategiyasının həyata keçirilməsində Azərbaycanın məhkəmə sisteminə köməklik göstərəcəkdir.

Ədalət mühakiməsinin müstəqilliyinə gəlincə, Azərbaycanda bu sahədə təkmilləşdirmələr üçün imkanlar qalmaqdadır. GRECO-nun Azərbaycan üzrə Dördüncü qiymətləndirmə raundu çərçivəsində təqdim edilmiş *Azərbaycan üzrə Uyğunluq hesabatında* (2019) və həmçinin bu yaxınlarda dərc edilmiş Azərbaycan üzrə

4: 2030-cu ilədək qanunsuz maliyyə və silah axınlarını əhəmiyyətli dərəcədə azaltmaq, oğurlanmış aktivlərin tapılması və geri qaytarılması üçün səyləri gücləndirmək və mütəşəkkil cinayətkarlığın bütün formaları ilə mübarizə aparmaq. Məqsəd 16, hədəf 5: Korrupsiya və rüşvətxorluğun bütün formalarını əhəmiyyətli dərəcədə azaltmaq. Məqsəd 16, hədəf 6: Bütün səviyyələrdə səmərəli, hesabatlı və şəffaf təsisatlar yaratmaq. Məqsəd 16, hədəf a: Bütün səviyyələrdə və xüsusən inkişaf etməkdə olan ölkələrdə zorakılığın qarşısını almaq və terrorizm və cinayətkarlıqla mübarizə aparmaq üçün müvafiq milli təsisatları gücləndirmək, o cümlədən beynəlxalq əməkdaşlıq vasitəsilə möhkəmləndirmək.

[19] Çevik cavab mexanizmi Aİ və AŞ-nin Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq birgə proqramının alətidir ki, onun vasitəsilə Avropa Şurası, xüsusən də Venesiya Komissiyası maraqlı ölkələrdən və ya Avropa Komissiyasından qanunvericiliyin təhlili və müvafiq yardım barədə daxil olan sorğuları cavablandırmaq üçün xüsusi hüquqi məsləhətlər verə bilər, *https://pjp-eu.coe.int/en/web/pgg2/quick-response-mechanism*.

İkinci Uyğunluq Hesabatına Əlavədə (2021) öz əksini tapmış parlament üzvlərinin, hakimlərin və prokurorların korrupsiyaya yol verməsinin qarşısının alınmasına dair tövsiyələrin icrası ilə bağlı əlavə səylər tələb olunur. Avropa Şurası icra olunmamış və ya qismən yerinə yetirilmiş tövsiyələrə əməl etməkdə hakimiyyət orqanlarına kömək etməyə hazırdır. Onlar parlament üzvlərinin, hakimlərin və prokurorların aktivlərinin şəffaf qaydada açıqlanması sistemlərinə, Məhkəmə-Hüquq Şurasının tərkibinə və funksiyalarına və icra hakimiyyətinin prokurorluq orqanlarına qanunsuz təsirlərinə aiddir.

**Gözlənilən nəticələr:**

- ✓ Pilot məhkəmələrin təcrübəsinin yayılması və ədalət mühakiməsi peşəkarlarının potensialının artırılması yolu ilə məhkəmə xidmətlərinin səmərəliliyi və keyfiyyəti daha da yüksəldilir.
- ✓ Ədliyyə Akademiyasının hakimlər üçün təlim (ilkin təlim və xidməti fəaliyyət zamanı təlim) metodologiyası və kurikulumları Avropa Şurasının standartlarına və qabaqcıl təcrübəyə uyğun olaraq daha da təkmilləşdirilir.
- ✓ Məhkəmə qərarlarının icrası sistemi təkmilləşdirilir.
- ✓ Qadınların və əlilliyi olan insanlar, məişət zorakılığı qurbanları və s. kimi həssas vəziyyətdə olan qrupların ədalət mühakiməsinə çıxış imkanları yaxşılaşdırılır.
- ✓ Məhkəmə sistemi üçün kommunikasiya strategiyası səlahiyyətli orqanlar tərəfindən təsdiq edilir və həyata keçirilir.

**Əsas milli tərəfdaşlar: Məhkəmə-Hüquq Şurası, Ədliyyə Nazirliyi, Hakimlərin Seçki Komitəsi, Ədliyyə Akademiyası, Vəkillər Kollegiyası.**

2.2.2 Cinayətkarlığa qarşı mübarizə, vətəndaşların təhlükəsizliyi və müdafiəsi

## → Korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizə

Korrupsiya qanunun aliliyinə və insan hüquqlarının həyata keçirilməsinə təsir göstərən, dövlət institutlarına inamı azaldan, siyasi sabitliyə və iqtisadi inkişafa təhlükə yaradan qlobal problemdir. Azərbaycanın hakimiyyət orqanları korrupsiyaya qarşı mübarizəyə sadiqliklərini bir daha bəyan etmiş və korrupsiyaya qarşı mübarizə sahəsində hərtərəfli hüquqi bazanın qəbulu da daxil olmaqla korrupsiya əleyhinə islahatlar aparmağa və onların həyata keçirilməsində Avropa Şurası ilə əməkdaşlığa hazır olduqlarını bildirmişlər.

2017-ci ildə Azərbaycan Parlamenti Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi və terrorçuluğun maliyyələşdirilməsi haqqında Avropa Şurası Konvensiyasını (CETS № 198) ratifikasiya etmişdir və indi bu Konvensiya çərçivəsində tematik monitorinq ona şamil olunur. “Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı” dövlət xidmətlərinin təkmilləşdirilməsi və rəqəmsallaşdırılması, korrupsiyanın qarşısının alınması, vətəndaş nəzarətinin gücləndirilməsi, ictimai iştirakçılığın genişləndirilməsi, maliyyə şəffaflığının artırılması, informasiyaya çıxışın təmin edilməsi və digər sahələrdə daha böyük irəliləyişlərin əldə edilməsinə əhəmiyyətli töhfə vermək məqsədi daşıyır.

Əvvəlki Fəaliyyət Planlarına uyğun olaraq, Avropa Şurası qanunverici və normativ-hüquqi bazanın yenidən nəzərdən keçirilməsinə və gücləndirilməsinə dəstək vermiş; korrupsiyaya qarşı mübarizə üzrə milli fəaliyyət planlarının hazırlanması və həyata keçirilməsi üçün ictimaiyyətin rəyinin öyrənilməsini və ekspert məsləhətlərini təmin etməklə korrupsiyaya qarşı mübarizə siyasəti prosesini asanlaşdırmış; etik davranış və korrupsiyaya qarşı mübarizə üzrə təlimlərin hazırlanmasını və dövlət qulluğu və ali təhsil sektoruna inteqrasiyasını dəstəkləmiş; Azərbaycan hakimiyyətinin institusional və əməli potensialının gücləndirilməsinə töhfə vermiş; iqtisadi cinayətlərin istintaqı və təqibi üçün peşəkar bacarıqların artırılmasına töhfə vermişdir.

Çirkli pulların yuyulmasına və terrorizmin maliyyələşdirilməsinə (ÇPY/TM) qarşı mübarizə sahəsində dəstək aşağıdakılarla bağlı məsləhətlərin verilməsindən ibarət olmuşdur: çirkli pulların yuyulmasına/terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizəyə dair qanunvericiliyin qəbulu; ünvanlı maliyyə sanksiyaları ilə bağlı qanunvericiliyin gücləndirilməsi, habelə benefisiar mülkiyyətin şəffaflığının artırılması üçün qanunverici və institusional mexanizmlərin qəbulu, xüsusən də benefisiar mülkiyyət reyestrinin yaradılması və istifadəsi vasitəsilə bu sahədə şəffaflığın artırılması.

Bundan əlavə, Avropa Şurası hüquqi bazanın genişləndirilməsinə dəstək verməklə, habelə aktivlərin geri qaytarılması və idarə olunması üzrə idarələrin təyin edilməsi və yaradılması ilə bağlı tövsiyələr verməklə Azərbaycanda aktivlərin geri qaytarılması rejiminin gücləndirilməsinə töhfə vermişdir.

Bununla belə, çatışmazlıqlar qalmaqdadır və onların aradan qaldırılması üçün xüsusilə aşağıdakı sahələrdə əlavə tədbirlər görülməlidir:

- ÇPY ilə mübarizə haqqında qanunvericiliyinin əhatə dairəsi və səmərəli tətbiqi, o cümlədən nəzarət prosesinə risk əsaslı yanaşmanın daxil edilməsi;
- ÇPY/TM ilə mübarizə sahəsində institusional bazanın təkmilləşdirilməsi, o cümlədən ÇPY/TM ilə mübarizə sahəsində fəaliyyət göstərən əsas orqanların potensialının artırılması;
- Benefisiar mülkiyyətin şəffaflığı ilə bağlı tənzimləyici və əməliyyat rejimləri;
- Cinayət yolu ilə əldə edilmiş gəlirlərin qaytarılması və müsadirə edilmiş aktivlərin idarə edilməsi üçün hüquqi bazanın təkmilləşdirilməsi;
- Aktivlərin aşkarlanması üçün qabaqlayıcı tədbirlərin və məcburi icra mexanizmlərinin səmərəliliyi, xüsusən də aktivlərin bəyan edilməsi barədə Azərbaycan qanunvericiliyinin icrası;
- Məhkəmə orqanlarının müstəqilliyinin möhkəmləndirilməsi və qorunması;
- Dövlət satınalmalarında şəffaflığın artırılması;
- Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (GRECO) və Pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) tövsiyələrinə və Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) standartlarına uyğun olaraq korrupsiyaya və ÇPY/TM-ə qarşı mübarizə üzrə ixtisaslaşdırılmış qurumların əməli fəaliyyətlərinin səmərəliliyinin və muxtariyyətinin təmin edilməsi;
- İqtisadi cinayətlərin istintaqı və təqibi üçün peşəkar bacarıqların artırılması və bu prosesə etika komponentinin aktiv inteqrasiya edilməsi.

Bundan əlavə, Dördüncü qiymətləndirmə raundu çərçivəsində *GRECO-nun Azərbaycan üzrə Uyğunluq hesabatına* uyğun olaraq parlament üzvlərinin, hakimlərin və prokurorların korrupsiyaya yol verməsinin qarşısının alınması ilə bağlı konkret tədbirlər nəzərdə tutula bilər. Avropa Şurası həmçinin Avropa Şurasının standartlarına uyğun olaraq GRECO (beşinci qiymətləndirmə raundu) və MONEYVAL-ın cari və gələcək tövsiyələrinin səmərəli icrasını təmin etmək üçün Azərbaycana texniki yardım göstərməyə hazırdır.

**Gözlənilən nəticələr:**

- ✓ İqtisadi cinayətkarlığa qarşı mübarizə və onun qarşısının alınması üçün qanunvericilik bazası və institusional potensial təkmilləşdirilir.
- ✓ Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə beynəlxalq standartların tətbiqinin səmərəliliyi artır.
- ✓ Korrupsiyaya qarşı mübarizə siyasətinin səmərəli şəkildə həyata keçirilməsi, məhkəmə orqanlarının müstəqilliyinin gücləndirilməsi, aktivlərinin açıqlanması rejimi və dövlət məmurlarının dürüstlüyü sayəsində korrupsiyanın qarşısının alınması GRECO-nun tövsiyələrinə uyğun olaraq gücləndirilir.
- ✓ Dövlət satınalma prosedurlarının şəffaflığı daha da gücləndirilir.
- ✓ İqtisadi cinayətlərlə bağlı aparılan istintaq və cinayət təqibinin keyfiyyəti və kəmiyyəti artır.
- ✓ Korrupsiyaya və ÇPY/TM-ə qarşı mübarizə üzrə səlahiyyətli qurumların əməli fəaliyyətinin səmərəliliyi və muxtariyyəti təmin edilir.
- ✓ İqtisadi cinayətlərin istintaqı və təqibi üzrə peşəkar bacarıqlar artırılır.
- ✓ Aktivlərin geri qaytarılması sahəsində qanunverici baza təkmilləşdirilir və səmərəlilik artırılır.

**Əsas milli tərəfdaşlar: Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya; Prezident Administrasiyası; milli Maliyyə Monitorinqi Xidməti; Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi; Baş Prokuror yanında Elmi-Məsləhət Şurasının Korrupsiyaya qarşı Mübarizə üzrə Tədris Mərkəzi, digər aidiyyəti orqanlar.**

## → Kibercinayətkarlıq

Azərbaycan və Avropa Şurası əvvəlki Fəaliyyət Planı çərçivəsində kibercinayətkarlıqla mübarizə sahəsində birgə işləmişlər. Bu yaxınlarda Avropa Şurası Azərbaycanda kibercinayətkarlıq və elektron sübutlarla bağlı təlim ehtiyaclarının və əməkdaşlıq imkanlarının qiymətləndirilməsini həyata keçirmiş; Bakıda hüquq-mühafizə orqanları ilə internet provayderlərinin əməkdaşlığına dair seminarda dövlət-özəl sektor əməkdaşlığının ən son aspektlərinə toxunmuş; dövlət-özəl sektor əməkdaşlığı təcrübəsinin açıq müzakirəsini asanlaşdırmaq üçün beynəlxalq iştirakçılarla bir sıra onlayn görüşlər təşkil etmiş; Azərbaycanın hakimiyyət orqanlarını məlumatların qorunması, hüquq-mühafizə orqanları ilə internet provayderlərinin əməkdaşlığı və informasiyaların mühafizəsi aspektləri üzrə regional səviyyəli masaüstü tədqiqatlara və sorğulara cəlb etmişdir.

Hazırkı Fəaliyyət Planına əsasən, Avropa Şurası kibercinayətkarlığa dair ölkədaxili qanunvericiliyi Azərbaycanın 2010-cu ildə ratifikasiya etdiyi Budapeşt Konvensiyasına uyğunlaşdırmaq məqsədi ilə Azərbaycanın milli hakimiyyət orqanlarına yardım göstərməyə davam edəcək. Cari prioritetlərə həmçinin bunlar daxildir: kibercinayətkarlıqla mübarizə üzrə milli strategiya; qurumlararası, beynəlxalq və dövlət-özəl sektor əməkdaşlığının təkmilləşdirilməsi; müstəntiqlərin, prokurorların və hakimlərin kibercinayətkarlıq və elektron sübutlarla bağlı bacarıqlarının təkmilləşdirilməsi. Avropa Şurası bu sahələrdə irəliləyişə nail olmaq üçün Azərbaycana hüquqi və texniki yardım göstərəcəkdir.

**Gözlənilən nəticələr:**

- ✓ Kibercinayətkarlıqla bağlı ölkədaxili qanunvericilik Budapeşt Konvensiyasına uyğundur.
- ✓ Kibercinayətkarlıqla mübarizə üzrə milli strategiya qəbul edilir və həyata keçirilir.
- ✓ Kibercinayətkarlıqla mübarizədə qurumlararası və dövlət-özəl sektor əməkdaşlığı genişləndirilir.
- ✓ Müstəntiqlərin, prokurorların və hakimlərin kibercinayətkarlıqla mübarizə potensialı gücləndirilir.

**Əsas milli tərəfdaşlar: Baş Prokurorluq; Dövlət Təhlükəsizliyi Xidməti; Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, kommunikasiya sahəsi üzrə tənzimləyici milli orqanlar; fərdi məlumatların qorunmasına məsul orqanlar; internet provayderləri (beynəlxalq provayderlər də daxil olmaqla); milli kibertəhlükəsizlik ekspertləri.**

## → Cəzaçəkmə müəssisələri və polis orqanları

Azərbaycan 2017-ci ildən penitensiar sistemdə islahatların aparılması istiqamətində addımlar atır. Bu günə kimi cəza təyini siyasətini təkmilləşdirmək və azadlıqdan məhrumetmə ilə əlaqəli olmayan sanksiyaların dairəsini genişləndirmək məqsədi ilə ölkədaxili qanunvericilikdə 300-dən çox dəyişiklik edilmişdir. Köhnəlmiş binaların əvəzinə yeni həbsxana binaları tikilir. Prezidentin 7 noyabr 2017-ci il tarixli Sərəncamı ilə Ədliyyə Nazirliyinin tərkibində Probasiya xidməti yaradılmışdır. İslahat penitensiar infrastrukturun modernləşdirilməsini, həbsxana şəraitinin tələblərə uyğunluğuna nəzarətin artırılmasını, işçi heyəti üçün təlimlərin keçirilməsini, şəffaflığın artırılması və korrupsiyanın qarşısının alınması üzrə tədbirləri əhatə edir. İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsi (CPT) Azərbaycana mütəmadi səfərlər həyata keçirir.

Əvvəlki Fəaliyyət Planlarına əsasən, Avropa Şurası Avropa standartlarına və qabaqcıl təcrübələrə uyğun olaraq penitensiar müəssisələrin idarə olunması sistemində islahatların aparılmasında, tibbi və profilaktik tədbirlərin yaxşılaşdırılmasında Azərbaycanın hakimiyyət orqanlarına dəstək verilməsinə yönəlmiş tədbirlər həyata keçirmişdir. Tədbirlərin tam səmərəliliyini təmin etmək üçün bütün gözlənilən nəticələrə gender amilini nəzərə alan yanaşma şamil olunacaqdır.

**Gözlənilən nəticələr:**

- ✓ Avropa Şurasının texniki dəstəyi ilə penitensiar müəssisələrin idarə edilməsi və məhbusların sağlamlığının qorunması üzrə Fəaliyyət Planları həyata keçirilir.
- ✓ Yeni Etika Kodeksi Azərbaycanın hakimiyyət orqanları tərəfindən təsdiqlənir və bütün ölkə üzrə həbsxana əməkdaşlarının diqqətinə çatdırılır.
- ✓ Həbsxana əməkdaşlarının cəzaçəkmə müəssisələrində səhiyyə xidməti və həbsxananın idarə olunması ilə bağlı bilik və bacarıqları artırılır.
- ✓ Məhkumların cəmiyyətə təkrar inteqrasiyası sistemi peşə hazırlığı, biznes mentorluğu, hüquqi və psixoloji dəstək vasitəsilə dəstəklənir.
- ✓ Polis orqanlarında və həbsxanalarda baş verən işgəncə və pis rəftarın digər formalarının qarşısının alınması və belə hallardan müdafiə sistemi və prosedurları təkmilləşdirilir.
- ✓ Mümkün pis rəftar/işgəncə halları ilə bağlı araşdırmalar Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsasən onların "səmərəli" hesab edilməsi üçün tələb olunan meyarlara cavab verir.

**Əsas milli tərəfdaşlar: Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi.**

## → İnsan alveri

İnsan alverinə qarşı mübarizə Avropa Şurası ilə Azərbaycan arasında texniki əməkdaşlığın yeni sahəsidir. Azərbaycan 2010-cu ildə Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyasına qoşulmuşdur və o vaxtdan bəri İnsan alverinə qarşı mübarizə üzrə Ekspertlər Qrupu (GRETA) tərəfindən Azərbaycan üzrə mütəmadi olaraq monitorinq keçirilir. Konvensiyanın müddəaları ilə bağlı həm irəliləyişlər, həm də çatışmazlıqlar qeyd edilməklə, son hesabat və tövsiyələr 2018-ci ildə təqdim edilmişdir. Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyasının Azərbaycan tərəfindən icrasına dair Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyasının Tərəflərinin Komitəsi tərəfindən qəbul edilmiş *CP(2018)24 saylı Tövsiyəyə* (2018) uyğun olaraq, digərlər sahələrlə yanaşı, aşağıdakı sahələrdə əlavə fəaliyyətlər tələb olunur:

- insan alverinin ehtimal edilən və rəsmən müəyyən edilmiş qurbanları haqqında bütün əsas subyektlərdən etibarlı statistik məlumatların toplanması yolu ilə insan alveri ilə bağlı hərtərəfli statistik sistemin işlənib hazırlanması;
- əməyin istismarı məqsədilə həyata keçirilən insan alverinin qarşısının alınması üçün tədbirlərin görülməsi;
- uşaq alverinin qarşısının alınması üçün əlavə tədbirlərin görülməsi;
- Konvensiyanın 10-cu maddəsinə uyğun olaraq insan alveri qurbanlarının müəyyən edilməsini təmin etmək;
- insan alverinin qurbanı olan uşaqların müəyyənləşdirilməsi və yardım üçün yönləndirilməsi işinin təkmilləşdirilməsi.

Avropa Şurası bu tövsiyələrin, habelə “Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı”nın (MFP) müddəalarının, o cümlədən gender amilinin nəzərə alınması şərtinin Avropa Şurasının standartlarına uyğun olaraq yerinə yetirilməsi üçün Azərbaycanın hakimiyyət orqanlarına texniki yardım göstərməyə hazırdır. Bu kontekstdə geniş ictimaiyyət və dövlət məmurları arasında məlumatlılıq səviyyəsinin artırılmasına xüsusi diqqət yetirilməlidir.

**Gözlənilən nəticələr:**

- ✓ İnsan alveri sahəsində qanunverici və prosessual baza Avropa Şurasının standartlarına uyğun olaraq təkmilləşdirilir.
- ✓ İnsan alveri ilə bağlı hərtərəfli statistik sistem yaradılır.
- ✓ “İnsan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı”nın səmərəli icrasının təmin edilməsinə köməklik göstərilir.
- ✓ İnsan alveri problemi və səmərəli qabaqlayıcı mexanizmlərlə bağlı geniş ictimaiyyət və dövlət məmurları arasında məlumatlılıq səviyyəsi artırılır.

**Əsas milli tərəfdaşlar: Daxili İşlər Nazirliyi, Prokurorluq, Dövlət Miqrasiya Xidməti.**

## → Narkomaniya və qanunsuz narkotik ticarəti

Narkotiklərlə əlaqədar siyasət Avropa Şurası ilə Azərbaycan arasında texniki əməkdaşlığın yeni sahəsidir. Narkotiklərin zərərli məqsədlərlə istifadəsi və qeyri-qanuni ticarətinə qarşı mübarizə üzrə Beynəlxalq Əməkdaşlıq Qrupu (Pompidu Qrupu) hazırladığı *2019–2022-ci illər üçün İş Proqramı: "İnsan hüquqlarına hörmət nəzərə alınmaqla narkotiklərlə əlaqədar siyasət”* çərçivəsində aşağıdakı sahələrdə fəaliyyət göstərir: narkotiklərlə əlaqədar siyasətə münasibətdə yanaşmaların daha yaxşı nəzərdən keçirilməsi və dərki; təcrübədə sınaqdan keçirilmiş alətlərin, təlimatların və modellərin təqdim edilməsi yolu ilə narkotiklərlə əlaqədar siyasətin iqtisadi rentabelliyinə dəstək göstərilməsi və müsbət və mənfi nəticələrinin və bu barədə məlumatlılıq səviyyəsinin müəyyən edilməsi; narkotiklərlə əlaqədar siyasət, strategiya və fəaliyyət planlarının işlənib hazırlanmasında, həyata keçirilməsində və qiymətləndirilməsində üzv dövlətlərə dəstək verilməsi; qarşıya problemləri vaxtında həll etmək üçün çevik cavab tədbirlərinin hazırlanması.

*Cari Fəaliyyət Planına* uyğun olaraq Avropa Şurası Azərbaycanda narkotiklərlə əlaqədar siyasətin ümumi icmalını hazırlamağa, narkotiklərlə əlaqədar siyasət sahəsində strategiyanın/fəaliyyət planının işlənib hazırlanmasında, həyata keçirilməsində və qiymətləndirilməsində Azərbaycanın hakimiyyət orqanlarına köməklik göstərməyə və ixtisaslaşdırılmış, peşəkar şəbəkələrə və əməkdaşlıq platformalarına çıxışı təmin etməklə siyasət tədbirlərinin təkmilləşdirilməsinə töhfə verməyə hazırdır.

**Gözlənilən nəticələr:**

- ✓ Azərbaycanda narkotiklərlə əlaqədar siyasət beynəlxalq standartlara uyğun olaraq təkmilləşdirilir.
- ✓ Narkotiklərə nəzarət sahəsində milli strategiya işlənib hazırlanır və tətbiq edilir.

**Əsas milli tərəfdaşlar: Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi.**

## 2.3 DEMOKRATİYA

Dövlət qurumları ilə vətəndaş cəmiyyəti arasında dialoqun davam etdirilməsi və qeyri-hökumət təşkilatları (QHT) haqqında milli qanunvericiliyin Avropa Şurasının standartlarına uyğunlaşdırılması yeni Fəaliyyət Planının əsas prioritetləri olaraq qalır. Çoxşaxəli və müstəqil vətəndaş cəmiyyəti sabit və funksional demokratiya üçün zəruridir. Avropa Şurası demokratik vətəndaşlıq tərbiyəsi və insan hüquqları sahəsində təhsilin inteqrasiyasına və daha da inkişaf etdirilməsinə dəstək verməklə təhsil vasitəsilə demokratik mədəniyyətin təşviqini davam etdirəcək, bu sahədə formal və qeyri-formal təhsilverənlərə dəstək verəcək və Azərbaycanda gənclərin iştirakçılığını təşviq etmək məqsədilə gənclərlə işləyən QHT-lərin və dövlət orqanlarının potensialını artıracaq. Həmçinin Azərbaycanda insan hüquqlarına əsaslanan gənclər siyasətinin qurulmasına dəstək vermək və mədəniyyətlərarası dialoqun dəstəklənməsi və inkişaf etdirilməsi sahəsində milli orqanların səylərinə töhfə vermək planlaşdırılır.

Bu sahədə həyata keçiriləcək texniki əməkdaşlıq məsələləri Avropa Şurasının müvafiq monitorinq mexanizmlərinin və ekspert məsləhət orqanlarının, o cümlədən Nazirlər Komitəsi (NK), Parlament Assambleyası (AŞPA), Yerli və Regional Hakimiyyətlər Konqresi (Konqres) və İrqçilik və dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRI) hesabat və qənaətləri nəzərə alınmaqla işlənib hazırlanmışdır.

Bu komponent üzrə tədbirlər Azərbaycan tərəfindən aşağıdakı Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə töhfə verəcək: DİM 4, hədəf 7,[20] DİM 16, hədəflər 6 və 7.[21]

### 2.3.1 Demokratik idarəetmə

**→ Seçki məsələləri**

Azərbaycanda demokratiyanın inkişafı üçün seçki islahatı mühüm məsələ olaraq qalır. Daha əvvəl Hüquq vasitəsilə demokratiya uğrunda Avropa Komissiyası (Venesiya Komissiyası) tərəfindən, habelə Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) tərəfindən özünün Üçüncü qiymətləndirmə raundu çərçivəsində Azərbaycan üzrə İkinci Uyğunluq hesabatına İkinci Əlavəsində[22] və həmçinin Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) qərarlarında müəyyən edilmiş problemləri aradan qaldırmaq üçün əlavə səylərə ehtiyac var. Müəyyən edilmiş problemlər xüsusilə Seçki Məcəlləsinin məzmunu, seçki komissiyalarının tərkibi, tərəflərin/partiyaların maliyyələşdirilməsi və seçki prosesində siyasi partiyaların rolu ilə bağlıdır. Avropa Şurası bununla bağlı Azərbaycana lazımi qanunverici və texniki dəstəyi göstərməyə hazırdır.

**Gözlənilən nəticələr:**

- ✓ Azərbaycanın seçki qanunvericiliyi Avropa Şurasının standartlarına uyğundur.

**Əsas milli tərəfdaşlar: Mərkəzi Seçki Komissiyası.**

---

[20] Məqsəd 4: Hamı üçün İnklüziv və bərabər keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsil almaq imkanlarını dəstəkləmək. Məqsəd 4, hədəf 7: 2030-cu ilədək bütün təhsil alanların dayanıqlı inkişafa yardım üçün zəruri olan bilik və bacarıqlara yiyələnmələrini təmin etmək, o cümlədən buna dayanıqlı həyat tərzi, insan hüquqları, gender bərabərliyi məsələlərinin tədrisi, sülh və qeyri-zorakılıq mədəniyyətinin, qlobal vətəndaşlığın təşviqi və mədəni müxtəlifliyin dəyərinin dərki vasitəsilə nail olmaq.
[21] Məqsəd 16: Davamlı inkişaf naminə sülhsevər və açıq cəmiyyətin qurulmasına dəstək vermək, hamının məhkəmə sisteminə çıxışını təmin etmək və bütün səviyyələrdə səmərəli, hesabatlı və geniş iştiraka əsaslanan təsisatlar yaratmaq. Məqsəd 16, hədəf 6: Bütün səviyyələrdə səmərəli, hesabatlı və şəffaf təsisatlar yaratmaq. Məqsəd 16, hədəf 7: Cəmiyyətin bütün təbəqələrinin iştirakı ilə bütün səviyyələrdə nümayəndəli orqanların məsuliyyətli qərarlar qəbul etməsini təmin etmək.
[22] GrecoRC3(2017)4.

### 2.3.2 Demokratik iştirakçılıq

**→ Vətəndaş cəmiyyəti**

Əvvəlki Fəaliyyət Planlarına əsasən, daxili qanunvericiliyin Avropa Şurasının standartlarına uyğunlaşdırılması istiqamətində bəzi ilkin addımlar atılmışdır. Digər məsələlərlə yanaşı, Bakıda yüksək səviyyəli hökumət nümayəndələrinə "Azərbaycan Respublikasında QHT-lərlə bağlı qanunvericiliyin və təcrübənin Avropa standartlarına uyğunlaşdırılmasına" dair hesabat təqdim edilmiş, habelə QHT-lərin qeydiyyatı və QHT-lərin maliyyə vəsaitlərinə çıxışı kimi mühüm məsələləri tənzimləyən qanunvericiliyə dair təkliflər səlahiyyətli orqanlarla əlavə məsləhətləşmələr üçün işlənib hazırlanmışdır. Bundan əlavə, 13 vətəndaş cəmiyyəti təşkilatını və ekspertləri birləşdirən ayrı-seçkilik əleyhinə platforma/bərabərlik platforması ayrı-seçkiliyə qarşı mübarizə sahəsində vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi və vətəndaş cəmiyyəti ilə Ombudsman Aparatı kimi dövlət institutları arasında dialoqun gücləndirilməsi üzrə işə başlamışdır.

Hazırkı Fəaliyyət Planına əsasən, Avropa Şurası qeyri-hökumət təşkilatlarının (QHT) fəaliyyəti ilə bağlı qanunvericiliyin Avropa Şurasının standartlarına uyğunlaşdırılması, habelə qərarların qəbulu prosesində vətəndaşların iştirakı ilə bağlı təcrübələrin təkmilləşdirilməsi və hakimiyyət orqanları ilə vətəndaş cəmiyyəti təşkilatları arasında konstruktiv dialoqun təşviqi sahəsində səlahiyyətli orqanlarla işləyəcəkdir.

Bundan əlavə, Avropa Şurasının Şimal-Cənub Mərkəzinin (NSC) Genişləndirilmiş Tərkibli Sazişinin iştirakçısı olaraq, Azərbaycan Şimal-Cənub dialoqunu təşviq etmək üçün vətəndaş cəmiyyəti və digər demokratik idarəetmə subyektləri arasında aşağıdakı dörd prioritet sahə üzrə "aşağıdan yuxarıya doğru" dialoqun təşviqinə kömək edir: qlobal inkişafın tədrisi, gənclərin əməkdaşlığı, qadınların hüquq və imkanlarının genişləndirilməsi və miqrasiya.

**Gözlənilən nəticələr:**

- ✓ QHT-lərlə bağlı ölkədaxili qanunvericilik, o cümlədən qeydiyyat prosedurları Avropa Şurasının standartlarına uyğundur.

**Əsas milli tərəfdaşlar: Prezident Administrasiyası, Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi; vətəndaş cəmiyyəti təşkilatları, Milli Məclis (Parlament).**

**→ Demokratiya üçün təhsil**

2016-cı ildən bəri Azərbaycan Şimal-Cənub Mərkəzi (NSC) vasitəsilə Qlobal Təhsil Proqramı çərçivəsində Avropa İttifaqı ilə "Qlobal təhsil, şəbəkələr yaratma və dialoq vasitəsilə mədəniyyətlərarası təhsil mübadiləsi (iLEGEND və iLEGEND II)" ardıcıl birgə proqramlarından faydalanır. Qlobal təhsil elə bir pedaqoji yanaşmadır ki, nöqteyi-nəzərlərin müxtəlifliyini və stereotiplərin dağıdılmasını dəstəkləyir və şagird yönümlü yanaşmaya əsaslanmaqla qlobal problemlər haqqında tənqidi-analitik məlumatlılığı və dayanıqlı həyat tərzinin formalaşmasında iştirakı təşviq edir.

Hazırkı Fəaliyyət Planına əsasən, Avropa Şurası qlobal problemlərin və onların iqtisadi, sosial, siyasi, ekoloji və mədəni qarşılıqlı əlaqələrinin siyasətçilər, təhsil verənlər və gənc işçilər tərəfindən daha yaxşı başa düşülməsinə kömək etmək məqsədi daşıyan Qlobal Təhsil Proqramı, o cümlədən "iLegend II" çərçivəsində fəaliyyətlərə Azərbaycanı bundan sonra da cəlb etmək niyyətindədir. Bu baxımdan, Avropa Şurası pedaqoji və metodiki dəstək vasitəsilə bu sahədə formal və qeyri-formal təhsilverənlərin bacarıqlarının inkişafına töhfə verəcək, onları materiallar və alətlər dəstləri ilə təmin edəcək, həmçinin onlayn və rezident təlim kurslarına çıxışı təmin edəcək və Qlobal Təhsil şəbəkəsinin işinə Azərbaycan üzrə milli koordinatoru cəlb edəcəkdir.

Bundan əlavə, NSC Azərbaycanı Qadınların hüquq və imkanlarının genişləndirilməsi proqramına cəlb etmək niyyətindədir, bu proqram çərçivəsində Avropa, Yaxın Şərq və Afrikada gender bərabərliyinin və qadın hüquqlarının inkişaf etdirilməsi məqsədilə müvafiq maraqlı tərəflər arasında səmərəli regional əməkdaşlığın qurulması üçün məlumatlılığın artırılması, potensialın gücləndirilməsi və şəbəkə yaratma fəaliyyətlərindən istifadə edilir. Şəbəkələrin yaradılması və ekspertlərə təlim keçilməsi kimi fəaliyyətlər qadınlara qarşı zorakılıqla mübarizədə insan hüquqlarına əsaslanan yanaşmanın rəhbər tutulmasına kömək edir. Bu fəaliyyətlər Azərbaycanda Avropa Şurasının bu sahədəki digər fəaliyyətlərinə mühüm əlavə rolunu oynaya bilər.

**Gözlənilən nəticələr:**

- ✓ Pedaqoji və metodiki dəstək vasitəsilə formal və qeyri-formal təhsilverənlərin bacarıqları inkişaf etdirilir.
- ✓ Azərbaycanda qadınlara qarşı zorakılıqla mübarizədə insan hüquqlarına əsaslanan yanaşma daha geniş tətbiq olunur.

**Əsas milli tərəfdaşlar: Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu və Azərbaycan Dövlət Pedaqoji Universiteti.**

## → Gənclər demokratiya uğrunda

Avropa Şurası ilə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi arasında əməkdaşlıq Azərbaycan üçün 2014-2017 və 2018-2021-ci illər üzrə əvvəlki Fəaliyyət Planları çərçivəsində həyata keçirilmişdir. Azərbaycanın ucqar ərazilərində yaşayan gənc fəallar və liderlər regional təlim seminarları çərçivəsində gənclərin iştirakçılığı və insan hüquqları təhsili sahəsində Avropa Şurasının yanaşmaları və təhsil resursları ilə tanış olmuş, gənc təlimçilərin qeyri-rəsmi şəbəkəsinin (2017-2018-ci illərdə yaradılıb) insan hüquqları sahəsində qeyri-formal təhsil yanaşmalarının tətbiqi təcrübəsindən bəhrələnmişlər. Bu qəbildən olan seminarlara hazırlıq məqsədilə elektron tədris proqramı hazırlanmış və istifadəyə hazır vəziyyətə gətirilmişdir.

Hazırkı Fəaliyyət Planına əsasən, Azərbaycan gənclər və gənclər təşkilatları üçün təlim imkanlarını və bacarıqların artırılmasını təmin edən və onların qərarların qəbul edilməsində iştirakını asanlaşdıran Avropa Şurasının Gənclərin Əməkdaşlığı proqramında iştirak edəcək. Gənclərin iştirakçılığını gücləndirmək və insan hüquqları və vətəndaşlıq təhsili üzrə potensiallarını artırmaq məqsədilə mədəniyyətlərarası təhsil və həmyaşıdların təhsili vasitəsilə gənclərin hüquq və imkanlarının genişləndirilməsinə yönələn təlim kursları təşkil ediləcək. Gənclərin öz məktəblərində və formal təhsil sistemindən kənarda, öz icmalarında və rəqəmsal platformalarda demokratik bacarıq və vərdişləri tətbiq etmələri üçün imkanlar yaradılmalıdır ki, bu dəyərlər fərdi təfəkkürlərdə və cəmiyyətin təfəkküründə oturuşsun. Avropa Şurası Nazirlər Komitəsinin gənclərlə iş, hüquqlara və sosial hüquqlara çıxış imkanı bağlı son üç tövsiyəsinin icrası ilə əlaqədar əlavə fəaliyyətlər səlahiyyətli orqanlarla razılaşdırıla bilər.[23]

**Gözlənilən nəticələr:**

- ✓ Gənc liderlərin, fəalların və gənclər təşkilatlarının qərarların qəbulu proseslərində iştirak imkanları artırılır.
- ✓ Gənclərin hüquq və imkanlarının genişləndirilməsi üçün mədəniyyətlərarası təhsil və həmyaşıdların təhsili imkanları artırılır.
- ✓ Təcrübədə gənclərin öz məktəblərində qərarların qəbulu proseslərində və icmalarına təsir edən layihələrdə iştirak etmək imkanları təmin edilir.

**Əsas milli tərəfdaşlar: Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası (NAYORA), vətəndaş cəmiyyəti təşkilatları.**

## → Mədəniyyətlərarası dialoq

Avropa Şurası və Azərbaycan əvvəllər mədəniyyətlərarası dialoq üzrə əməkdaşlıq etmişlər, mütəmadi olaraq Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu onlar tərəfindən dəstəklənir. Forum Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO), Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansı (UNAOC), Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatı (UNWTO), Avropa Şurası (AŞ) və İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESCO) ilə tərəfdaşlıq şəraitində Azərbaycan hökuməti tərəfindən təşkil edilir. .

[23] Nazirlər Komitəsinin üzv dövlətlərə "Gənclərlə işə dair" CM/Rec(2017)4 saylı tövsiyəsi, *https://rm.coe.int/1680717e78*; Nazirlər Komitəsinin üzv dövlətlərə "Gənclərin hüquqlara çıxışına dair" CM/Rec(2016)7 saylı Tövsiyəsi, *http://rm.coe.int/native/09000016806a93e2*; Nazirlər Komitəsinin üzv dövlətlərə "Əlverişsiz rayonlardan olan gənclərin sosial hüquqlara çıxışına dair" CM/Rec(2015)3 saylı Tövsiyəsi, *http://rm.coe.int/native/09000016805c46f7*.

Avropa Şurası və Azərbaycan bu sahədə əməkdaşlığı həmçinin müxtəlif qitələrdə yaşayan, müxtəlif etnik, mədəni, dini və linqvistik mənşəyə və irsə malik şəxslər və qruplar arasında qarşılıqlı anlaşma və hörmətə əsaslanan açıq və mötəbər fikir mübadiləsi platforması olan Bakı Prosesi vasitəsilə davam etdirmək niyyətindədirlər.

**Gözlənilən nəticələr:**

- ✓ Mədəniyyətlərarası dialoq sahəsində Avropa Şurasının dəyərləri və qabaqcıl təcrübələri yayılır və bu həm də Bakı Prosesində iştirak vasitəsilə baş verir.

**Əsas milli tərəfdaşlar: Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi.**

## III HİSSƏ. İCRA

### 3.1 METODOLOGİYA

Avropa Şurası tərəfindən həyata keçirilən texniki əməkdaşlığın ümumi koordinasiyası Proqramlar üzrə Baş Direktorluğun (ODGP) səlahiyyətinə aiddir, o, müvafiq tədbirlərin həyata keçirilməsini təmin etməklə yanaşı, əməkdaşlıq tədbirlərinin proqramlaşdırılması və onlar üçün maliyyə vəsaitinin toplanması işinə rəhbərlik edir və eyni zamanda yerlərdə Avropa Şurasının ofislərinin fəaliyyət göstərməsini təmin edir.

Fəaliyyət Planı layihələri Avropa Şurasının müvafiq ekspertiza sahəsinə cavabdeh olan əsas inzibati qurumu tərəfindən həyata keçirilir. Təşkilatın texniki yardım və əməkdaşlığın mərkəzsizləşdirilmiş qaydada həyata keçirilməsi siyasətinə uyğun olaraq, *Avropa Şurasının Bakı Ofisi* bu sahədə layihələrin həyata keçirilməsinin əlaqələndirilməsində və dəstəklənməsində əsas rol oynayır. 31 dekabr 2021-ci il tarixinə olan məlumata görə Ofisin 12 əməkdaşı vardı.

Fəaliyyət Planı layihələrinin həyata keçirilməsi zəruri hallarda ehtiyacların qiymətləndirilməsini, qanunvericiliyin ekspertizasını, potensialın gücləndirilməsini, məlumatlılıq səviyyəsinin artırılmasını və kollegial rəyləri özündə ehtiva edir. *Avropa Şurasının Layihələrin idarə edilməsi metodologiyasına* (PMM) uyğun olaraq istifadə olunan metodologiya milli maraqlı tərəflərin iştirakını artırmaq və nəticələrin davamlılığını təmin etmək məqsədi daşıyır. 2017-ci ildən etibarən məcburi xarakter daşıyan PMM planlaşdırma və monitorinq, xərclərin səmərəliliyi və rentabelliyi baxımından layihələrin icrasının keyfiyyətini artırmağa kömək edir. O həmçinin risklərin qiymətləndirilməsinin təkmilləşdirilməsinə, insan hüquqlarına əsaslanan yanaşmanın tətbiqinə və gender aspektlərinə daha çox diqqət yetirilməsinə yol açır.

Bundan əlavə, Avropa Şurası tərəfindən planlaşdırılan əməkdaşlıq “multiinstitusional yanaşma” əsasında həyata keçirilir ki, bu da Avropa Şurasının müxtəlif institutlarının və orqanlarının hökumətdəki maraqlı tərəflər, parlamentlər, Ombudsman Aparatı, yerli və regional hakimiyyət orqanları və vətəndaş cəmiyyəti ilə işləməsinə imkan yaradır. Bu, hərtərəfli, inklüziv, uğurlu və davamlı islahatlar üçün unikal rıçaqlar yaradır.

Avropa Şurası həmçinin fəaliyyətlərinin bütün səviyyələrində və mərhələlərində insan hüquqlarına əsaslanan yanaşmaya üstünlük verir. Hüquqi sənədləri və təsisatları da daxil olmaqla Avropa Şurasının sərəncamında olan hər bir şey bərabərlik, ayrı-seçkiliyin yolverilməzliyi, gender baxımından balanslaşdırılmış iştirakçılıq və vətəndaş cəmiyyətinin iştirakçılığı prinsipləri ilə birlikdə Avropa Şurasının fəaliyyətlərinə əlavə töhfə verir.

İnsan hüquqlarına əsaslanan bu cür yanaşmasının tərkib hissəsi qismində Avropa Şurası *2018-2023-ci illər üçün Gender Bərabərliyi Strategiyasına* uyğun olaraq bütün layihə fəaliyyətləri ərzində gender amilinin nəzərə alınmasının vacibliyini vurğulayır. *Avropa Şurasının Əməkdaşlıq layihələrində gender amilinin nəzərə alınması üçün alətlər toplusu* Təşkilat daxilində, eləcə də milli tərəfdaşlar və digər maraqlı subyektlər tərəfindən əməkdaşlıq fəaliyyətlərində gender aspektlərinin tətbiqini genişləndirir. Fəaliyyət Planı ilə bağlı tədbirlər hazırlandıqca gender əsaslı yanaşma daha konkret müəyyən ediləcəkdir. O, əməkdaşlıq sahəsindən asılı olmayaraq müvafiq fəaliyyətlərə tətbiq ediləcəkdir. Məsələn, müxtəlif qanunvericilik aktları və milli strukturlar Avropa Şurasının standartlarının işığında yenidən nəzərdən keçirilərkən gender bərabərliyi və qadın hüquqları standartları nəzərə alınacaqdır. Gender bərabərliyi mövzusu həmçinin təlim fəaliyyətlərinə və proqramlarına daxil ediləcəkdir. Layihələr hazırlanarkən və həyata keçirilərkən onların qadınlara və kişilərə təsiri təhlil ediləcəkdir. Gender amilinin nəzərə alınması ilə yanaşı, gender bərabərliyini təşviq etmək üçün konkret fəaliyyətlər nəzərdən keçiriləcəkdir.

Analoji olaraq, Avropa Şurası layihə fəaliyyətlərində vətəndaş cəmiyyətinin fəal iştirakını təşviq edir. İnklüzivlik *Avropa Şurasının əməkdaşlıq fəaliyyətlərində vətəndaş cəmiyyəti təşkilatlarının iştirakına dair rəhbər prinsiplərdə* nəzərdə tutulan yanaşmadır.

Təşkilat 2022-2027-ci illər üçün Uşaq Hüquqları Strategiyasına uyğun olaraq uşaqları zərərlərdən qorumaq və uşaqların müdafiə hüququnun tam şəkildə həyata keçirilməsini təmin etmək öhdəliyinə sadiqdir.

Qeyd edilməsi zəruri olan digər bir əlaqədar aspekt iqlimin və ətraf mühitin qorunmasıdır. İnsan hüquqları, qanunun aliliyi və demokratiya naminə əməkdaşlığın inkişaf etdirilməsi iqlim dəyişikliyi problemini ağırlaşdıran bir çox siyasi, hüquqi və sosial məsələlərin həllinə öz töhfəsini verir. Avropa Şurası ətraf mühutə əsas müsbət təsir imkanlarını və ətraf mühitin zəif yerlərinin yaratdığı riskləri, habelə hər hansı əlavə tədbirləri müəyyən etmək üçün sadələşdirilmiş ekoloji qiymətləndirmə aparmışdır. İlkin nəticələr göstərir ki, Avropa Şurasının əməkdaşlığı çərçivəsində ölkələrə öz səmərəli idarəetmə strukturlarını möhkəmdirməkdə dəstək göstərilməsi və beləliklə, onların ekoloji problemləri və vəzifələri daha yaxşı həll etmək imkanı əldə etməsi dolayısı ilə ətraf mühitə müsbət təsir göstərir. Bununla belə, Avropa Şurasının əməkdaşlıq sektorunun iqlimə mənfi təsir göstərməyən texniki yardıma diqqətini artırmasına hələ də ehtiyac var. Hazırda Təşkilat daxilində sonrakı addımlar müzakirə olunur.

Hazırkı Fəaliyyət Planında həmçinin 2014-2017 və 2018-2021-ci illər üçün Fəaliyyət Planlarının icrası zamanı **əldə edilmiş təcrübələr**, o cümlədən aşağıdakılar nəzərə alınır:

- Fəaliyyət Planının çevikliyi iş planlarını və iş üsullarını Covid-19 böhranına geniş şəkildə uyğunlaşdırmağa imkan vermişdir. Bir tərəfdən, pandemiya ilə bağlı məhdudiyyətlər bəzi sahələrdə, xüsusən də İT əsaslı həllər sahəsində innovasiyalara təkan vermiş və ya onların tətbiqini sürətləndirmişdir. Məsələn, Avropa Şurasının Hüquqşünaslar üçün insan hüquqları sahəsində Avropa təhsil proqramı (HELP) kimi onlayn platformaların Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlıq üçün çox faydalı alət olduğu öz təsdiqini tapmışdır. Qazanılmış təcrübə gələcək praktik fəaliyyətlərdə istifadə edilə bilər. Digər tərəfdən, bəzi fəaliyyətlər, xüsusən də təhsil səfərləri və siyasi cəhətdən həssas sahələrdə müəyyən təlim fəaliyyətləri üçün heç bir adekvat alternativ həll yolu tapılmamışdır. Covid-19-dan sonrakı dövrdə canlı və onlayn görüşlər arasında düzgün balans axtarılmalıdır.
- İş planlarını elə bir şəkildə hazırlamaq vacibdir ki, fəaliyyətlərin geniş kombinasiyası – hibrid, onlayn, masaüstü tədqiqat və uyğunlaşdırılmış yazılı prosedurlar nəzərdə tutulmuş olsun. Bu, informasiya texnologiyalarına çıxış imkanının təhlükə altına düşə biləcəyi sağlamlıq böhranları və siyasi qeyri-sabitlik dövründə əməkdaşlıq fəaliyyətlərinin daha çevik həyata keçirilməsinə imkan verəcək. Bundan əlavə, səmərəli koordinasiyanı təmin etmək üçün daxili məsləhətləşmələr prosesi çox vaxt aparır, ona görə də əməkdaşlıq fəaliyyətləri üçün qrafiklər tərtib edilərkən bu cür addımların əlaqələndirilməsindən ötrü daha çox vaxt nəzərdə tutulmalıdır. Fəaliyyətlərin erkən planlaşdırılması logistika məsələləri ilə bağlı gözlənilməz vəziyyətlərdə risklərin daha yaxşı idarə edilməsinə imkan verir.
- Əməkdaşlıq zamanı insan hüquqlarına əsaslanan yanaşmanın rəhbər tutulması və Avropa Şurasının standart və prinsiplərindən texniki yardımın həm vasitələri, həm də məqsədləri kimi istifadə edilməsi həmin hüquqların həyata keçirilməsinə əhəmiyyətli dərəcədə töhfə verə bilər.
- Avropa Şurası müxtəlif dövlət və qeyri-dövlət subyektləri arasında mühüm körpü rolunu oynayır.
- Milli tərəfdaşların potensialının artırılması texniki yardım proqramlarının mühüm elementi olaraq qalır.
- Azərbaycanda Fəaliyyət Planı ilə bağlı texniki əməkdaşlıq işinin xarakteri və dəyəri barədə vətəndaş cəmiyyəti nümayəndələri və geniş ictimaiyyət arasında məlumatlılığın daha da artırılmasına ehtiyac var.
- Covid-19 pandemiyası gender əsaslı zorakılığın artması ilə mübarizəyə ehtiyac olduğunu ortaya qoymuşdur, belə ki, bütün ölkələrdə məişət zorakılığı halları kəskin şəkildə artmışdır və Azərbaycan da istisna deyil. Bu sahəyə xüsusi diqqət tələb olunur, xüsusən də gender amilinin nəzərə alınması önəmlidir. Gender bərabərliyi davamlı olaraq bütün layihə fəaliyyətlərində və təlimlərdə nəzərə alınmalıdır.

Mandatının xarakterinə görə Avropa Şurası bəzən onu risklərə məruz qoyan mürəkkəb və qeyri-sabit mühitlərdə fəaliyyət göstərməli olur. Fəaliyyət Planının həyata keçirilməsi ilə bağlı risklərin təhlili, eləcə də onların azaldılmasına yönələn mümkün strategiyalar 2016-cı ilin iyun ayında Avropa Şurası tərəfindən qəbul edilmiş *Risklərin idarə edilməsinə dair rəhbər prinsiplər* və *Risklərin idarə edilməsi siyasəti* əsasında hazırkı Fəaliyyət Planına II Əlavədə müəyyən edilmişdir. Fəaliyyət Planı çərçivəsində həyata keçirilən bütün layihələrin öz risklərinin qiymətləndirilməsi və azaldılması prosedurları vardır.

## 3.2 BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİNƏ TÖHFƏ

Fəaliyyət Planı Azərbaycanın hakimiyyət orqanlarının Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM), xüsusilə də aşağıdakılara nail olmağa yönələn səylərini dəstəkləyəcəkdir: Məqsəd 3, Məqsəd, 4, Məqsəd 5, Məqsəd 8, Məqsəd 10, Məqsəd 16:

- **Məqsəd 3. Yaşından asılı olmayaraq hamının sağlam yaşayış tərzini təmin etmək və rifah halını yaxşılaşdırmaq**

Narkotik vasitələrin sui-istifadəsinin və qanunsuz dövriyyəsinin qarşısının alınması sahəsində qarşıya qoyulan məqsədlər konkret olaraq Azərbaycanda narkotiklərlə bağlı milli siyasət strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi və narkotik problemlərinə münasibətdə bu sahəyə aid siyasət çərçivəsində müəyyən edilən tədbirlərin təkmilləşdirilməsi baxımından 3.5-ci hədəfə birbaşa töhfə verəcəkdir.[24]

- **Məqsəd 4. Hamı üçün İnklüziv və bərabər keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsil almaq imkanlarını dəstəkləmək**

Hazırkı Fəaliyyət Planının peşəkar potensialın artırılmasına və bilik və bacarıqların təmin edilməsinə yönəlmiş bir sıra məqsədləri 4.7-ci hədəfə nail olmağa kömək edir.[25] Azərbaycanda insan hüquqlarına riayət edilməsini təkmilləşdirmək səyləri çərçivəsində Avropa Şurası hüquqşünasların və milli institutların öz işlərində insan hüquqları prinsiplərini tətbiq etmək bacarıqlarını artırmağa çalışır. Hüquqşünaslar üçün insan hüquqları sahəsində Avropa təhsil proqramı (HELP) bu baxımdan mühüm əhəmiyyət kəsb edir, belə ki, o, hüquqşünaslar üçün ömürboyu təhsil imkanlarını təmin edir və dayanıqlı inkişaf üçün insan hüquqları sahəsində təhsilə töhfə verir. Bundan əlavə, bu Fəaliyyət Planının bir çox tematik sahələrində mahiyyətcə maarifləndirici xarakter daşıyan potensialın gücləndirilməsi tədbirləri nəzərdə tutulmuşdur ki, bu da yuxarıda qeyd edilən hədəfə nail olunmasına öz töhfəsini verir. Nəhayət, "Demokratiya üçün təhsil" mövzusu çərçivəsində müəyyən edilmiş məqsədlər, yəni pedaqoji və metodiki dəstək vasitəsilə formal və qeyri-formal təhsilverənlərin bacarıqlarının inkişafı 4-cü Məqsədə nail olunmasına birbaşa töhfə verir.

- **Məqsəd 5. Gender bərabərliyinə nail olmaq, bütün qadın və qızların hüquq və imkanlarını genişləndirmək**

Cari Fəaliyyət Planı 5.1[26] və 5.2-ci[27] hədəflərə nail olunmasına töhfə verəcək. Bu, dövlət məmurları və geniş ictimaiyyət arasında Avropa Şurasının müvafiq standartlarının təbliği və qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə üçün səmərəli müdafiə mexanizmlərinin yaradılması vasitəsilə mümkün olacaq. Media və ədalət mühakiməsi sektoru kimi sahələrdə gender yanaşmasının tətbiq edilməsi, eyni zamanda qadınların insan hüquqlarının pozulması ilə bağlı işlərə baxılmasında hüquqşünasların potensialının artırılması planlaşdırılır.

Digər tematik sahələrdə qarşıya qoyulan məqsədlər də yuxarıda qeyd olunan hədəflərə nail olunmasına öz töhfəsini verir. Azərbaycan 2019-cu ildə Lansarote Konvensiyasını ratifikasiya etdiyinə görə hazırkı Fəaliyyət Planı uşaqların, o cümlədən qızların zorakılıq, cinsi istismar və cinsi sui-istifadə hallarından qorunması və belə halların qarşısının alınması üçün strategiyaların işlənib hazırlanması və həyata keçirilməsi üzrə fəaliyyətləri əhatə edir. İnsan alveri sahəsində qanunverici və prosessual bazanın təkmilləşdirilməsi, dövlət məmurları və geniş ictimaiyyət arasında məlumatlılıq səviyyəsinin artırılması, müvafiq peşəkarların və qurumların potensialının gücləndirilməsi qadın və qız alverinin qarşısının alınmasına və onların daha yaxşı müdafiə edilməsinə gətirib çıxarmalıdır. Bundan əlavə, cəzaçəkmə müəssisələrinin idarəetmə sistemində islahatlar aparmaqla cəzaçəkmə müəssisələrində insan hüquqlarının möhkəmləndirilməsi, səhiyyə xidmətinin təkmilləşdirilməsi və işgəncə və pis rəftarın digər formaları ilə gender amilini nəzərə almaqla mübarizə aparılması 5-ci məqsədə nail olunmasına töhfə verəcəkdir.

Bütün siyasət və tədbirlərdə, eləcə də layihələrin həyata keçirilməsində gender amilinin nəzərə alınması Fəaliyyət Planının prioritetidir və həmçinin 5-ci məqsədə nail olmağa kömək edir.

---

[24] Məqsəd 3, hədəf 3.5: Psixoaktiv maddələrdən asılılığın, o cümlədən narkotik vasitələrdən və alkoqoldan sui-istifadənin qarşısının alınması və profilaktika və müalicəsinin təkmilləşdirilməsi.

[25] Məqsəd 4, hədəf 4.7: 2030-cu ilədək bütün təhsil alanların dayanıqlı inkişafa yardım üçün zəruri olan bilik və bacarıqlara yiyələnmələrini təmin etmək, o cümlədən buna dayanıqlı həyat tərzi, insan hüquqları, gender bərabərliyi məsələlərinin tədrisi, sülh və qeyri-zorakılıq mədəniyyətinin, qlobal vətəndaşlığın təşviqi və mədəni müxtəlifliyin dəyərinin dərki vasitəsilə nail olmaq.

[26] Məqsəd 5, hədəf 5.1: Hər yerdə bütün qadınlara və qızlara qarşı ayrı-seçkiliyin bütün formalarına son qoymaq.

[27] Məqsəd 5, hədəf 5.2: İnsan alveri və cinsi və digər istismar növləri daxil olmaqla, bütün qadınlara və qızlara qarşı ictimai və özəl sahələrdə zorakılığın bütün formalarını aradan qaldırmaq.

- **Məqsəd 8. Hamının ardıcıl, inklüziv və dayanıqlı iqtisadi yüksəlişinə, tam və səmərəli məşğulluğuna və layiqli işlə təmin olunmasına dəstək vermək**

Avropa Şurasının insan alverinə qarşı mübarizəyə yönəlmiş tədbirləri 8.7-ci hədəfə nail olunmasına töhfə verəcək.[28] Buna səmərəli qanunverici və prosessual bazanın, o cümlədən hərtərəfli statistik sistemin yaradılması və bu sahədə müvafiq məsələlərlə bağlı müvafiq maraqlı tərəflər və geniş ictimaiyyət arasında məlumatlılığın artırılması yolu ilə nail olunacaq. Uşaq alverinin qarşısının alınmasına, insan alverinin qurbanı olan uşaqların müəyyən edilməsi və yardım üçün yönəldilməsinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilməlidir.

"Sosial hüquqlar" başlığı altında planlaşdırılan fəaliyyətlər 8.8-ci hədəfə nail olunmasına töhfə verəcək.[29] Bu baxımdan, Avropa Şurası Azərbaycana sərbəst məşğulluq, iş yerində ayrı-seçkiliklə mübarizə, məcburi əməyin qadağan edilməsi, ödənişsiz işədüzəltmə xidmətləri, peşə oriyentasiyası təlimatları, təlim və reabilitasiya kimi məsələlərin həllində kömək edəcək. Bu prosesdə sosial və əmək hüquqları ilə bağlı məlumatlılıq səviyyəsinin artırılmasının önə çəkilməsi mühüm əhəmiyyət kəsb edəcək.

- **Məqsəd 10. Ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq**

Bu Fəaliyyət Planında ayrı-seçkiliklə mübarizə sahəsində qarşıya qoyulan məqsədlər 10.2[30] və 10.3-cü[31] hədəflərə nail olunmasına birbaşa töhfə verəcək. Konkret olaraq, irqçilik və ayrı-seçkiliklə mübarizəyə dair müvafiq qanunvericilikdə Avropa Şurasının standartlarına uyğun olaraq hamının sosial, siyasi və iqtisadi inteqrasiyasını təşviq edən dəyişikliklərin edilməsi planlaşdırılır. Bundan əlavə, tolerantlıq, habelə ayrı-seçkiliklə mübarizə sahəsində fəaliyyət göstərən müvafiq milli institutların və vətəndaş cəmiyyəti təşkilatlarının potensialını artırmaqla, Avropa Şurası hamının mənafeyi naminə insan hüquq və azadlıqlarının daha yaxşı müdafiəsini təmin etməyi qarşısına məqsəd qoyur. Bununla bağlı mühüm iş sahəsi dövlət məmurları və geniş ictimaiyyət arasında ayrı-seçkiliyin yolverilməzliyi standartları haqqında məlumatlılıq səviyyəsinin artırılmasıdır. Hökumət və müxtəlif sosial qrupları təmsil edən vətəndaş cəmiyyəti təşkilatları arasında inklüziv dialoqun təşviqi bu hədəflərə əlavə töhfə verəcəkdir.

- **Məqsəd 16. Davamlı inkişaf naminə sülhsevər və açıq cəmiyyətin qurulmasına dəstək vermək, hamının məhkəmə sisteminə çıxışını təmin etmək və bütün səviyyələrdə səmərəli, hesabatlı və geniş iştiraka əsaslanan təsisatlar yaratmaq**

Avropa Şurasının mandatının xarakterinə uyğun olaraq, hazırkı Fəaliyyət Planı çərçivəsində həyata keçirilən bütün texniki əməkdaşlıq tədbirləri, xüsusən də Azərbaycanın dövlət orqanlarına və təsisatlarına göstərilən institusional dəstək 16-cı Dayanıqlı İnkişaf Məqsədinə və xüsusilə 6-cı hədəfə nail olunmasına mühüm töhfə verəcək.[32] Azərbaycanla əməkdaşlıq bu məqsədə və bu məqsəd çərçivəsində bir neçə hədəfə nail olmaq üçün geniş çeşidli dəstək sahələrini, o cümlədən aşağıdakıları əhatə edir və təkcə bunlarla məhdudlaşmır:

- Uşaqlara qarşı zorakılıq, cinsi istismar və cinsi sui-istifadə hallarının qarşısının alınması və onların belə hallardan müdafiəsi üçün strategiyaların müəyyən edilməsinə və uşaqlara qarşı cinsi istismar və cinsi sui-istifadə ilə mübarizə sahəsində çalışan peşəkarların potensialının artırılmasına yönələn fəaliyyətlər 16.2-ci hədəfə nail olunmasına töhfə verəcəkdir.[33]

- Fəaliyyət Planı 16.3-cü hədəfə uyğun olaraq hamı üçün ədalət mühakiməsinə bərabər çıxış imkanı yaradılmasını dəstəkləyir.[34] Daha konkret desək, Avropa Şurası qadınların ədalət mühakiməsinə bərabər əsasda çıxışı qarşısında hələ də qalan maneələri aradan qaldırmaq üçün müvafiq milli orqanlarla işləyəcək, buraya həmçinin qadınların insan hüquqlarının pozulmasına qarşı cavab tədbirlərinin təkmilləşdirilməsinə yönəlmiş məlumatlılığın artırılması və potensialın gücləndirilməsi tədbirləri daxildir. Bundan əlavə, əhalinin həssas qruplarının məhkəmələrə çıxışının və onlar üçün ödənişsiz hüquqi yardımın təmin edilməsinə xüsusi diqqət yetiriləcək.

---

[28] Məqsəd 8, hədəf 8.7: Məcburi əməyin kökünün kəsilməsi, müasir köləliyə və insan alverinə son qoyulması və uşaq əməyinin ən pis formalarının, o cümlədən uşaqların əsgər qismində cəlbinin və istifadəsinin qadağan olunmasının və ləğv edilməsinin təmin edilməsi və 2025-ci ilə qədər uşaq əməyinin bütün formalarına son qoyulması üçün təcili və səmərəli tədbirlər görmək.

[29] Məqsəd 8, hədəf 8.8: Əmək hüquqlarını qorumaq və bütün əməkçilər, o cümlədən əməkçi miqrantlar, xüsusilə qadın miqrantlar və təhlükəli iş şəraitində çalışanlar üçün etibarlı və təhlükəsiz iş şəraitinin təmin edilməsini təşviq etmək.

[30] Məqsəd 10, hədəf 10.2: 2030-cu ilədək yaşından, cinsindən, əlilliyindən, irqindən, etnik mənsubiyyətindən, mənşəyindən, dinindən, iqtisadi və ya digər statusundan asılı olmayaraq hamının sosial, iqtisadi və siyasi həyatda iştirakını dəstəkləmək və təşviq etmək.

[31] Məqsəd 10, hədəf 10.3: Bərabər imkanları təmin etmək və nəticələrə nail olmaq imkanlarında bərabərsizliyi azaltmaq, o cümlədən buna nail olmaq üçün ayrı-seçkilik yaradan qanun, siyasət və praktikaları aradan qaldırmaq və bununla bağlı müvafiq qanunvericilik, siyasət və praktikaları təşviq etmək.

[32] Məqsəd 16, hədəf 6: Bütün səviyyələrdə səmərəli, hesabatlı və şəffaf təsisatlar yaratmaq.

[33] Məqsəd 16, hədəf 16. 2: Uşaqlara qarşı pis rəftar, istismar, insan alveri hallarına və zorakılığın bütün formalarına və işgəncələrə son qoymaq..

[34] Məqsəd 16, hədəf 16.3: Milli və beynəlxalq səviyyədə qanunun aliliyini təşviq etmək və hamı üçün ədalət mühakiməsinə bərabər çıxışı təmin etmək.

- Korrupsiyaya və iqtisadi cinayətlərə qarşı mübarizə sahəsində qarşıya qoyulan məqsədlər 16.4[35] və 16.5-ci[36] hədəflərə nail olunmasına kömək edir və 16.a hədəfi ilə əlaqəlidir.[37] Buna Azərbaycanın qanunvericilik bazasının təkmilləşdirilməsi və iqtisadi cinayətlərlə mübarizə və onların qarşısının alınması üzrə institusional potensialın artırılması yolu ilə nail olunacaq ki, bu da qeyri-qanuni maliyyə axınlarının azalmasına və oğurlanmış aktivlərin geri qaytarılması işinin gücləndirilməsinə gətirib çıxaracaq. Korrupsiyaya qarşı mübarizə orqanlarının əməli fəaliyyətinin səmərəliliyini və muxtariyyətini təmin etməklə və dövlət satınalma prosedurlarında şəffaflığı artırmaqla, Avropa Şurası və Azərbaycan korrupsiya və rüşvətxorluğun bütün formalarını əhəmiyyətli dərəcədə azaltmaq niyyətindədirlər.

- Qərarların qəbul edilməsində gənclərin iştirakının artırılması məqsədi 16.7-ci hədəfə nail olunmasına kömək edəcəkdir.[38] Bu məqsədə nail olmaq üçün gənclərin hüquq və imkanlarının genişləndirilməsinə yönələn təlim kursları gənc azərbaycanlı fəallar, xüsusən də ucqar rayonlarda yaşayanlar üçün təqdim ediləcəkdir. Bundan əlavə, gənclərin öz məktəblərində qərarların qəbulu proseslərində və icmalarına təsir edən layihələrdə iştirak etmələri üçün imkanlar axtarılacaqdır.

- Toplaşmaq, ifadə və media azadlığının təşviqinə yönəlmiş fəaliyyətlər vasitəsilə Fəaliyyət Planı 16.10-ci hədəfə nail olunmasına töhfə verəcəkdir.[39] Konkret olaraq, Avropa Şurası və Azərbaycan Azərbaycanın toplaşmaq, ifadə və media azadlığına dair qanunvericiliyini təkmilləşdirməklə və mövcud qanunvericiliyin Avropa Şurasının standartlarına uyğun səmərəli tətbiqini təmin etməklə əsas azadlıqların müdafiəsini gücləndirməyi hədəfləyirlər.

Fəaliyyət Planının icrası *Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərindən* (DİM) bir neçəsinə nail olunmasına töhfə verəcəkdir.

## 3.3 KOORDİNASİYA

Resurslardan səmərəli istifadəni və Avropa Şurasının fəaliyyətlərinin aktuallığını təmin etmək üçün koordinasiya işi müxtəlif səviyyələrdə və müxtəlif forumlarda, o cümlədən Avropa Şurasının Nazirlər Komitəsində (CM) həyata keçirilir.

Avropa Şurasının tədbirləri elə müəyyən edilir və həyata keçirilir ki, Təşkilatın böyük təcrübəyə və əlavə üstünlüklərə malik olduğu sahələrə xüsusi diqqət yetirilə bilsin. Azərbaycanın hakimiyyət orqanları ilə birgə əməkdaşlıq bu sahədə digər beynəlxalq təşkilatların və subyektlərin qarşıya qoyduğu məqsədlərin, onların bu məqsədlərə nail olmaq üçün həyata keçirdiyi və (və ya) planlaşdırdığı işlərin hərtərəfli təhlili əsasında işlənib hazırlanır.

Fəaliyyətlərinin aktuallığını təmin etmək üçün Avropa Şurası müvafiq beynəlxalq tərəfdaşlarla, xüsusilə Avropa İttifaqı (Aİ) və konkret olaraq Aİ-nin Azərbaycandakı Nümayəndəliyi ilə sıx koordinasiyada işləyir.

2015-ci ildən bəri Azərbaycan aşağıdakı sahələri əhatə edən Yaxşı İdarəçilik üçün Tərəfdaşlıqda (PGG) proqramında iştirakdan bəhrələnmişdir:

- PGG, I mərhələ (2015-2018): insan hüquqlarının müdafiəsi və təşviqi; ədalət mühakiməsinin təmin edilməsi; qanunun aliliyinə təhdidlərə qarşı mübarizə; informasiya cəmiyyəti ilə bağlı problemlərin həlli; demokratik idarəetmənin təşviqi.
- PGG, II mərhələ (2019-2021): vətəndaşlar mənafeləri üçün daha yaxşı ədalət mühakiməsi; ayrı-seçkilikdən müdafiə edilmə; iqtisadi cinayətlərə qarşı mübarizə; qadınlara qarşı zorakılıqla mübarizə.

Bundan əlavə, Azərbaycan hazırda Avropa İttifaqı/Avropa Şurasının “Azərbaycanda penitensiar islahatlara əlavə dəstək 2” birgə ikitərəfli proqramında iştirak edir.

---

[35] Məqsəd 16, hədəf 16.4: 2030-cu ilədək qanunsuz maliyyə və silah axınlarını əhəmiyyətli dərəcədə azaltmaq, oğurlanmış aktivlərin tapılması və geri qaytarılması üçün səyləri gücləndirmək və mütəşəkkil cinayətkarlığın bütün formaları ilə mübarizə aparmaq.
[36] Məqsəd 16, hədəf 16.5: Korrupsiya və rüşvətxorluğun bütün formalarını əhəmiyyətli dərəcədə azaltmaq.
[37] Məqsəd 16, hədəf 16.a: Bütün səviyyələrdə və xüsusən inkişaf etməkdə olan ölkələrdə zorakılığın qarşısını almaq və terrorizm və cinayətkarlıqla mübarizə aparmaq üçün müvafiq milli təsisatları gücləndirmək, o cümlədən beynəlxalq əməkdaşlıq vasitəsilə möhkəmləndirmək.
[38] Məqsəd 16, hədəf 16.7: Cəmiyyətin bütün təbəqələrinin iştirakı ilə bütün səviyyələrdə nümayəndəli orqanların məsuliyyətli qərarlar qəbul etməsini təmin etmək.
[39] Məqsəd 16, hədəf 16.10: Milli qanunvericiliyə və beynəlxalq sazişlərə uyğun olaraq, ictimaiyyətin informasiyaya çıxışını təmin etmək və əsas azadlıqları qorumaq.

Həmçinin Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) və Avropa Şurasına üzv dövlətlərin səfirlikləri ilə də koordinasiya təmin edilir. Lazımi hallarda digər beynəlxalq təşkilatlarla koordinasiya platformaları yaradılır və birgə fəaliyyətlər həyata keçirilir. Avropa Şurası həmçinin Avropa Şurasına üzv dövlətlərin inkişaf qurumları ilə sıx əlaqə saxlayır. Səmərəliliyi təmin etmək və fəaliyyətlərin üst-üstə düşməsinin qarşısını almaq üçün o, həmçinin öz fəaliyyətini üzv dövlətlərin müvafiq inkişaf qurumları ilə əlaqələndirir. Avropa Şurasının Bakı Ofisi İnkişaf üzrə Tərəfdaşların Koordinasiya Platformasında iştirak edir və onun alt qruplarından biri olan yaxşı idarəçilik, ədalətli və inklüziv cəmiyyətlər üzrə alt qrupuna həmsədrlik edir və iki digər alt qrupunun – müvafiq olaraq, gender bərabərliyi, qadınların hüquq və imkanlarının genişləndirilməsi alt qrupunun və təmiz ətraf mühit və "yaşıl artım" alt qrupunun işində iştirak edir.

## 3.4 MALİYYƏLƏŞDİRMƏ

Fəaliyyət Planı üçün ümumi büdcə təxminən 9,6 milyon avro təşkil edir. 1,1 milyon avro (ümumi büdcənin 11,5%-i) məbləğində maliyyələşdirmə təmin edilmişdir.

Fəaliyyət Planı çərçivəsində layihələr bir çox mənbələr hesabına, o cümlədən Avropa İttifaqı (Aİ) ilə yardım tipli proqramlar kimi müştərək proqramlar, donor ölkələrin və beynəlxalq təşkilatların könüllü yardımları (KY), habelə Avropa Şurasının adi büdcəsi (AB) hesabına maliyyələşdirilməlidir.

Fəaliyyət Planının icrasının koordinasiyası Fəaliyyət Planının birbaşa xərclərinin 7%-indən çox olmayan ümumi idarəetmə məsrəflərinə səbəb olur.

Avropa Şurasının resursların səfərbər edilməsi strategiyasına uyğun olaraq, Proqramlar üzrə Baş Direktorluq (ODGP) tərəfindən koordinasiya edilən maliyyələşdirmə işləri bütövlükdə Fəaliyyət Planı üzərində konsentrasiya olunur. Fəaliyyət Planı səviyyəsində maliyyələşdirmə xüsusilə vəsaitlərin ən çox ehtiyac duyulan və əsas siyasətin və institusional islahatların davamlılığına töhfə verəcəyi ehtimal olunan yerlərə ayrılması üçün çevik qaydada bölüşdürülməsinə imkan verir.

2022-2025-ci illər üçün Fəaliyyət Planının hazırkı strukturu Avropa Şurasının müntəzəm büdcəsi çərçivəsində müvafiq fəaliyyətlər arasında uyğunluğu, dolğunluğu və koordinasiyanı artırmaq və Azərbaycana büdcədənkənar texniki yardım ayırmaq məqsədilə Avropa Şurasının proqram və büdcəsinə və onun ikiillik iki siklinə uyğunlaşdırılmışdır.




***Şəkil 2:*** *Avropa Şurasının Azərbaycan üçün 2022-2025-ci illər üzrə Fəaliyyət Planının mövzuları üzrə təxmini büdcə (avro ilə)*

## 3.5 İDARƏETMƏ

Avropa Şurasının Nazirlər Komitəsi (NK) özünün Demokratiya üzrə Məruzəçilər Qrupu (GR-DEM) vasitəsilə Fəaliyyət Planının icrasının nəticələrinin ümumi qiymətləndirilməsinə cavabdehdir.

Avropa Şurası Fəaliyyət Planının gedişatı və nəticələri haqqında mütəmadi olaraq yenilənən məlumatları təqdim edəcək. Bu məqsədlə Proqramlar üzrə Baş Direktorluq (ODGP) Nazirlər Komitəsinə aşağıda göstərilən aralıq və yekun hesabatları təqdim edəcəkdir:

- Fəaliyyət Planının qəbulundan 12 ay və 36 ay sonra onun rəsmən icrasının başlanmasından sonrakı gedişatı əks etdirən şifahi hesabat;
- Fəaliyyət Planının qəbulundan 24 ay sonra işlərin gedişatını dəyərləndirən hərtərəfli ortamüddətli hesabat;
- Fəaliyyət Planının icrasının sonunda işlərin gedişatını dəyərləndirən yekun hesabat.

Fəaliyyət Planı çərçivəsində əldə edilmiş irəliləyişlər Avropa Şurası və Azərbaycanın hakimiyyət orqanları tərəfindən də birgə qiymətləndiriləcək. Bu məqsədlə Xarici İşlər Nazirliyinin və Fəaliyyət Planının həyata keçirilməsində iştirak edən digər milli maraqlı tərəflərin, o cümlədən vətəndaş cəmiyyətinin nümayəndələrindən, habelə Avropa Şurasının nümayəndələrindən ibarət Fəaliyyət Planının Rəhbər Komitəsi yaradılır.

Bu Rəhbər Komitə təsdiq edilmiş layihələrin icrasını qiymətləndirəcək, gələcək əməkdaşlıq üçün təklifləri və qarşıya çıxan problemləri müzakirə edəcək və Fəaliyyət Planının səmərəliliyini artırmaq üçün lazım ola biləcək hər hansı tədbirləri tövsiyə edəcəkdir. İclaslar Fəaliyyət Planının qəbulundan 24 ay sonra ortamüddətli icra vəziyyətini qiymətləndirmək üçün və Fəaliyyət Planı başa çatanadək ümumi icra vəziyyətini qiymətləndirmək üçün keçiriləcəkdir. Rəhbər Komitənin tərkibinə gəldikdə, sektorlar çərçivəsində bilik və təcrübə baxımından məhdudiyyətlər nəzərə alınmaqla, gender baxımından mümkün qədər yaxşı balanslaşdırılmış təmsilçilik təmin edilməlidir.

Bundan əlavə, ODGP hesabat tələblərinə uyğun olaraq Fəaliyyət Planı səviyyəsində maliyyələşməyə töhfə vermiş donorlara illik Fəaliyyət Planı hesabatlarını təqdim edəcəkdir.

**Fəaliyyət Planı ilə bağlı əlaqələr**

Proqramlar üzrə Baş Direktorluq (ODGP)
Avropa Şurası
F-67075 Strasburq Cedex
Tel.: + 33 (0)3 90 21 56 54
Faks: + 33 (0)3 90 21 46 31
E-mail: odgp@coe.int
*www.coe.int/programmes*

Avropa Şurasının Bakı Ofisi
Azerbaijan,
1010 Baku,
Üzeyir Hacıbəyli küçəsi 62,
Marine Plaza
E-mail: fieldbaku@coe.int
*www.coe.int/baku*

## ƏLAVƏ I. MƏNTİQİ CƏDVƏL

**Gender bərabərliyi, gender amilinin nəzərə alınması və vətəndaş cəmiyyətinin iştirakı** kimi əlaqədar aspektlər Avropa Şurasının insan hüquqlarına əsaslanan yanaşmasının əsas komponentləridir.

**Ümumi məqsəd:** Azərbaycanda onun qanunvericiliyini, təsisatlarını və praktikasını insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində Avropa Şurasının standartlarına daha da uyğunlaşdıracaq və beləliklə ölkənin Avropa Şurasına üzv olan dövlət kimi öz öhdəliklərinə əməl etmək səylərini dəstəkləyəcək uğurlu islahatları təmin etmək.

| | |
|---|---|
| **İnsan hüquqları**<br>**Tematik nəticə:** Əməkdaşlıq prioritetlərinin yaxşı strukturlaşdırılmış və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi sayəsində Avropa Şurasının standartlarına uyğun olaraq Azərbaycanda İnsan hüquqları haqqında Avropa Konvensiyasının (İHAK) səmərəli tətbiqi; bərabərlik və insan ləyaqəti; ayrı-seçkiliyə yol verilməməsi, müxtəliflik və inklüzivlik sahələrində, habelə sosial hüquqlar sahəsində milli səviyyədə irəliləyiş əldə edilir və (və ya) vəziyyət yaxşılaşır. | |
| Bu komponent üzrə fəaliyyətlər Azərbaycan tərəfindən aşağıdakı Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə töhfə verir: DİM 4, hədəf 7[40]; DİM 5, hədəflər 1, 2[41]; DİM 8, hədəf 8[42]; DİM 10, hədəflər 2, 3[43]; SDG 16, hədəflər 2, 6, 10[44]. | |
| **Nəticələr** | **Göstəricilər (İndikatorlar)** |
| **1.1. İHAK-ın səmərəli tətbiqi** | |
| *Milli səviyyədə İHAK sisteminin səmərəliliyinin artırılması* | |
| • AİHM-in qərarlarının milli səviyyədə icrası üçün ümumi və fərdi tədbirlərin qəbulu | • Nazirlər Komitəsinin qərarlarına/qətnamələrinə uyğun olaraq Azərbaycan tərəfindən həyata keçirilən fərdi/ümumi tədbirlərin sayı; |

[40] Məqsəd 4: Hamı üçün İnklüziv və bərabər keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsil almaq imkanlarını dəstəkləmək. Məqsəd 4, hədəf 7: 2030-cu ilədək bütün təhsil alanların dayanıqlı inkişafa yardım üçün zəruri olan bilik və bacarıqlara yiyələnmələrini təmin etmək, o cümlədən buna dayanıqlı həyat tərzi, insan hüquqları, gender bərabərliyi məsələlərinin tədrisi, sülh və qeyri-zorakılıq mədəniyyətinin, qlobal vətəndaşlığın təşviqi və mədəni müxtəlifliyin dəyərinin dərki vasitəsilə nail olmaq.
[41] Məqsəd 5: Gender bərabərliyinə nail olmaq, bütün qadın və qızların hüquq və imkanlarını genişləndirmək. Məqsəd 5, hədəf 1: Hər yerdə bütün qadınlara və qızlara qarşı ayrı-seçkiliyin bütün formalarına son qoymaq. Məqsəd 5, hədəf 2: İnsan alveri və cinsi və digər istismar növləri daxil olmaqla, bütün qadınlara və qızlara qarşı ictimai və özəl sahələrdə zorakılığın bütün formalarını aradan qaldırmaq.
[42] Məqsəd 8: Hamının ardıcıl, inklüziv və dayanıqlı iqtisadi yüksəlişinə, tam və səmərəli məşğulluğuna və layiqli işlə təmin olunmasına dəstək vermək. Məqsəd 8, hədəf 8: Əmək hüquqlarını qorumaq və bütün əməkçilər, o cümlədən əməkçi miqrantlar, xüsusilə qadın miqrantlar və təhlükəli iş şəraitində çalışanlar üçün etibarlı və təhlükəsiz iş şəraitinin təmin edilməsini təşviq etmək.
[43] Məqsəd 10: Ölkədaxili və ölkələrarası bərabərsizliyi azaltmaq. Məqsəd 10, hədəf 2: 2030-cu ilədək yaşından, cinsindən, əlilliyindən, irqindən, etnik mənsubiyyətindən, mənşəyindən, dinindən, iqtisadi və ya digər statusundan asılı olmayaraq hamının sosial, iqtisadi və siyasi həyatda iştirakını dəstəkləmək və təşviq etmək. Məqsəd 10, hədəf 3: Bərabər imkanları təmin etmək və nəticələrə nail olmaq imkanlarında bərabərsizliyi azaltmaq, o cümlədən buna nail olmaq üçün ayrı-seçkilik yaradan qanun, siyasət və praktikaları aradan qaldırmaq və bununla bağlı müvafiq qanunvericilik, siyasət və praktikaları təşviq etmək.
[44] Məqsəd 16: Davamlı inkişaf naminə sülhsevər və açıq cəmiyyətin qurulmasına dəstək vermək, hamının məhkəmə sisteminə çıxışını təmin etmək və bütün səviyyələrdə səmərəli, hesabatlı və geniş iştiraka əsaslanan təsisatlar yaratmaq. Məqsəd 16, hədəf 2: Uşaqlara qarşı pis rəftar, istismar, insan alveri hallarına və zorakılığın bütün formalarına və işgəncələrə son qoymaq. Məqsəd 16, hədəf 6: Bütün səviyyələrdə səmərəli, hesabatlı və şəffaf təsisatlar yaratmaq. Məqsəd 16, hədəf 10: Milli qanunvericiliyə və beynəlxalq sazişlərə uyğun olaraq, ictimaiyyətin informasiyaya çıxışını təmin etmək və əsas azadlıqları qorumaq.

| | |
|---|---|
| sistemi təhlil edilir və təkmilləşdirilir. | • Azərbaycanla bağlı Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) tərəfindən qəbuıl edilən, icrası Avropa Şurasının Nazirlər Komitəsinin (NK) nəzarəti altında olan qərarların sayı;<br>• Fəaliyyət Planının qüvvədə olduğu müddətdə Azərbaycanla bağlı bağlanmış işlərin sayı. |
| • Hüquqşünasların (vəkillər, hakimlər, prokurorlar, hakim köməkçiləri, müstəqil praktik mütəxəssislər) səriştə və bacarıqları təkmilləşdirilir ki, bu da onların İHAK-ı səmərəli şəkildə tətbiq etməsinə imkan verir.<br>• Hüquqşünaslar üçün təlimlər keçirilməsində, o cümlədən bu işin HELP metodologiyasının tətbiqi yolu ilə və gender perspektivi nəzərə alınmaqla yerinə yetirilməsində Ədliyyə Akademiyasının rolu və potensialı artırılır. | • İHAK-ı səmərəli şəkildə tətbiq etmək üçün təlim keçilmiş hüquqşünasların sayı;<br>• Ədliyyə Akademiyası tərəfindən təlim keçilmiş hüquqşünasların sayı;<br>• Hüquqşünasların hazırlanmasında Ədliyyə Akademiyasının rolunu və potensialını artırmaq üçün milli hakimiyyət orqanları ilə həyata keçirilmiş təşəbbüslərin sayı;<br>• Avropa Şurasının Hüquqşünaslar üçün insan hüquqları sahəsində təhsil proqramı (HELP) çərçivəsində təlim keçilmiş hüquqşünasların sayı (cinslər üzrə bölünməklə);<br>• HELP proqramının gender məsələləri (qadınlara qarşı zorakılıq (QQZ) və qadınların ədalət mühakiməsinə çıxışı) üzrə kursları çərçivəsində təlim keçilmiş hüquqşünasların sayı (cinslər üzrə bölünməklə); |
| • Vəkillər Kollegiyasının müstəqilliyi gücləndirilir.<br>• Vəkillər Kollegiyasının normativ-hüquqi bazasında islahatların aparılmasına şərait yaradılır.<br>• Vəkillər Kollegiyasının istəyənlərin bu peşəyə rahat şəkildə gəlməsini və etik davranış qaydalarına riayət edilməsini təmin etmək potensialı gücləndirilir. | • Vəkillər Kollegiyasının institusional müstəqilliyinin gücləndirilməsi üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Vəkillər Kollegiyasının normativ-hüquqi bazasında islahatların aparılmasına dəstək məqsədilə həyata keçirilmiş tədbirlərin sayı;<br>• Azərbaycanda fəaliyyət göstərən vəkillərin sayı;<br>• Vəkillər Kollegiyasının istəyənlərin bu peşəyə rahat şəkildə gəlməsini və etik davranış qaydalarına riayət edilməsini təmin etmək potensialının gücləndirilməsi istiqamətində həyata keçirilmiş tədbirlərin sayı. |

| | |
|---|---|
| • Ödənişsiz hüquqi yardım xidmətləri göstərən mövcud strukturların milli səviyyədə potensialı gücləndirilir.<br>• Ödənişsiz hüquqi yardım xidmətlərinin göstərilməsi ilə bağlı normativ-hüquqi baza təkmilləşdirilir. | • Ödənişsiz hüquqi yardım göstərmək üçün milli potensialın artırılması məqsədilə həyata keçirilmiş tədbirlərin sayı;<br>• Ödənişsiz hüquqi yardım haqqında qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə milli hakimiyyət orqanları tərəfindən nəzərə alınmış Avropa Şurasının tövsiyələrinin faizi. |
| *Cinayət ədliyyəsi sisteminin dəstəklənməsi* | |
| • Cinayət ədliyyəsi sisteminin fəaliyyəti təhlil edilir, qanunvericilik və praktikanın Avropa Şurasının standartlarına uyğunlaşdırılmasına dair tövsiyələr verilir. | • Cinayət ədliyyəsi sisteminin fəaliyyəti ilə bağlı qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə milli hakimiyyət orqanları tərəfindən nəzərə alınmış Avropa Şurasının tövsiyələrinin faizi. |
| • Avropa Şurasının tövsiyələrinə uyğun olaraq Cinayət Məcəlləsinə və Cinayət Prosessual Məcəlləsinə dəyişikliklər daxil edilir. | • Cinayət Məcəlləsinə və Cinayət Prosessual Məcəlləsinə daxil edilmiş dəyişikliklərdə Avropa Şurasının standartlarının və tövsiyələrinin nəzərə alındığı müddəaların faizi. |
| *Toplaşmaq azadlığı* | |
| • İctimai toplantılara dair milli qanunvericilik İnsan hüquqları haqqında Avropa Konvensiyasının (İHAK) 11-ci maddəsinin tələblərinə uyğundur. | • İctimai toplantılar haqqında qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə milli hakimiyyət orqanları tərəfindən nəzərə alınmış Avropa Şurasının tövsiyələrinin faizi;<br>• İctimai toplantılar haqqında qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə Avropa Şurasının standartlarının və tövsiyələrinin nəzərə alındığı müddəaların faizi; |
| • Toplaşmaq azadlığına dair milli qanunvericiliyin Konvensiyaya uyğun müvafiq müddəaları praktikada səmərəli şəkildə tətbiq edilir. | • Toplaşmaq azadlığı haqqında milli qanunvericiliyin praktikada tətbiqinin səmərəliliyinin artırılması üçün həyata keçirilmiş tədbirlərin sayı. |

| *İfadə və media azadlığı* | |
|---|---|
| • Milli qanunvericilik və praktika İnsan hüquqları haqqında Avropa Konvensiyasının (İHAK) 10-cu maddəsinin və Avropa Şurasının digər standartlarının tələblərinə uyğundur. | • İfadə və məlumat azadlığına dair qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə milli hakimiyyət orqanları tərəfindən nəzərə alınmış Avropa Şurasının tövsiyələrinin faizi;<br>• İfadə və məlumat azadlığı haqqında qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə Avropa Şurasının standartlarının və tövsiyələrinin nəzərə alındığı müddəaların faizi;<br>• Milli praktikanın İHAK-ın 10-cu maddəsinin tələblərinə uyğunlaşdırılması üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Avropa Şurasının fəaliyyətlərində iştirak edərək azad, keyfiyyətli və təhlükəsiz jurnalistikanın əhəmiyyəti barədə öz məlumatlılıq səviyyəsinin artdığını nümayiş etdirən media subyektlərinin faizi. |
| • Medianın azadlığını və müstəqilliyini və jurnalistlərin təhlükəsizliyini təmin etmək üçün institusional potensial artırılır, o cümlədən özünütənzimləmə mexanizmləri təkmilləşdirilir. | • Medianın azadlığını və müstəqilliyini və jurnalistlərin təhlükəsizliyini təmin etmək üçün institusional potensialın artırılması, o cümlədən özünütənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində həyata keçirilmiş tədbirlərin sayı. |
| • Azərbaycan mediasında etik standartlar möhkəmləndirilir. | • Azərbaycan mediasında etik standartların möhkəmləndirilməsi üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Etik standartlar üzrə təlim keçilmiş media subyektlərinin sayı;<br>• Peşə etikası standartlarına uyğun olan media materiallarının/reportajlarının sayı. |

| | |
|---|---|
| *Məlumatların qorunması və süni intellekt* | |
| • Azərbaycan Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyanı və onun protokolunu (108+ saylı Konvensiya) imzalamağa və ratifikasiya etməyə yaxınlaşır.<br><br>• Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyaya (ETS № 108) uyğun olan qanunvericilik qəbul edilir. | • Məlumatların qorunması haqqnda qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə milli orqanlar tərəfindən nəzərə alınmış Avropa Şurasının tövsiyələrinin faizi;<br><br>• Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyanı və onun protokolunu (108+ saylı Konvensiya) imzalamaq və ratifikasiya etmək istiqamətində Azərbaycanın həyata keçirdiyi tədbirlər. |
| • Xüsusi müstəqil orqan yaradılır və fəaliyyət göstərir. | • Xüsusi müstəqil orqanın yaradılması ilə bağlı hüquqi və inzibati sənədlər; internet saytı, mətbuatdakı məlumatlar. |
| • Avropa Şurasının süni intellektin istifadəsinə dair rəhbər prinsipləri Azərbaycanda müvafiq qurumlar tərəfindən yayılır və həyata keçirilir. | • Tərcümə olunmuş Rəhbər prinsiplərin nəşr edilmiş və yayılmış nüsxələrinin sayı və onları almış təsisat, orqan və qurumların sayı. |
| • Məlumatların qorunmasının vacibliyi ilə bağlı maarifləndirmə kampaniyası yerli əhalinin mənafeyi naminə həyata keçirilir. | • Məlumatların qorunmasının əhəmiyyəti ilə bağlı maarifləndirici materialların sayı və onların yayılması hallarının sayı. |
| **1.2. Bərabərlik və insan ləyaqəti** | |
| *Gender bərabərliyinin təşviqi və qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə mübarizə* | |
| • Azərbaycanın hakimiyyət orqanları və geniş ictimaiyyət arasında gender bərabərliyi alətləri barədə məlumatlılıq səviyyəsi artırılır. | • Müvafiq maarifləndirici materialların sayı və onların yayılması hallarının sayı. |
| • Qadınlara qarşı zorakılıq və məişət zorakılığına qarşı mübarizə üçün qabaqlayıcı və qoruyucu standartlar və mexanizmlər tətbiq edilir. | • Qadınlara qarşı zorakılıq və məişət zorakılığına qarşı mübarizə üçün Avropa Şurasının standartlarına uyğun olaraq görülmüş qabaqlayıcı və qoruyuci tədbirlərin sayı. |
| • Ədalət mühakiməsi sistemində gender amili nəzərə alınır və nəticədə ədalət mühakiməsi sistemi gender bərabərliyi və ayrı-seçkiliyin yolverilməzliyi tələblərinə daha çox cavab vermiş olur. | • Ədalət mühakiməsi sistemində gender amilinin nəzərə alınması üçün görülmüş tədbirlərin sayı. |

| | |
|---|---|
| • Gender əsaslı ayrı-seçkilik, qadınlara qarşı zorakılıq və digər qadın hüquqlarının pozulması hallarını aradan qaldırmaq üçün hüquq-mühafizə orqanlarının, hüquqşünasların, o cümlədən hakimlərin, prokurorların və vəkillərin potensialı artır. | • AŞ-nin gender bərabərliyi standartlarının (İHAK, İstanbul Konvensiyası standartlarının) səmərəli tətbiqi üçün təlim keçilmiş hüquq-mühafizə orqanları əməkdaşlarının və hüquqşünasların sayı;<br>• Ədliyyə Akademiyası tərəfindən təlim keçilmiş hüquqşünasların sayı. |
| • Məişət zorakılığı qurbanlarının sosial müdafiəsi sahəsində qeyri-hökumət təşkilatlarının potensialı gücləndirilir. | • Məişət zorakılığı qurbanlarının sosial müdafiəsi sahəsində qeyri-hökumət təşkilatlarının potensialının gücləndirilməsi istiqamətində həyata keçirilmiş təşəbbüslərin sayı;<br>• Təlim keçilmiş QHT əməkdaşlarının sayı. |
| • Azərbaycan mediasında gender bərabərliyi perspektivi gücləndirilir. | • Azərbaycan mediasında gender bərabərliyi perspektivini gücləndirmək üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Azərbaycan mediasında gender bərabərliyi perspektivini əks etdirən media materiallarının sayı. |
| *Uşaq hüquqları* | |
| • Uşaqlara qarşı həm onlayn, həm də offlayn rejimində zorakılıq, cinsi istismar və cinsi sui-istifadə hallarının qarşısının alınması və uşaqların belə hallardan müdafiəsi üçün strategiyalar hazırlanır və tətbiq edilir. | • Uşaqlara qarşı həm onlayn, həm də offlayn rejimində zorakılıq, cinsi istismar və cinsi sui-istifadə hallarının qarşısının alınması və uşaqların belə hallardan müdafiəsi üçün həyata keçirilmiş tədbirlərin sayı. |
| • Uşaqlara qarşı cinsi istismar və sui-istifadə halları ilə mübarizə aparan, eləcə də bütövlükdə uşaqlara qarşı zorakılıqla mübarizə sahəsində çalışan peşəkarların potensialı artırılır. | • Uşaqlara qarşı cinsi istismar və sui-istifadə halları ilə mübarizə aparmaq üçün təlim alaraq potensalının artdığını nümayiş etdirən müvafiq peşəkarların sayı. |
| • Lansarote Konvensiyası barədə ictimaiyyətin məlumatlılıq səviyyəsi artırılır. | • Peşəkarlar, valideynlər və geniş ictimaiyyət arasında Lansarote Konvensiyası haqqında məlumatlılığın artırılması üçün görülmüş tədbirlərin və həyata keçirilmiş fəaliyyətlərin sayı;<br>• Lansarote Konvensiyası üzrə işlənib hazırlanmış, uyğunlaşdırılmış və milli dilə tərcümə edilmiş maarifləndirici materialların sayı; və onların yayıldığı halların sayı. |
| **1.3. Ayrı-seçkiliyə yol verilməməsi, müxtəliflik və inklüzivlik** | |
| *Ayrı-seçkiliyə yol verilməməsi* | |

| | |
|---|---|
| • Azərbaycanın cinayət, mülki və inzibati qanunvericiliyində irqçilik və ayrı-seçkiliklə mübarizə üzrə Avropa Şurası standartlarına uyğun dəyişikliklər edilir. | • İrqçilik və ayrı-seçkiliklə mübarizə ilə bağlı Parlament tərəfindən qəbul edilmək üçün təklif olunan cinayət, mülki və inzibati qanunvericilikdə Avropa Şurasının standartlarının və tövsiyələrinin nəzərə alındığı müddəaların faizi. |
| • İnsan hüquq və azadlıqlarının səmərəli müdafiəsi sahəsində Ombudsman Aparatı əməkdaşlarının potensialı artırılır. | • İnsan hüquq və azadlıqlarının səmərəli müdafiəsi sahəsində təlim keçilmiş Ombudsman Aparatı əməkdaşlarının sayı. |
| • Ayrı-seçkiliklə mübarizədə vətəndaş cəmiyyəti subyektlərinin rolu artır. | • Ayrı-seçkiliklə mübarizədə vətəndaş cəmiyyəti subyektlərinin rolunun artırılmasını dəstəkləyən təşəbbüslərin sayı;<br>• Ayrı-seçkiliklə mübarizədə vətəndaş cəmiyyəti və hökumət subyektləri arasında dialoq fəaliyyətlərinin müəyyən edilmiş sayı. |
| • Dövlət məmurları və geniş ictimaiyyət arasında tolerantlıq və ayrı-seçkiliyin yolverilməzliyi standartları haqqında məlumatlılıq səviyyəsi artırılır. | • Dövlət məmurları və geniş ictimaiyyət arasında tolerantlıq və ayrı-seçkiliyin yolverilməzliyi standartları haqqında məlumatlılıq səviyyəsinin artırılması məqsədilə həyata keçirilmiş fəaliyyətlərin sayı;<br>• Tolerantlıq və ayrı-seçkiliyin yolverilməzliyi standartlarına dair maarifləndirici materialların işlənib hazırlanması və yayılması hallarının sayı;<br>• Təlim keçilmiş dövlət məmurlarının sayı. |

| 1.4 Sosial hüquqlar | |
|---|---|
| *Sosial hüquqlar* | |
| • Azərbaycan ASX-nin əlavə müddəalarını qəbul edir. | • Azərbaycanın ASX-nin əlavə müddəalarını qəbul etməsini təmin etmək üçün həyata keçirdiyi tədbirlərin sayı. |
| • Avropa Sosial Xartiyasının müddəalarına uyğunsuzluq hallarının sayı azaldılır. | • Avropa Sosial Xartiyasının müddəalarına uyğunluq və uyğunsuzluq hallarının sayı azaldılır. |
| • Azərbaycanda YBASX-nin 15-ci maddəsinə uyğun olaraq əlilliyi olan şəxslərin hüquqları ilə bağlı vəziyyətin yaxşılaşdırılması istiqamətində müsbət addımlar atır.<br>• Əlilliyi olan şəxslərin hüquqları yenidən baxılmış Avropa Sosial Xartiyasının 15-ci maddəsinə uyğun olaraq təmin edilir. | • Yenidən baxılmış Avropa Sosial Xartiyasının 15-ci maddəsinə uyğun olaraq əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsi üçün həyata keçirilmiş tədbirlərin sayı. |
| • Qadınlar və kişilər arasında əməyin ödənişində gender əsaslı fərq azalır. | • Qadınlar və kişilər arasında əməyin ödənişində gender əsaslı fərqi azaltmaq üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• İqtisadi fəaliyyət növlərinə görə qadın və kişilərin aylıq nominal əmək haqqı arasındakı fərq. |
| • İşləyən qadınların müdafiəsi daha yaxşı təmin edilir.<br>• Həmkarlar ittifaqlarının hüquq və imkanları genişləndirilir və onlar YBASX-nin təmin etdiyi hüquqları barədə yetərincə məlumatlıdırlar. | • İşləyən qadınların müdafiəsini daha yaxşı təmin etmək üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Həmkarlar ittifaqlarının hüquq və imkanlarının genişləndirilməsi və yenidən baxılmış Avropa Sosial Xartiyasında nəzərdə tutulmuş hüquqları barədə məlumatlılığının artırılması üçün həyata keçirilmiş tədbirlərin sayı. |
| • Geniş ictimaiyyət və dövlət məmurları arasında sosial hüquqların təşviq edilməsi zərurəti barədə məlumatlılıq səviyyəsi artırılır. | • Geniş ictimaiyyət və dövlət məmurları arasında sosial hüquqların təşviq edilməsi zərurəti barədə məlumatlılıq səviyyəsinin artırılması üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Sosial hüquqların təşviqinin zəruriliyi ilə bağlı maarifləndirici materialların sayı və onların yayılması hallarının sayı;<br>• Sosial hüquqlara dair standartlar üzrə təlim keçilmiş dövlət məmurlarının sayı. |

| | |
|---|---|
| **1.5 Ətraf mühit və iqlim dəyişikliyi sahəsində əməkdaşlıq** | |
| Ətraf mühit və iqlim dəyişikliyi sahəsində əməkdaşlıq | |
| • Milli siyasət sənədləri ətraf mühitin mühafizəsi üzrə Avropa standartlarına və məqsədlərinə uyğundur. | • Ətraf mühit və iqlim dəyişikliyi ilə bağlı qəbul edilmiş/dəyişdirilmiş qanunvericilik, normativ-hüquqi akt və siyasət sənədlərində Avropa Şurasının standartlarının və tövsiyələrinin nəzərə alındığı müddəaların faizi. |
| • Hüquqşünasların, vətəndaş cəmiyyətinin və insan hüquqlarının müdafiəsi üzrə təsisatların insan hüquqlarının müdafiəsi alətləri vasitəsilə siyasətin ətraf mühitə təsirini təhlil etmək potensialı artırılır. | • Hüquqşünasların, vətəndaş cəmiyyətinin və insan hüquqlarının müdafiəsi üzrə təsisatların insan hüquqlarının müdafiəsi alətləri vasitəsilə siyasətin ətraf mühitə təsirini təhlil etmək porensialının artırılması üçün həyata keçirilmiş tədbirlərin sayı. |

| Nəticələr | Göstəricilər (indikatorlar) |
|---|---|
| **Qanunun aliliyi**<br>**Tematik nəticə:** Əməkdaşlıq prioritetlərinin yaxşı strukturlaşdırılmış və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi sayəsində Azərbaycanda qanunun aliliyinə əsaslanan təsisatlar; cinayətkarlığa qarşı mübarizə, vətəndaşların təhlükəsizliyi və müdafiəsi sahəsində Avropa Şurasının standartlarına uyğun olaraq milli səviyyədə irəliləyiş əldə edilir və (və ya) vəziyyət yaxşılaşır.<br>Bu komponent üzrə fəaliyyətlər Azərbaycan tərəfindən aşağıdakı Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə töhfə verir: DİM 3, hədəf 5[45], DİM 5[46]; DİM 8, hədəf 7[47], DİM 16, hədəflər 3, 4, 5, 6, və a[48]. | |
| **2.1. Qanunun aliliyinə əsaslanan təsisatlar** | |
| *Konstitusiya ədliyyəsi* | |
| • Venesiya Komissiyası konstitusiya ədliyyəsi sahəsində Azərbaycanın hakimiyyət orqanlarının sorğusu əsasında, o cümlədən Çevik reaksiya mexanizmi vasitəsilə rəylər təqdim edir. | • Azərbaycanın hakimiyyət orqanlarının sorğusu əsasında Venesiya Komissiyası tərəfindən təqdim edilmiş rəylərin/tövsiyələrin sayı. |
| *Ədalət mühakiməsinin müstəqilliyi və səmərəliliyi* | |
| • Pilot məhkəmələrin təcrübəsinin yayılması və ədalət mühakiməsi peşəkarlarının potensialının artırılması yolu ilə məhkəmə xidmətlərinin səmərəliliyi və keyfiyyəti daha da yüksəldilir. | • Ədalət mühakiməsi xidmətlərinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilmiş təşəbbüslərin sayı;<br>• Azərbaycanda pilot məhkəmələrin təcrübəsinin yayıldığı məhkəmələrin faizi;<br>• Ədalət mühakiməsi xidmətlərinin səmərəliliyini və keyfiyyətini təmin etmək |

[45] Məqsəd 3: Yaşından asılı olmayaraq hamının sağlam yaşayış tərzini təmin etmək və rifah halını yaxşılaşdırmaq. Məqsəd 3, hədəf 5: Psixoaktiv maddələrdən asılılığın, o cümlədən narkotik vasitələrdən və alkoqoldan sui-istifadənin qarşısının alınması və profilaktika və müalicəsinin təkmilləşdirilməsi.

[46] Məqsəd 5: Gender bərabərliyinə nail olmaq, bütün qadın və qızların hüquq və imkanlarını genişləndirmək. Məqsəd 5, hədəf 1: Hər yerdə bütün qadınlara və qızlara qarşı ayrı-seçkiliyin bütün formalarına son qoymaq. Məqsəd 5, hədəf 2: İnsan alveri və cinsi və digər istismar növləri daxil olmaqla, bütün qadınlara və qızlara qarşı ictimai və özəl sahələrdə zorakılığın bütün formalarını aradan qaldırmaq.

[47] Məqsəd 8: Hamının ardıcıl, inklüziv və dayanıqlı iqtisadi yüksəlişinə, tam və səmərəli məşğulluğuna və layiqli işlə təmin olunmasına dəstək vermək. Məqsəd 8, hədəf 7: Məcburi əməyin kökünün kəsilməsi, müasir köləliyə və insan alverinə son qoyulması və uşaq əməyinin ən pis formalarının, o cümlədən uşaqların əsgər qismində cəlbinin və istifadəsinin qadağan olunmasının və ləğv edilməsinin təmin edilməsi və 2025-ci ilə qədər uşaq əməyinin bütün formalarına son qoyulması üçün təcili və səmərəli tədbirlər görmək..

[48] Məqsəd 16: Davamlı inkişaf naminə sülhsevər və açıq cəmiyyətin qurulmasına dəstək vermək, hamının məhkəmə sisteminə çıxışını təmin etmək və bütün səviyyələrdə səmərəli, hesabatlı və geniş iştiraka əsaslanan təsisatlar yaratmaq. Məqsəd 16, hədəf 3: Milli və beynəlxalq səviyyədə qanunun aliliyini təşviq etmək və hamı üçün ədalət mühakiməsinə bərabər çıxışı təmin etmək. Məqsəd 16, hədəf 4: 2030-cu ilədək qanunsuz maliyyə və silah axınlarını əhəmiyyətli dərəcədə azaltmaq, oğurlanmış aktivlərin tapılması və geri qaytarılması üçün səyləri gücləndirmək və mütəşəkkil cinayətkarlığın bütün formaları ilə mübarizə aparmaq. Məqsəd 16, hədəf 5: Korrupsiya və rüşvətxorluğun bütün formalarını əhəmiyyətli dərəcədə azaltmaq. Məqsəd 16, hədəf 6: Bütün səviyyələrdə səmərəli, hesabatlı və şəffaf təsisatlar yaratmaq. Məqsəd 16, hədəf a: Bütün səviyyələrdə və xüsusən inkişaf etməkdə olan ölkələrdə zorakılığın qarşısını almaq və terrorizm və cinayətkarlıqla mübarizə aparmaq üçün müvafiq milli təsisatları gücləndirmək, o cümlədən beynəlxalq əməkdaşlıq vasitəsilə möhkəmləndirmək.

| | |
|---|---|
| | məqsədi ilə təlim keçilmiş ədalət mühakiməsi peşəkarlarının faizi;<br>• CEPEJ-in Əsas fəaliyyət göstəriciləri (KPI) və informasiya paneli;<br>• Məhkəmələr tərəfindən istifadə edilən məhkəmələrin səmərəliliyi üzrə CEPEJ göstəricilərinin və alətlərinin sayı. |
| • Ədliyyə Akademiyasının hakimlər üçün təlim (ilkin təlim və xidməti fəaliyyət zamanı təlim) metodologiyası və kurikulumları Avropa Şurasının standartlarına və qabaqcıl təcrübəyə uyğun olaraq daha da təkmilləşdirilir. | • Avropa Şurasının yardımı ilə təkmilləşdirilmiş təlim metodologiyalarının və kurikulumların sayı;<br>• Ədliyyə Akademiyasının kurikulumlarına daxil edilmiş insan hüquqları modullarının sayı. |
| • Məhkəmə qərarlarının icrası sistemi təkmilləşdirilir. | • Məhkəmə qərarlarının icrasının təkmilləşdirilməsi üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Məhkəmə qərarlarının icrası sisteminə inteqrasiya olunmuş İKT alətlərinin sayı;<br>• Məhkəmə qərarlarının icrası sistemini Avropa standartlarına uyğun olaraq tənzimləyən tədbirlərin faizi. |
| • Qadınların və əlilliyi olan insanlar, məişət zorakılığı qurbanları və s. kimi həssas vəziyyətdə olan qrupların ədalət mühakiməsinə çıxış imkanları yaxşılaşdırılır. | • Qadınların və həssas vəziyyətdə olan qrupların ədalət mühakiməsinə çıxış imkanları ilə bağlı qəbul edilmiş/dəyişdirilmiş qanunvericilik, normativ-hüquqi akt və siyasət sənədlərində Avropa Şurasının standartlarının və tövsiyələrinin nəzərə alındığı müddəaların faizi;<br>• Qadınların və əlilliyi olan insanlar, məişət zorakılığı qurbanları və s. kimi həssas vəziyyətdə olan qrupların ədalət mühakiməsinə çıxış imkanlarının yaxşılaşdırılması üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Hüquq bərabərliyinin təmini sahəsində fəaliyyət göstərən qurumlar və QHT-lər arasında hüquqi müdafiə vasitələri mexanizminin vasitəsilə şikayətlərin həllinə dair qarşılıqlı təcrübə mübadiləsinin və əməkdaşlıq mexanizmlərinin sayı. |
| • Məhkəmə sistemi üçün kommunikasiya strategiyası səlahiyyətli orqanlar tərəfindən təsdiq edilir və həyata keçirilir. | • Məhkəmə sistemi üçün kommunikasiya strategiyasının təsdiqi və tətbiqi məqsədilə həyata keçirilmiş tədbirlərin sayı. |

| | |
|---|---|
| **2.2. Cinayətkarlığa qarşı mübarizə, vətəndaşların təhlükəsizliyi və müdafiəsi** | |
| *Korrupsiyaya və çirkli pulların yuyulmasına qarşı mübarizə* | |
| • İqtisadi cinayətkarlığa qarşı mübarizə və onun qarşısının alınması üçün qanunvericilik bazası və institusional potensial təkmilləşdirilir. | • İqtisadi cinayətlərlə mübarizə sahəsində qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə Avropa Şurasının standartlarının və tövsiyələrinin nəzərə alındığı müddəaların faizi;<br>• İqtisadi cinayətlərə qarşı mübarizə və onların qarşısının alınması sahəsində qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə nəzərə alınmış Avropa Şurasının tövsiyələrinin faizi;<br>• İqtisadi cinayətlərlə mübarizə və onların qarşısının alınması məqsədilə institusional potensialın təkmilləşdirilməsi üçün həyata keçirilmiş təşəbbüslərin sayı. |
| • Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə beynəlxalq standartların tətbiqinin səmərəliliyi artır. | • Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə beynəlxalq standartların tətbiqinin səmərəliliyinin artırılması üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Milli hakimiyyət orqanları tərəfindən yerinə yetirilmiş MONEYVAL-ın tövsiyələrinin və COP 198-in rəylərinin faizi. |
| • Korrupsiyaya qarşı mübarizə siyasətinin səmərəli şəkildə həyata keçirilməsi, məhkəmə orqanlarının müstəqilliyinin gücləndirilməsi, aktivlərinin açıqlanması rejimi və dövlət məmurlarının dürüstlüyü sayəsində korrupsiyanın qarşısının alınması GRECO-nun tövsiyələrinə uyğun olaraq gücləndirilir. | • GRECO-nun tövsiyələrinə uyğun olaraq korrupsiyanın qarşısının alınması işinin gücləndirilməsi üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Milli hakimiyyət orqanları tərəfindən yerinə yetirilmiş GRECO-nun tövsiyələrinin faizi. |
| • Dövlət satınalma prosedurlarının şəffaflığı daha da gücləndirilir. | • Dövlət satınalmaları prosedurlarının şəffaflığının artırılması üçün həyata keçirilmiş tədbirlərin sayı. |
| • İqtisadi cinayətlərlə bağlı aparılan istintaq və cinayət təqibinin keyfiyyəti və kəmiyyəti artır. | • İqtisadi cinayətlərlə bağlı istintaq və cinayət təqibinin keyfiyyətinin və kəmiyyətinin artırılması üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• İqtisadi cinayətlərlə bağlı istintaq və cinayət təqibinin sayı; |

| | |
|---|---|
| | • İqtisadi cinayətlərə, xüsusən də korrupsiya və çirkli pulların yuyulmasına görə ittiham hökmlərinin sayı. |
| • Korrupsiyaya və çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə (ÇPY/TM) qarşı mübarizə üzrə səlahiyyətli qurumların əməli fəaliyyətinin səmərəliliyi və muxtariyyəti təmin edilir. | • Korrupsiyaya və ÇPY/TM-ə qarşı mübarizə üzrə səlahiyyətli qurumların əməli fəaliyyətinin səmərəliliyini və muxtariyyətini təmin etmək üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Müvafiq qurumların muxtariyyəti və əməli fəaliyyətinin səmərəliliyi ilə bağlı MONEYVAL və GRECO-nun yerinə yetirilmiş rəy və tövsiyələrinin sayı. |
| • İqtisadi cinayətlərin istintaqı və təqibi üzrə peşəkar bacarıqlar artırılır. | • İqtisadi cinayətlərin istintaqı və təqibi üzrə peşəkar bacarıqların artırılması üçün həyata keçirilmiş tədbirlərin sayı. |
| • Aktivlərin geri qaytarılması sahəsində qanunverici baza təkmilləşdirilir və səmərəlilik artırılır. | • Aktivlərin geri qaytarılması sahəsində qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə Avropa Şurasının standartlarının və tövsiyələrinin nəzərə alındığı müddəaların faizi;<br>• Aktivlərin geri qaytarılması sahəsində qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə milli hakimiyyət orqanları tərəfindən nəzərə alınmış Avropa Şurasının tövsiyələrinin faizi;<br>• Aktivlərin geri qaytarılmasının səmərəliliyini artırmaq üçün həyata keçirilmiş təşəbbüslərin sayı. |
| *Kibercinayətkarlıq* | |
| • Kibercinayətkarlıqla bağlı ölkədaxili qanunvericilik Budapeşt Konvensiyasına uyğundur. | • Kibercinayətkarlıqla mübarizə sahəsində qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə Avropa Şurasının standartlarının və tövsiyələrinin nəzərə alındığı müddəaların faizi;<br>• Kibercinayətkarlıq sahəsində qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə milli hakimiyyət orqanları tərəfindən nəzərə alınmış Avropa Şurasının tövsiyələrinin faizi. |
| • Kibercinayətkarlıqla mübarizə üzrə milli strategiya qəbul edilir və həyata keçirilir. | • Kibercinayətkarlıqla mübarizə üzrə milli strategiyanın qəbul edilməsini və həyata keçirilməsini təmin etmək üçün görülmüş tədbirlərin sayı; |

| | |
|---|---|
| • Kibercinayətkarlıqla mübarizədə qurumlararası və dövlət-özəl sektor əməkdaşlığı genişləndirilir. | • Kibercinayətkarlıqla mübarizə sahəsində qurumlərarası və dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Kibercinayətkarlıqla mübarizə sahəsində qurumlərarası və dövlət-özəl sektor əməkdaşlığı nümunələrinin sayı. |
| • Müstəntiqlərin, prokurorların və hakimlərin kibercinayətkarlıqla mübarizə potensialı gücləndirilir. | • Kibercinayətkarlıqla mübarizə potensiallarının artdığını nümayiş etdirən təlim keçmiş müstəntiqlərin, prokurorların və hakimlərin faizi. |
| *Cəzaçəkmə müəssisələri və polis orqanları* | |
| • Avropa Şurasının texniki dəstəyi ilə penitensiar müəssisələrin idarə edilməsi və məhbusların sağlamlığının qorunması üzrə Fəaliyyət Planları həyata keçirilir. | • Penitensiar müəssisənin idarə edilməsi və məhbusların sağlamlığının qorunması üzrə Fəaliyyət Planlarının həyata keçirilməsinə dəstək məqsədilə görülmüş tədbirlərin sayı. |
| • Yeni Etika Kodeksi Azərbaycanın hakimiyyət orqanları tərəfindən təsdiqlənir və bütün ölkə üzrə həbsxana əməkdaşlarının diqqətinə çatdırılır. | • Yeni Etika Kodeksinin Azərbaycanın hakimiyyət orqanları tərəfindən təsdiqlənməsi və bütün ölkə üzrə həbsxana əməkdaşlarının diqqətinə çatdırılması üçün həyata keçirilmiş təşəbbüslərin sayı. |
| • Həbsxana əməkdaşlarının cəzaçəkmə müəssisələrində səhiyyə xidməti və həbsxananın idarə olunması ilə bağlı bilik və bacarıqları artırılır. | • Cəzaçəkmə müəssisələrinin idarə olunması və orada səhiyyə xidmətləri ilə bağlı təlim alaraq potensiallarının artdığını nümayiş etdirən həbsxana əməkdaşlarının sayı. |
| • Məhkumların cəmiyyətə təkrar inteqrasiyası sistemi peşə hazırlığı, biznes mentorluğu, hüquqi və psixoloji dəstək vasitəsilə dəstəklənir. | • Məhkumların reinteqrasiyası sistemini dəstəkləmək üçün həyata keçirilmiş tədbirlərin sayı;<br>• Həyata keçirilmiş reinteqrasiya proqramlarının sayı. |
| • Polis orqanlarında və həbsxanalarda baş verən işgəncə və pis rəftarın digər formalarının qarşısının alınması və belə hallardan müdafiə sistemi və prosedurları təkmilləşdirilir. | • Polis orqanlarında və penitensiar müəssisələrdə işgəncələrin və pis rəftarın digər formalarının qarşısının alınması və belə hallardan müdafiə sisteminin və prosedurlarının təkmilləşdirilməsi üçün həyata keçirilmiş tədbirlərin sayı. |
| *İnsan alveri* | |
| • İnsan alveri sahəsində qanunverici və prosessual baza Avropa Şurasının standartlarına uyğun olaraq təkmilləşdirilir. | • İnsan alveri sahəsində qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə Avropa Şurasının standartlarının və tövsiyələrinin nəzərə alındığı müddəaların faizi; |

| | |
|---|---|
| | • İnsan alveri sahəsində qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə milli hakimiyyət orqanları tərəfindən nəzərə alınmış Avropa Şurasının tövsiyələrinin faizi;<br>• İnsan alveri sahəsində prosessual bazanın təkmilləşdirilməsi istiqamətində həyata keçirilmiş təşəbbüslərin sayı. |
| • İnsan alveri ilə bağlı hərtərəfli statistik sistem yaradılır. | • İnsan alveri ilə bağlı hərtərəfli statistik sistemin yaradılması üçün həyata keçirilmiş tədbirlərin sayı. |
| • "İnsan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın səmərəli icrasının təmin edilməsinə köməklik göstərilir. | • İnsan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planının səmərəli icrasına köməklik göstərmək məqsədilə həyata keçirilmiş tədbirlərin sayı. |
| • İnsan alveri problemi və səmərəli qabaqlayıcı mexanizmlərlə bağlı geniş ictimaiyyət və dövlət məmurları arasında məlumatlılıq səviyyəsi artırılır. | • İnsan alveri problemi və səmərəli qabaqlayıcı mexanizmlərlə bağlı geniş ictimaiyyət və dövlət məmurları arasında məlumatlılıq səviyyəsinin artırılması məqsədilə həyata keçirilmiş tədbirlərin sayı;<br>• Təhsil keçilmiş dövlət məmurlarının sayı;<br>• İnsan alveri problemi ilə bağlı maarifləndirici materialların sayı və onların yayılması hallarının sayı. |
| *Narkomaniya və qanunsuz narkotik ticarəti* | |
| • Azərbaycanda narkotiklərlə əlaqədar siyasət beynəlxalq standartlara uyğun olaraq təkmilləşdirilir. . | • Narkomaniya və qanunsuz narkotik ticarəti sahəsində qəbul edilmiş/dəyişdirilmiş siyasət sənədlərində Avropa Şurasının standartlarının və tövsiyələrinin nəzərə alındığı müddəaların faizi;<br>• İnsan alveri sahəsində qəbul edilmiş/dəyişdirilmiş siyasət sənədlərində milli hakimiyyət orqanları tərəfindən nəzərə alınmış Avropa Şurasının tövsiyələrinin faizi. |
| • Narkotiklərə nəzarət sahəsində milli strategiya işlənib hazırlanır və tətbiq edilir. | • Narkotiklərə nəzarət sahəsində milli strategiyanın işlənib hazırlanmasını və tətbiqini təmin etmək üçün həyata keçirilmiş tədbirlərin sayı. |

| **Demokratiya**<br>**Tematik nəticə:** Əməkdaşlıq prioritetlərinin yaxşı strukturlaşdırılmış və əlaqələndirilmiş şəkildə həyata keçirilməsi sayəsində Azərbaycanda demokratik idarəetmə və demokratik iştirakçılıq sahələrində Avropa Şurasının standartlarına uyğun olaraq milli səviyyədə irəliləyiş əldə edilir və (və ya) vəziyyət yaxşılaşır. | |
|---|---|
| Bu komponent üzrə fəaliyyətlər Azərbaycan tərəfindən aşağıdakı Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə töhfə verir: DİM 4, hədəf 7[49], DİM 16, hədəflər 6 və 7[50]. | |
| **Nəticələr** | **Göstəricilər (indikatorlar)** |
| **3.1. Demokratik idarəetmə** | |
| *Seçki məsələləri* | |
| • Azərbaycanın seçki qanunvericiliyi Avropa Şurasının standartlarına uyğundur. | • Avropa Şurasının, o cümlədən Venesiya Komissiyasının seçki qanunvericiliyinə dair əsas tövsiyələri yerinə yetirilir;<br>• Yerinə yetirilmiş digər tövsiyələrin faizi;<br>• Bu tövsiyələrə uyğun qanunvericilik Avropa Şurasının standartlarına uyğun olaraq keçirilmiş seçkilər sayəsində tətbiq edilir. |
| **3.2. Demokratik iştirakçılıq** | |
| *Vətəndaş cəmiyyəti* | |
| • QHT-lərlə bağlı ölkədaxili qanunvericilik, o cümlədən qeydiyyat prosedurları Avropa Şurasının standartlarına uyğundur. | • Bu sahədə qəbul edilmiş/dəyişdirilmiş qanunvericilikdə Avropa Şurasının standartlarının və tövsiyələrinin nəzərə alındığı müddəaların faizi; |

[49] Məqsəd 4: Hamı üçün İnklüziv və bərabər keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsil almaq imkanlarını dəstəkləmək. Məqsəd 4, hədəf 7: 2030-cu ilədək bütün təhsil alanların dayanıqlı inkişafa yardım üçün zəruri olan bilik və bacarıqlara yiyələnmələrini təmin etmək, o cümlədən buna dayanıqlı həyat tərzi, insan hüquqları, gender bərabərliyi məsələlərinin tədrisi, sülh və qeyri-zorakılıq mədəniyyətinin, qlobal vətəndaşlığın təşviqi və mədəni müxtəlifliyin dəyərinin dərki vasitəsilə nail olmaq.

[50] Məqsəd 16: Davamlı inkişaf naminə sülhsevər və açıq cəmiyyətin qurulmasına dəstək vermək, hamının məhkəmə sisteminə çıxışını təmin etmək və bütün səviyyələrdə səmərəli, hesabatlı və geniş iştiraka əsaslanan təsisatlar yaratmaq. Məqsəd 16, hədəf 6: Bütün səviyyələrdə səmərəli, hesabatlı və şəffaf təsisatlar yaratmaq. Məqsəd 16, hədəf 7: Cəmiyyətin bütün təbəqələrinin iştirakı ilə bütün səviyyələrdə nümayəndəli orqanların məsuliyyətli qərarlar qəbul etməsini təmin etmək.

| | |
|---|---|
| *Demokratiya üçün təhsil* | |
| • Pedaqoji və metodiki dəstək vasitəsilə formal və qeyri-formal təhsilverənlərin bacarıqları inkişaf etdirilir. | • Pedaqoji və metodiki dəstək vasitəsilə formal və qeyri-formal təhsilverənlərin bacarıqlarının inkişafı üçün həyata keçirilmiş tədbirlərin sayı;<br><br>• Pedaqoji və metodiki dəstək aldıqdan sonra bilgilərinin artdığını nümayiş etdirən formal və qeyri-formal təhsilverənlərin faizi. |
| • Azərbaycanda qadınlara qarşı zorakılıqla mübarizədə insan hüquqlarına əsaslanan yanaşma daha geniş tətbiq olunur. | • Azərbaycanda qadınlara qarşı zorakılıqla mübarizədə insan hüquqlarına əsaslanan yanaşmanın daha geniş tətbiqini təmin etmək üçün həyata keçirilmiş tədbirlərin sayı. |
| *Gənclər demokratiya uğrunda* | |
| • Gənc liderlərin, fəalların və gənclər təşkilatlarının qərarların qəbulu proseslərində iştirak imkanları artırılır. | • Gənc liderlərin, fəalların və gənclər təşkilatlarının qərarların qəbulu proseslərində iştirak imkanlarının artırılması üçün həyata keçirilmiş tədbirlərin sayı;<br><br>• Qərarların qəbulu proseslərində iştirak etmək üçün təlim almış gənc liderlərin və fəalların sayı. |
| • Gənclərin hüquq və imkanlarının genişləndirilməsi üçün mədəniyyətlərarası təhsil və həmyaşıdların təhsili imkanları artırılır; | • Gənclərin hüquq və imkanlarının genişləndirilməsi üçün mədəniyyətlərarası təhsil və həmyaşıdların təhsili imkanlarını artırmaq məqsədilə həyata keçirilmiş tədbirlərin sayı. |
| • Təcrübədə gənclərin öz məktəblərində qərarların qəbulu proseslərində və icmalarına təsir edən layihələrdə iştirak etmək imkanları təmin edilir. | • Öz məktəblərində qərarların qəbulu proseslərində və icmalarına təsir edən layihələrdə iştirak etmək imkanlarından bəhrələnən gənclərin sayı. |
| *Mədəniyyətlərarası dialoq* | |
| • Mədəniyyətlərarası dialoq sahəsində Avropa Şurasının dəyərləri və qabaqcıl təcrübələri yayılır və bu həm də Bakı Prosesində iştirak vasitəsilə baş verir. | • Mədəniyyətlərarası dialoq sahəsində Avropa Şurasının dəyərlərinin və qabaqcıl təcrübələrinin yayılması üçün həyata keçirilmiş təşəbbüslərin sayı. |

## ƏLAVƏ II. RİSKLƏRİN SİYAHISI

| Risklərin təsviri | Riskləri azaldan tədbirlər |
|---|---|
| **Siyasi amillərlə əlaqədar risklər** | |
| Ən yaxşı ssenari – islahatların miqyasının və sürətinin artırılması<br>• Azərbaycan hakimiyyəti islahatlar üçün siyasi iradə nümayiş etdirir və Avropa Şurası ilə fəal əməkdaşlıq edir;<br>• İslahatlara münasibətdə geniş çeşidli siyasi spektrdə konsensus mövcuddur;<br>• İslahatlar səmərəli şəkildə həyata keçirilir və vətəndaşlar tərəfindən geniş şəkildə dəstəklənir. | Tədbirlərin əhatə dairəsinin mümkün genişləndirilməsi ilə bağlı müzakirələr aparılır və nəticədə:<br>Hədəf qruplarının (vətəndaşlar da daxil olmaqla) Avropa Şurasının islahatlar prosesində iştirakı barədə məlumatlılığının səviyyəsi artır;<br>Xüsusilə Avropa Şurasının standartlarını təşviq edən tərəfdaşlar üçün potensialın artırılmasına yönələn fəaliyyətlər genişləndirilir;<br>Azərbaycan təsisatlarına və digər tərəfdaşlara daha güclü dəstək verilir. |
| Əsas ssenari – davamlı siyasi sabitliyin olması<br>• İslahatların qismən həyata keçirilməsi və cəmiyyətin müəyyən qruplarının və müəyyən siyasi dairələrin onların həyata keçirilməsinin əleyhinə olması;<br>• Aparılan islahatlara siyasi qüvvələrin əhəmiyyətli təsiri;<br>• Vətəndaşların Avropa Şurasının islahatlar prosesində iştirakı barədə məlumatlılıq səviyyəsinin aşağı olması. . | Qanunverici və normativ-hüquqi bazanın Avropa Şurasının standartlarına uyğunluğunun təmin edilməsimə milli hakimiyyət orqanları dəstək verir;<br>Bu standartların tətbiqi üçün müvafiq qurumların potensialı artırılır, əhalinin bu standartlar barədə məlumatlılıq səviyyəsi artır;<br>Əhali arasında Təşkilatın standartlarını təşviq edən institusional tərəfdaşlar barədə məlumatlılıq səviyyəsi artır;<br>Hakimiyyətin müxtəlif sektorlarında və vətəndaş cəmiyyətində islahatların tərəfdarları arasında təmaslara və əməkdaşlığa şərait yaradılır;<br>Standartların tətbiqi ilə bağlı hakimiyyət orqanları ilə vətəndaş cəmiyyəti arasında dialoq təşviq edilir. |

| Layihənin/proqramın həyata keçirilməsi ilə bağlı risklər | |
|---|---|
| Fəaliyyət Planının həyata keçirilməsi üçün kifayət qədər maliyyə vəsaitinin olmaması. | Ölkə daxilində və xaricdəki ofislərdən resursların səfərbər edilməsi səyləri koordinasiyalı şəkildə artırılır;<br>Bir-biri ilə güclü qaşılıqlı sinerji potensialı olan proqramlar üçün maliyyə ayrılır, mövcud resursların bölgüsü ən səmərəli şəkildə planlaşdırılır;<br>Ölkədə əvvəlki və hazırkı fəaliyyətlərin nəticələri barədə məlumarların çatdırılması işi gücləndirilir və təkmilləşdirilir;<br>Donorları cəlb etmək və layihədə saxlamaq üçün layihənin işlənib hazırlanmasını, icrasını, nəticə yönümlü monitorinqini və hesabat vermə praktikasını təkmilləşdirmək məqsədilə tərəfdaşların və donorların rəylərinin nəzərə alınması davam etdirilir. |
| Təkrarlanmaların qarşısını almaq və proqramlar arasında sinerjini təmin etmək üçün beynəlxalq tərəfdaşlarla səmərəli koordinasiya mexanizmlərinin olmaması. | Ölkədəki digər beynəlxalq donorların fəaliyyəti monitorinq edilir və ölkədə Avropa Şurasının iştirak etdiyi fəaliyyətlərə aidiyyəti olan sahələrdə donorların koordinasiya xarakterli görüşlərində fəal iştirak həyata keçirilir;<br>Layihənin ümumi ismarıcını gücləndirmək, iqtisadi səmərəliliyə nail olmaq və islahatların qəbul edilmə səviyyəsini artırmaq üçün artıq planların koordinasiya edildiyi beynəlxalq tərəfdaşlarla müştərək fəaliyyətlərin sayı artırılır;<br>Peşəkar qrupları, beynəlxalq tərəfdaşları və geniş ictimaiyyəti Təşkilatın və donorların islahatlara töhfəsi haqqında məlumatlandırmaq üçün əlaqələrin əhatə dairəsi və ardıcıllığı artırılır;<br>Əlaqələri gücləndirmək üçün Avropa Şurasının Bakı ofisinin təmas və təbliğat-təşviqat imkanlarından istifadə davam etdirilir;<br>Digər beynəlxalq tərəfdaşlarla birlikdə layihənin ismarıclarının çatdırılması təmin edilir (məsələn, Aİ ilə tərəfdaşlıq vasitəsilə). |
| Gender stereotiplərinin layihənin həyata keçirilməsinə mənfi təsir göstərməsi;<br>Gender amilinin nəzərə alınması, o cümlədən gender məsələlərinin təhlilinin aparılması ilə bağlı yerli tərəfdaşlar arasında bilik və bacarıqların olmaması. | İstifadə edilən dilin gender baxımından münasib olması üçün ünsiyyətdə (kommunikasiyalarda) və layihə materiallarının qiymətləndirilməsində gender amili nəzərə alınır;<br>Məlumalılığın artırılması (maarifləndirmə) kampaniyaları aparılır;<br>Müvafiq məlumatları toplamaq, təhlil etmək və istifadə etmək üçün milli tərəfdaşların potensialının artırılmasına dəstək verilir, maraqlı tərəflər arasında gender bərabərliyi |

| | |
|---|---|
| | və gender amilinin nəzərə alınması üzrə maarifləndirmə tədbirləri həyata keçirilir, gender bərabərliyi və qadın hüquqları sahəsində fəaliyyət göstərən QHT-lərlə əməkdaşlıq edilir, insan hüquqları müdafiəçilərinin, xüsusilə qadınların potensialı gücləndirilir. |
| Fəaliyyət Planının müddəti ərzində hökumət və qeyri-hökumət qurumlarının əməkdaşları və əsas tərəfdaşlar arasında kadr axıcılığının yüksək olması və nəticədə əldə edilmiş bilik və bacarıqların və əməkdaşlıq əlaqələrinin itirilməsi. | Avropa Şurasının Bakı ofisinin milli kadr dəyişikliklərini yaxından izləməsinə və əlaqələri dərhal bərpa etməsnə güvənmə davam etdirillir;<br>Tərəfdaş qurumlar üçün uzunmüddətli institusional yaddaşın dəstəklənməsi prosedurları həyata keçirilir və tərəfdaş qurumlarda bilik və bacarıqların toplanmasının davamlılığı təmin edilir.<br>Benefisiarlarda layihəyə inam formalaşdırılır və layihə fəaliyyətlərinin davamlılığı, məsuliyyətliliyi və fəaliyyətlərə rəhbərlik etmə təmin edirlir. |
| **Əlaqələrlə/ünsiyyətlə bağlı risklər** | |
| Beynəlxalq və milli tərəfdaşlar, geniş ictimaiyyət və qeyri-hökumət təşkilatları arasında Avropa Şurasının rolu, mandatı, islahatlara töhfəsi və iş metodları barədə bigilərin olmaması;<br>Hədəf qrupları arasında müvafiq sahələrdə aparılan islahatların vətəndaşların həyatının keyfiyyətinə faydaları barədə anlayışın olmaması. | Azərbaycan ictimaiyyətinə layihə ilə bağlı aydın və mütəmadi məlumatlar ilk növbədə Avropa Şurasının Bakı ofisi vasitəsilə çatdırılır;<br>Lazımi nəticələrə və təsirə nail olunmasına dəstəyi təmin etmək üçün hər bir proqramın öz əlaqə (kommunikasiya) strategiyası/planı hazırlanır;<br>Peşəkarlar və ictimaiyyət arasında Təşkilatın islahatlara töhfəsi barədə məlumatlılıq artırılır;<br>İnformasiya mübadiləsinin sürəti artırılır;<br>Mümkün olan ən geniş əhatəliliyi təmin etmək üçün yerli dildə əlaqələr/ünsiyyət artırılır;<br>Nəticə yönümlü yanaşma və ən aşağı səviyyələrlə əlaqələrə əsaslanan yanaşma vətəndaşların gündəlik həyatında dəyişikliklərin baş verməsinə Avropa Şurasının verdiyi töhfə barədə aydın ismarıcların müxtəlif hədəf qruplarına çardırılmasına şərait yaradır. |
| **Sağlamlıq vəziyyəti ilə bağlı risklər** | |
| Sosial məsafə saxlama qaydaları, toplantılara və beynəlxalq və yerli səyahətlərə məhdudiyyətlər səbəbindən yerlərdə və (və ya) ofislərdə tədbirlərin keçirilməsinin qeyri-mümkün olması; | Məhdudiyyətlər aradan qaldırılana qədər məsafədən (distant qaydada) həyata keçirilə bilən fəaliyyətlərə diqqət yetirilir;<br>Sağlamlıq vəziyyəti və səyahət qaydaları ciddi şəkildə izlənilir;<br>Görüşlərin və təlimlərin keçirilməsinin alternativ üsullarından (videokonfrans, vebinarlar) istifadə edilir. |

| | |
|---|---|
| Misli görünməmiş vəziyyətlə əlaqədar milli tərəfdaşların prioritetlərində dəyişikliklərin baş verməsi. | Təşkilatın əsas dəyərlərinə diqqət yetirməklə benefisiarların tələbatlarını ən yaxşı şəkildə qarşılamaq üçün milli hakimiyyət orqanları ilə sıx əlaqə saxlanılır və dəyişən tələbatlara reaksiya göstərilir;<br>İnsan hüquqlarının, qanunun aliliyinin və demokratiyanın müdafiəsinin hakimiyyət orqanlarının gündəliyində qalmasını təmin etmək üçün Avropa Şurasının standartları və konkret tövsiyələri tərcümə edilir və yayılır. |

**ƏLAVƏ III. MALİYYƏ CƏDVƏLİ**
(Bütün məbləğlər avro ilə göstərilmişdir)

| Sektorlar | Nəzərdə tutulan büdcə |
|---|---|
| **İnsan hüquqları** | **4,563,471** |
| 1. HAK-ın səmərəli tətbiqi | 570,000 |
| 2. İnsan hüquqlarının və insan ləyaqətinin təşviqi | 2,493,471 |
| 3. Sosial hüquqlar | 1,500,000 |
| **Qanunun aliliyi** | **3,328,842** |
| 1. Qanunun aliliyinə əsaslanan təsisatlar | 1,275,165 |
| 2. Cinayətkarlığa qarşı mübarizə, vətəndaşların təhlükəsizliyi və müdafiəsi | 2,053,677 |
| **Demokratiya** | **1,300,000** |
| 1. Demokratik idarəetmə | 200,000 |
| 2. Demokratik iştirakçılıq | 1,100,000 |
| **IV - Koordinasiya, idarəetmə və ehtiyatlar** | **413,438** |
| Koordinasiya - Ehtiyatlar - Çevik cavab mexanizmi | 113,438 |
| Ümumi idarəetmə xərcləri | 300,000 |
| Ayrılmayan maliyyə | |
| **CƏMİ** | **9,605,751** |

* Aİ/AŞ-nin birgə regional proqramları daxil olmaqla

# ƏLAVƏ IV. MƏNBƏLƏR/MÜVAFİQ SƏNƏDLƏR

## Avropa Şurasının sənədləri

1. Azərbaycanla texniki əməkdaşlıq

   *Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planı (2018-2021)*
   *Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planının (2018-2021-ci illər) icrasının gedişinə dair hesabat*

2. Avropa İnsan Hüquqları Məhkəməsi

   AİHM-in Azərbaycanla bağlı presedent hüququ
   Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrası Departamentinin *Azərbaycanla bağlı məlumat bülleteni*
   Konkret olaraq pis rəftar, tutma və məhkəməyəqədər həbs (o cümlədən qeyri-qanuni məqsədlər üçün bu cür tədbirlərin istifadəsi), ədalətli məhkəmə araşdırması hüququnun, ifadə azadlığının, toplaşmaq və birləşmək azadlıqlarının pozulması və seçkilərin qanuniliyinin yoxlanılması ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) presedent hüququ[51]

3. Avropa Şurasının Nazirlər Komitəsi

   Avropa Şurası Nazirlər Komitəsinin (NK) üzv dövlətlərə *İfadə azadlığı, media plüralizmi və media mülkiyyətinin şəffaflığına dair Tövsiyəsi (2018)*
   Avropa Şurası Nazirlər Komitəsinin (NK) *"Gələcəyə istiqamətlənən" Avropanın açarı qismində uşaq hüquqlarının gücləndirilməsi haqqında Bəyannaməsi (2020))*
   Avropa Şurası Nazirlər Komitəsinin (NK) *Rəqəmsal mühitdə uşaqların şəxsi həyatının toxunulmazlığının qorunmasının zəruriliyi haqqında Bəyannaməsi (2021)*
   Avropa Şurası Nazirlər Komitəsinin (NK) üzv dövlətlərə *Gənclərlə işə dair CM/Rec(2017)4 saylı Tövsiyəsi*
   Avropa Şurası Nazirlər Komitəsinin (NK) üzv dövlətlərə *Gənclərin hüquqlara çıxışına dair CM/Rec(2016)7 saylı Tövsiyəsi*
   Avropa Şurası Nazirlər Komitəsinin (NK) üzv dövlətlərə *Əlverişsiz rayonlardan olan gənclərin sosial hüquqlara çıxışına dair CM/Rec(2015)3 saylı Tövsiyəsi*
   Avropa Şurası Nazirlər Komitəsinin (NK) *Rəqəmsal mühitdə uşaq hüquqlarına hörmət, onların qorunması və tam həyata keçirilməsi üzrə rəhbər prinsiplərə dair CM/Rec(2018)7 saylı Tövsiyəsi*
   *GR-DEM(2019)11, Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin icrasının vəziyyəti (iyun 2017-may 2019)*
   Azərbaycanın üzərinə götürdüyü öhdəliklərin icrasının vəziyyətinə dair (iyun 2017-may 2019) hesabatla bağlı Avropa Şurası Nazirlər Komitəsinin (NK) *CM/Del/Dec(2021)1399/2.3 saylı Qərarı* (17 mart 2021-ci il)

4. Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresi

   Azərbaycanda yerli və regional demokratiya, *Yerli və Regional Hakimiyyətlər Konqresinin hesabatı (2012)*
   Azərbaycanda yerli və regional demokratiya, *Yerli və Regional Hakimiyyətlər Konqresinin Hesabatı (2021)*

5. Avropa Şurasının Parlament Assambleyası

   Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Assambleyanın monitorinq prosedurunun gedişinə (yanvar-dekabr 2020) dair *2357 (2021) saylı Qətnaməsi*
   AŞPA-nın 27 fevral 2020-ci ildə dərc olunmuş "Azərbaycanda növbədənkənar parlament seçkilərinin müşahidəsi (9 fevral 2020-ci il)" barədə seçki müşahidə hesabatı

6. Monitorinq və ekspert məsləhət qurumları

   Venesiya Komissiyasının 96-cı Plenar sessiyasında qəbul edilmiş Azərbaycan Respublikasının diffamasiyadan müdafiə ilə bağlı qanunvericiliyinə dair *Venesiya Kommissiyasının Rəyi* (Venesiya, 11-12 oktyabr 2013-cü il)

[51] Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarlarının İcrası Departamentinin Azərbaycanla bağlı məlumat bülleteni, *https://rm.coe.int/168070973e*.

Yenidən baxılmış Avropa Sosial Xartiyasının qəbul edilmiş müddəalarının "Uşaqlar, ailələr və miqrantlar" tematik qrupunda həyata keçirilməsi ilə bağlı Sosial Hüquqlar üzrə Avropa Komitəsinin (ECSR) *2019-cu il üçün rəyləri*
Yenidən baxılmış Avropa Sosial Xartiyasının qəbul edilmiş müddəalarının "Məşğulluq, təlim və bərabər imkanlar" tematik qrupunda həyata keçirilməsi ilə bağlı Sosial Hüquqlar üzrə Avropa Komitəsinin (ECSR) 2020-ci il üçün rəyləri
Lansarote Komitəsi, "Uşaqların etimad mühitində cinsi istismardan müdafiəsi: strategiyalar", 31 yanvar 2018-ci ildə Lansarote Komitəsi tərəfindən qəbul edilmişdir
İrqçilik və dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRI) irqçilik və ayrı-seçkiliklə mübarizə tədbirləri ilə bağlı tövsiyələri özündə əks etdirən beşinci monitorinq sikli (2016) çərçivəsində Azərbaycana dair *hesabatı*
ECRI-nin Azərbaycanla əlaqədar *prioritet tövsiyələrin icrası ilə bağlı rəyləri* – vətəndaş cəmiyyəti üçün şərait yaradılması və hərbi xidmətin alternativləri ilə bağlı aralıq tədbirlər (2019)
Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının (FCNM) Məşvərət Komitəsinin *Azərbaycan üzrə dördüncü hesabatı* (2017)
Ədalət mühakiməsinin səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) *Avropa məhkəmə sistemləri üzrə hesabatı (2020-ci il üzrə qiymətləndirmə sikli)*
Məhkəmə sistemlərinin qiymətləndirilməsi çərçivəsində (2018-2020) Azərbaycanın *CEPEJ-in sorğu anketinə cavabları*
Avropa Hakimlərinin Məşvərət Şurasının (CCJE) rəyi: *"Məhkəmə orqanlarının müstəqilliyinin dəstəklənməsində hakimlər assosiasiyalarının rolu"* (2020)
Avropa Hakimlərinin Məşvərət Şurasının (CCJE) rəyi: *"Məhkəmə köməkçilərinin rolu"*
Avropa Prokurorlarının Məşvərət Şurasının (CCPE) *prokurorlarla bağlı rəyləri (2007-2020)*
*İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) Azərbaycana 2016-cı il səfərinin yekunlarına dair hesabatı (2018)*
25 yanvar 2019-cu il tarixdə Fərdi Məlumatların Emalı ilə bağlı Fərdi Şəxslərin Müdafiəsi Konvensiyası (Konvensiya 108) tərəfindən qəbul edilmiş süni intellekt və məlumatların mühafizəsi üzrə təlimatlar
*Fərdi məlumatların avtomatlaşdırılmış qaydada işlənməsi ilə əlaqədar şəxslərin qorunması haqqında Konvensiyanın (108 saylı Konvensiya) Məşvərət Komitəsi tərəfindən 25 yanvar 2019-cu ildə qəbul edilmiş süni intellekt və məlumatların qorunmasına dair rəhbər prinsiplər*
Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) – *Dördüncü qiymətləndirmə raundu çərçivəsində təqdim edilmiş parlament üzvlərinin, hakimlərin və prokurorların korrupsiyaya yol verməsinin qarşısının alınmasına dair Azərbaycan üzrə Uyğunluq hesabatı (2019)*
Korrupsiyaya Qarşı Dövlətlər Qrupu (GRECO) – *Azərbaycan üzrə Dördüncü qiymətləndirmə raundu çərçivəsində İkinci Uyğunluq hesabatına Əlavə* (2021)
*Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi və terrorçuluğun maliyyələşdirilməsi haqqında Avropa Şurası Konvensiyasının (CETS № 198) Tərəflərinin Konfransının 9-cu maddənin 3-cü bəndi üzrə tematik monitorinqinin icmalı* (2019)
*Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi və terrorçuluğun maliyyələşdirilməsi haqqında Avropa Şurası Konvensiyasının (CETS № 198) Tərəflərinin Konfransının 7-ci maddənin 2c bəndi və 19-cu maddənin 1-ci bəndi üzrə tematik monitorinqinin icmalı* (2020)
*Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyasının Azərbaycan tərəfindən icrası ilə bağlı GRETA-nın hesabatı* (2018)
*Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyasının Azərbaycan tərəfindən icrasına dair CP(2018)24 saylı Tövsiyə (2018)*
*Pompidu Qrupunun 2019–2022-ci illər üçün İş Proqramı: "İnsan hüquqlarına hörmət nəzərə alınmaqla narkotiklərlə əlaqədar siyasət"*

7. Rəhbər prinsiplər

*Avropa Şurasının Əməkdaşlıq layihələrində gender amilinin nəzərə alınması üçün alətlər toplusu*
*2018-2023-ci illər üçün Gender Bərabərliyi Strategiyası*
*2016-2021-ci illər üçün Uşaq Hüquqları Strategiyası*
*Avropa Şurasının əməkdaşlıq fəaliyyətlərində vətəndaş cəmiyyəti təşkilatlarının iştirakına dair rəhbər prinsiplər*
*Siyasi qərarların qəbulunda vətəndaşların iştirakına dair rəhbər prinsiplər*
*Avropa Şurasının Layihələrin idarə edilməsi metodologiyası*
*Avropa Şurasının Risklərin idarə edilməsi siyasəti*
*Avropa Şurasının Risklərin idarə edilməsinə dair rəhbər prinsipləri*

Avropa Şurasının müvafiq konvensiyaları və Təşkilatın digər sənədləri, məsələn, Demokratik vətəndaşlıq tərbiyəsi və insan hüquqları sahəsində təhsil haqqında Avropa Şurasının Xartiyası da bu Fəaliyyət Planına daxil edilmiş əməkdaşlıq tədbirləri üçün istinad materialı kimi istifadə edilmişdir.

**Azərbaycanın milli siyasət sənədləri**

*Azərbaycan 2030: Sosial-İqtisadi inkişafa dair Milli Prioritetlər*
2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf strategiyası
Məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı (MFP)
*Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı*
İnsan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı

**Avropa Şurası**
**Proqramlar üzrə baş Direktorluq**
Avenue de l'Europe
F-67075 Strasbourg Cedex
E-mail : odgp@coe.int
www.coe.int/programmes

**Avropa Şurasının**
**Bakıdakı Ofisi**
Marine Plaza
Üzeyir Hacıbəyli küçəsi 62
Bakı, AZ1010, Azərbaycan
Tel : +994 12 599 11 62, 63, 64, 65
Fax : +994 12 599 05 30
E-mail : fieldbaku@coe.int
www.coe.int/baku

PREMS 022022

AZ

**www.coe.int**

Avropa Şurası qitənin insan hüquqlarını müdafiə eden aparıcı təşkilatıdır. Avropa İttifaqının bütün üzv dövlətləri daxil olmaqla 46 üzv dövlətdən ibarətdir. Avropa Şurasının bütün üzv dövlətləri insan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışdir. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə tətbiq edilməsinə nəzarət edir.

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE